# İSLAM MAARİFİ

(qısa tanışlıq)


**Tərcümə və təhqiq:**

**İlahiyyatçı Rövşən Əhmədzadə**



**Voronej - 2013**

***Bu kitabda müəllif, İslam dini haqqında çox qısa məlumat vermiş, o cümlədən müsəlmanlara vacib olan nöqtələri bəyan etmişdir. Müəllif çalışmışdır ki, dinin xurafat yox, İlahi bir müqəddəs qanun toplusu olduğunu cəmiyyətə çatdırsın.***

Kitabın adı: .................................. İslam maarifi
Müəllif: .....................................Rövşən Əhmədzadə
Nəşriyyat: .................................................. "Sprint"
Çap tarixi: ........................................................ 2013
Çap növbəsi: ................................................ Birinci
Tiraj: ............................................................... 1000

# ÖN SÖZ

***BAĞIŞLAYAN VƏ MEHRIBAN ALLAHIN ADI ILƏ***

Varlıq aləmini cana gətirən,
Dillərdə hikmətli sözlər bitirən,
Əyridən insanı düzə götürən,
Əzim, Qadir, Əzəl Haqqın adıyla.

Insan düşüncəli bir mövcuddur. O, hər bir məsələni özü üçün araşdırır və qarşıya çıxan suallara cavab axtarır. O düşünür: Mən kiməm? Haradan gəlmişəm? Nə üçün gəlmişəm? Hara gedirəm? Aqibətim nə olacaq? Insan əbəsmi yaradılıb? Və s... Bu düşüncəli varlıq öz suallarına qənaətbəxş cavab tapanadək heyrətdə və başını itirmiş vəziyyətdə qalacaq.

O biri tərəfdən bilirik ki, insanların tərəqqi, inkişafı və kamala çatmasında əsas məsələ "**zəngin və dolğun məktəb və mədəniyyət**" ola bilər. Bununla da o, müxtəlif cəhətlərdə bütün insanları hərtərəfli inkişaf, kamal və səadətə doğru apara bilər. Məhz, belə bir məktəb mütləq Allah tərəfindən olmalıdır. Buna görə də yalnız Əhli-beyt (Allahın salamı olsun Onlra) tərəfindən gəlib çatan mədəniyyət və ideologiya daha hərtərəfli və daha faydalı ola bilər.

Buna əsasən də bizə lazımdır ki, hidayət və inkişaf yolunda belə humanitar məktəb və zəngin mədəniyyətə hərtərəfli maraq göstərərək, onu özümüzə əməli və həyat proqramı tə`yin etməklə dünya və axirət səadətini qazana bilək. Çünki, dünyanın heç bir yerində belə bir kamal və mə`rifət bağışlayan bir məktəb tapa bilmərik. Belə ki, bu məktəbin mədəniyyətindən başqa, digər mədəniyyətlərlə

həqiqi təkamül zirvəsinə çatıb aşkar xoşbəxtliklərə nail olmaq heç vaxt mümkün olmayacaqdır.

Bu kitab İslamın əsas və zəruri məsələlərini bəyan etmək üçün yazılmışdır. Insan çox vaxt məs`uliyyət hiss etmir və yalnız özünün xeyir və faydasını güdür. O, bilməlidir ki, özünün və ailəsinin maddi ehtiyaclarını tə`min etdiyi kimi, onların mə`nəvi ehtiyaclarını da tə`min etməlidir. Belə ki, batil düşüncə sahibləri onların sorağına gəlməmiş, İslam maarifini öyrənmək üçün şərait yaratmalıdır.

Ümid edirik ki, Allah-təala bu kiçik əsəri insaniyyət və kamillik yolunda müsəlmanlar üçün yol azuqəsi buyursun, onlara müvəffəqiyyət və yardım əta etsin ki, öz gələcəklərini qurmaq üçün İslam elmləri və maarifindən faydalana bilsinlər.

Allah-təala bu kiçik təlaşı qəbul edib savab yazarsa, həmin savabı mö`minə və mərhumə Xədicə nənəmin ruhuna hədiyyə edirəm.

İlahi! Səni and veririk Əhli-beytin xatirinə, bizə Qur`an və Əhli-beyt maarifinin nurunu qəlbimizə dadızdır və aqibətimizi xeyrlilərdən qərar ver! Amin, ya Rabbəl aləmin.

1434/ 14 rəcəb 2013/ 05 may

Voronej

# Birinci fəsil

***BAĞIŞLAYAN VƏ MEHRIBAN ALLAHIN ADI ILƏ***

## ALLAH[1]

Dünyada elə bir insan yoxdur ki, inancı olmasın. Belə ki, hər bir şəxsin qə`bul etdiyi öz inanc və əqidəsi vardır. Belə ki, bə`ziləri "Allahın birliyinə", bə`ziləri "ateizmə" bir qismi "bütlərə", digər bir qismi isə hətta "heyvanlara" inanır və pərəstiş edirlər. Təssüflə qeyd etmək lazımdır ki, "Allahın birliyinə" iman gətirənlər (yə`ni müsəlmanlar) arasında elələri də vardır ki, Allahı düzgün tanımır, O müqəddəs varlığın (Allaha pənah aparırıq) insan kimi əli, ayağı və s. üzvləri olduğunu qə`bul edirlər. Hətta Uca Allaha "cins" tə`yin edərək - "**O kişi bilən məsləhətdir**" - deyə, vaxtaşırı bu cümləni dilə gətirir və azyaşlı övladlarına "**Allah baba**" kəlməsini öyrətməklə günaha batırlar.

Bə`zən cəmiyyət arasında elə insanlar da tapılır ki, görmədiyi Allaha inanmaq istəmir. Halbuki, bu dünyada gözə görünməyən bir sıra şeylərin (məsələn; ağıl, vicdan, cazibə qüvvəsi və s.) varlığına səmimi qəlbdən inanır və zərrə qədər də şбəkk-şübhə etmirlər. Lakin "Allahın varlığı" məsələsinə gəldikdə isə axsayırlar.

[1] Əslində bu müqəddəs kəlam "**Əllah**" kimi tələffüz edilir.

İmam Cəfər Sadiqin (əleyhissəlam)[1] tələbələrindən olan Bəhlul Dənəndə[2] haqqında bir əhvalatı yada salırıq:

"Bir gün Bəhlul məscidin yanından ötərkən Əbu Hənifənin[3] öz şagirdlərinə dərs keçdiyini görür. Ayaq saxlayır və qulaq asmağa başlayır. Görür ki, Əbu Hənifə deyir: İmam Cəfər Sadiqin (ələyhissəlam) bə`zi sözləri məni çox təəccübləndirir. O deyir ki, Allah-təala nə bu dünyada, nə də axirətdə görünməyəcək. Mən isə deyirəm, məgər mümkündür ki, bir varlıq olsun, amma gözə görünməsin?

O deyir ki, şeytan axirətdə Cəhənnəm odunda yanacaq. Mən isə deyirəm, şeytan oddan yaranmışdır. Bir şey ki, oddan yaranıbsa, daha o, heç vaxt odda yanmaz və atəş ona tə`sir etməz.

O deyir ki, insanlar öz işlərinə məs`uldur (Yə`ni, öz əməllərində ixtiyar sahibidirlər). Mən isə deyirəm, bütün işlər Allahın iradəsinə bağlıdır və biz öz əməllərimizə məs`ul deyilik. Işlərimiz və əməllərimiz Allahın ixtiyarındadır.

Bəhlul bu sözləri eşidən kimi yerdən bir parça bərkimiş torpaq götürüb Əbu Hənifənin başına vurdu. Başı qanayan Əbu Hənifə Bəhlulu tutub qazının yanını şikayətə gəldi.

Qazı Bəhlulu dindirdikdə o belə cavab verir: Mən gördüm Əbu Hənifə deyir ki, hər nə varsa, gərək

---

Yə`ni, "Ona salam olsun".[1]

"Dənəndə" fars kəlməsi olub "alim, bilən" mə`nasını verir. [2]

"Hənəfi" məzhəbinin banisi. [3]

gözə görünsün. Indi o, başının ağrıdığını deyir. Əgər doğru deyirsə, ağrını mənə göstərsin.

O deyir ki, şeytan oddan yaranmışdır və bir şey ki, oddan yaranıbsa, heç vaxt odda yanmaz. Əbu Hənifə də torpaqdan yaranmışdır. O ki, deyir mən onu torpaq parçası ilə vurub başını yarmışam, yalan deyir. Çünki o, torpaqdan yaranıb. Bir şey ki, torpaqdan yarana, torpaq daha onu yaralaya bilməz və ona heç bir tə`sir edə bilməz.

O deyir ki, insan öz işlərinə cavabdeh deyil və bütün işlər Allahın iradəsi ilə həyata keçir. Əgər mən torpaq parçası ilə onun başına çırpmışamsa, mənim təqsirim yoxdur. Çünki mən Allahın iradəsi ilə hərəkət etmişəm. Deməli, o məndən yox, Allahdan şikayət etməlidir.

Əbu Hənifə Bəhlulun cavablarını eşidib öz sözlərindən utandı və qazının yanından çıxdı. Qazı da Bəhlulu əfv edib buraxdı.”[1]

“Nəhcul-fəsahə” kitabının 1304-cü hədisində Məhəmməd[2] Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm)[3] mübarək dilindən belə buyurulur: Çox sayda “lə iləhə illəllah” (Allahdan başqa bir mə`bud[4] yoxdur) - deməklə, imanınızı təzələyin!

Həzrət Əli (ələyhissəlam) buyurur: “Hər kəs özünü tanıyarsa, Allahını da tanıyar.” Yə`ni, hər kəs öz

---

“Qəlbe səlim”, səh. 213.[1]

Əslində bu mübarək ad “Muhəmməd”dir.[2]

Yə`ni, “Allahın rəhmət və salamı Ona və ailəsinə olsun.[3]

[4] Yə`ni, “ibadət olunası varlıq.”

cisminin və bədən üzvlərinin incəliklərinə, hərəkət etməsinə, funksiyasına diqqətlə nəzər salsa və bu barədə düşünsə, onda Allah-təalanın sonsuz bir qüdrətə və hikmətə malik olduğunu görər, özünün necə bir qəribə məxluq olduğunu anlayar. Nəticədə isə Yaradanı qabiliyyəti qədər düzgün tanıyar.

Əlbətdə ki, Allahı tanıma məsələsində bəşərin bu barədə agahlığı tam və kamil surətdə qeyri-mümkündür. Çünki, "naqis" varlıq olan insan, "kamil" bir varlıq olan Allahı necə tanısın?! Lakin Yaradanı "nisbi" tanımaq mümkündür və bu da bütün insanların boynunda olan zəruriyyətdir. Belə ki, Allahın Xaliq[1], Qadir[2], Razzəq[3], Əlim[4], Rahim[5], Rabb[6] və s. sifətlərini araşdırdıqda Onun haqqında az da olsa, lazımi mə`lumat əldə etmiş oluruq.

İmam Əlinin (ələyhissəlam) **"Nəhcul-Bəlağə"**dəki 1-ci xütbəsində buyurduğu "Allahı tanıma" haqqında olan dərin və mə`nalı kəlamlarına diqqət edək:

"Bütün danışanların mədh etməkdə və tə`rifləməkdə aciz qaldığı Allaha həmd olsun! Insanlar Onun zatına layiq olan tə`rifi etmək gücündə deyil.[7]

---

"Yaradan".[1]
"Qüdrətli".[2]
"Çox ruzi verən".[3]
"Çox Bilən".[4]
"Mehriban".[5]
"Tərbiyə edən".[6]
Yə`ni, mən Səni mədh etmək qüdrətində deyiləm və acizəm. Gərək Sən [7] Özün müqəddəs zatını mədh edəsən.

Onun ne`mət və bəxşişlərini saymaq istəyənlər, sayıb qurtara bilməzlər.[1]

Çalışanlar Onun ne`mətlərinin haqqını qaytara bilməzlər.[2] O, elə bir mə`buddur ki, dərin düşüncəlilər belə Onu dərk edə bilməzlər. Əql və fikir dəryasına dalanlar (düşüncə dənizinə baş vuranlar) Onun zatının əslinə vara bilməzlər... Onun üçün müəyyən edilmiş zaman da yoxdur...[3] Məxluqatı Öz qüdrəti ilə yaratdı. Küləkləri Öz mərhəmət və mehribanlığı ilə əsdirdi. Yerin hərəkətini, titrəyişlərini nəhəng daşlar və əzəmətli dağlarla möhkəmləndirdi.

Dinin əsası Onu tanımaqdır. (Bilinməlidir ki, varlıqları yaradan Odur.) Allahı tanımağın kamalı Onu təsdiqləyib Ona tərəf yönəlməkdir. Təsdiq etməyin kamalı tovhid[4] və Onu Tək bilməkdir. Tovhidin kamalı əməlləri Onun üçün xalis etməkdir.[5] Ixlasın kamalı Onun zatına əlavə olunmuş sifətin təsəvvür

---

[1] Yə`ni, Haqq-təalanın əta etdiyi ne`mətlər saysız-hesabsızdır və onların sonunu təsəvvür etmək mümkün deyil. Ibrahim surəsinin 34-cü ayəsində buyurulur: **“Allahın ne`mətlərini saymaq istəsəniz, buna qüdrətiniz çatmaz.”** Elə isə Yaradanın ne`mətlərini saya bilməyən kimsə, Onun haqqını necə ödəyə və Ona necə şükr edə bilər?

Yə`ni, belə isə, şükür etməyin ən yüksək dərəcəsi bəndənin Onun [2]
ne`mətlərinin haqqını ödəməkdə aciz olduğunu e`tiraf etməsidir.

Yə`ni, Onun barəsində «xeyli vaxt öncədən mövcud olduğu» söylənilə [3]
bilməz. Çünki O, zamanın Yaradıcısıdır və zamanın içində olmağa ehtiyacı yoxdur ki, zaman onu əhatə edə bilsin.

Əslində bu kəlam “təvhid”dir. Yə`ni, Allahı hər bir cəhətdə Yeganə və [4]
Misilsiz bilmək.

Çünki tovhid ixlasdan başqa bir yolla kamilləşə bilməz. Yə`ni, Allahı [5]
tanıyanın hər bir sözü, hər bir əməli Ona xatir olmalıdır, heç bir dünyəvi məqsədlərə qarışmamalıdır.

edilməməsidir... [1] Başqasını Ona tay bilən ikiliyə düşmüş olar. Ikiliyə düşən isə Onun bölünüb-parçalana biləcəyinə inanmış olar. [2] Onun bölünə biləcəyinə inanan hər kəs Onu tanımır. Onu tanımayan, Ona doğru işarə edər. Ona işarə edən, Onu məhdudlaşdıraraq çevrələyər (Onun üçün hədd və nəhayət yaradar). Onu məhdud hesab edən Onu sayar (Onu özündən xaricdə say vahidinə çevirər). «Nədədir?» sualını verən isə Onu nəyinsə daxilində yerləşdirər (Onun üçün yer və məkan seçər). «Nəyin üstündədir?» deyə soruşan bə`zi yerləri Ondan boş hesab edər. [3] Allah-təala həmişə olmuşdur, sonradan əmələ gəlmiş və yeni yaranmış deyil... [4] Hər şeylə yanaşı olmadan onlarladır (Beləliklə, O, hər bir şeylədir. Hər bir şey Onunla dirçəlib, mövcud olub). Hər bir şeydən fərqlidir, amma onlardan kənar, ayrı deyil.[5] Iş görəndir, Ondan iş hasil olur, amma bu, nə haldan-hala keçmə, nə hərəkət [6] və nə də alət

---

[1] Məsələn, «Allahın elmi Onun zatına artırılmış, Özündən xaric bir sifətdir» deyilməsin. Bu düşüncə tovhidə ziddir.

[2] Yə`ni, bölünüb-parçalana bilən hər bir şey isə tərkibdən təşkil olunub və hər tərkib də hissələrdən ibarətdir.

[3] Yə`ni, «Harada deyil», «nəyin üstündədir» deyərsə, Onu materiya və tərkibdən ibarət sanmış olar. Bundan isə belə çıxar ki, O sonradan əmələ gəlmiş, yeni yaranmışdır.

[4] Yə`ni, Haqq-təala müəyyən bir zamanda yaranmayıb. Bu cümlədə O Həzrət müəyyən zamanda yaranışı Haqq-təaladan istisna edir.

[5] Yə`ni, hər hansı bir şeydən kənara çəkilsə, ondan bir şey qalmaz. Çünki hər şeyi saxlayan Odur.

[6] Çünki hərəkət materiyanın (maddənin) xüsusiyyətidir. O isə, materiyadan uzaqdır.

mə`nasında deyil (Əgər alət vasitəsilə iş görərsə, demək Onun Özündən başqasına ehtiyacı var. Ehtiyac isə nöqsandır. Buna görə də zatən gözü olmadan görəndir). Yaratdıqlarından heç biri olmayarkən də Görən idi. Onunla ünsiyyət qurmaq (aramlıq tapmaq üçün) və yoxluğundan dəhşətə gəlməmək üçün üns tutulan və aramlaşdıran (əminlik əldə olunacaq bir şey) olmadığı halda da Tək və Vahid idi...”

Göründüyü kimi Həzrət Əli (ələyhissəlam) heyrətedici xütbəsilə insanların Allaha olan baxışını (düşüncəsini) dəyişdirir və Onu qabiliyyətimiz qədər düzgün tanımaqda bizə yardım edir.

Allah gözə görünməzdir və Onun müqəddəs zatı haqqında düşünmək qadağandır. Çünki Onun tayı-bərabəri yoxdur. Buna görə də Allah-təala bizə təfəkkür, idrak və əql qüvvəsi bəxş etdiyinə görə əmr etmişdir ki, Onun yaratdığı varlıqlar barəsində şüurumuzu, ağlımızı işə salıb Allahın hikmətində, kainatdakı nişanələrində və insanın daxili aləmində dərindən düşünək.

Rəvayətdə oxuyuruq: “Bir gün Məhəmməd Peyğəmbər (səlləllahu ələyhi və əlihi və səlləm) Öz səhabələri ilə birlikdə küçədən keçərkən qoca bir qadının ip əyirdiyini görür. Həzrət (səlləllahu ələyhi və əlihi və səlləm) ondan soruşur: Allahı qə`bul edirsənmi? Deyir: Əlbətdə. Buyurur: Allahın mövcud olmasına sübutun nədir? Qoca qadın əlini ip əyirdiyi alətdən çəkir və deyir: Bu, mənim sübutumdur. Əgər əlim aləti hərəkət etdirməsə, onda bu alət dayanar və

hərəkət etməz. Aləmdə olan bu qədər hərəkət etməli olan şeylərin hərəkət etdirənə ehtiyacı yoxdurmu? Bunu eşidən Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) mübarək üzünü səhabələrinə çevirib buyurur: Siz də bu qarı kimi Allahı tanıyın!"[1]

Başqa bir rəvayətə diqqət edək: "Bir nəfər Həzrət Əlinin (ələyhissəlam) yanına gəlib soruşdu: Ya Əmirəl-mö`minin![2] Allahı nə ilə tanıdın? Buyurdu: Mənim əzm[3] və qərarlarımı pozması ilə. Mən bir işi görmək istədikdə maneələr və qəzavü-qədər onunla məqsədlərim arasında fasilə salaraq onun həyata keçməsinə mane oldu. Başa düşdüm ki, (bu işi) tədbir edən və onun axırını fikirləşən başqa bir Kəsdir.

Soruşdu: Hansı səbəbə görə Allaha həmd edirsən? Buyurdu: Məndən necə (böyük) bəlaları dəf etdiyini, həmçinin başqalarına bəlalar varid etdiyini gördükdə başa düşdüm ki, O mənə minnət qoymuşdur. Mən də Ona şükür etdim.

O şəxs yenə də soruşdu: Nəyə görə Onunla görüşəcəyinə bu qədər şövq bəsləyirsən? Buyurdu: Öz mələklərinin və Peyğəmbərlərinin (ələyhimussəlam)[4] ayinini (dinini) mənim üçün seçdiyini, ne`məti mənə tamamladığını gördükdə bildim ki, məni bu qədər

---

[1] "Pənde tarix", c. 1, səh 9 və "Yeksəd movzu pansəd dastan", seyyid Əli Əkbər Sədaqət, c. 2, səh. 170.

[2] Yə`ni, "mö`minlərin əmiri" (rəhbəri).

[3] Istək, sə`y.

[4] Yə`ni, "Onlara salam olsun".

əzizləyən Allah heç vaxt məni unutmaz. Buna görə də Onunla görüşə müştaq oldum.” [1]

Bəli, hörmətli oxucu! Mehriban olan Allah heç vaxt yaratdıqlarını unutmaz. Unudan bizlərik. O, öz bəndələrini çox sevir və hətta Ona qarşı nankor və küfr edənlərin belə ruzisini yetirir.

## Allahın varlığı aydın bir həqiqətdir

Hər bir hadisə və yaranmışın qurub-yaradana ehtiyaclı olduğu aydın bir həqiqətdir. Bir hadisə baş verən kimi hamı onun səbəbini axtarır. Istənilən birimiz rəqəmsal bir qurğu və ya kompyuter gördükdə əmin oluruq ki, bütün bunların mahir bir yaradıcısı var. Əgər bir şəxs kompyuterin öz-özünə, təsadüfən yarandığını bildirsə, dərhal düşünürük ki, həmin şəxsin ağlı yoxdur. Yaxud insan gözəl bir tablo gördükdə dərhal onun yaradıcısı ilə maraqlanır, bu işin hansı rəssamın fırçasından yarandığını soruşur.

Əgər yaşadığımız dünyada hər şeyin bir yaradanı (düzəldəni) varsa, əzəmətli varlıq aləmi də yaradıcısız ola bilməz.

Kim inanar ki, zirvələri buludları yarıb keçmiş dağlar, əzəmətli dənizlər və okeanlar, saysız-hesabsız ulduzlar, planetlər, insanı heyrətə gətirən atmosfer qatları, növbənöv bitkilər, həşəratlar, dördayaqlılar,

“Biharul-ənvar”, “adabus-səlat” babı, c. 81, səh. 254.[1]

sürünənlər və quşlar, nəhayət insanın özü təsadüfən, xaliqsiz yaranmışdır?

Əşya və mövcudların  insanı heyran qoyan zərif nöqtələri, onlar arasındakı qarşılıqlı rabitlər qüdrətli bir yaradanın varlığına növbəti dəlildir.

Insanın yaranışına nəzər salın! Körpə dünyaya gələnədək onun anasının sinəsində süd olmur. Amma körpə dünyaya gələn kimi onun rahatlıqla qidalanması üçün ananın sinəsində süd yaranır. Belə ki, o, həmin anlarda süddən başqa qida qə`bul etmək qüdrətində deyil. Sonra körpə elə bir həddə çatır ki, ana südü onun orqanizminin ehtiyaclarını tə`min etmir. Həmin vaxt körpənin dişləri çıxır və bu dişlər dəyirman tək müxtəlif qidaları üyüdür. Bir müddət sonra həmin körpəyə deyilsə ki, sən və sənin yaşadığın dünya təsadüfi yaranıb, deyilənləri qə`bul edərmi? Axı o öz gözləri ilə müşahidə edib ki, qışda bir "qar adam" düzəltməkdən ötəri neçə uşaq bir yerə toplanır, hərə bir iş görür. Axı o necə inanar ki, qar adamı bir neçə nəfər çalışıb düzəldirsə, hərəkət edən şüurlu insan yaradıcısız olsun?

Bəli, hara baxsaq, varlıq aləmindəki əşya və mövcudların istənilən birini diqqətlə nəzərdən keçirsək, hikmət və qüdrət sahibi olan Allahın əsərlərini müşahidə edərik.

Qeybə çəkilmədin gözüm araya,
Üzbəüzdə gördüm baxdım haraya.
Yüz min cilvə ilə səhnədəsən Sən,

Yüz min gözlə Səni seyr edirəm mən.

Səhraya baxıram yad edir səni,
Dəniz də oxuyur həmin nəğməni.
Baxdığım dağlar da, düzənliklər də,
Təkrar-təkrar söylər həmin kəlməni.

## Sultan və bilikli vəzir

Keçmiş zamanlarda bir sultan bir ölkəyə hakimlik edirdi. O, zalım idi və Allahın vücudunu inkar edirdi. Bu sultanın tək Allaha inanan bir vəziri var idi. Vəzir dəfələrlə çalışmışdı ki, sultanı təkallahlığa cəlb etsin, lakin buna nail ola bilmirdi.

Bir gün vəzir ölkənin görkəmli me`marlarından birini saraya də`vət edib ona əmr etdi ki, sultanın ovlağında gözəl bir qəsr tiksin və ona cürbəcür güllərlə zinət versin. Amma bu işi elə görsün ki, sultan və onun ətrafındakılar bundan xəbər tutmasınlar.

Bir müddət keçəndən sonra me`mar xəbər verdi ki, qəsr hazırdır. Sonra vəzir bir bəhanə tapıb sultanı ovlağa apardı. Sultan uzaqdan qəsri ovlağında görüb təəccüblə soruşdu: “Ovlaqda görünən nədir?” Vəzir cavab verdi: “Sultan sağ olsun, yaxşı olar ki, gedək yaxından bu sirri öyrənək.”

Sultan razılaşdı və birlikdə qəsrə tərəf yola düşdülər. Qəsrə çatdıqda, sultan onun hər tərəfini gözdən keçirib təəccüblə soruşdu: “Bu qəsri çöllükdə kim tikib?”

Vəzir dedi: “Keçən il qışda sel gəlmişdi. Sel özü ilə bir az torpaq, bir az da daş gətirmişdi. Daş və torpaq

bura çatan kimi torpaqlar bir-birinə yapışıb kərpic şəklinə düşdülər. Sonra kərpiclər və daşlar təsadüfi olaraq bir-birinin üstünə yığıldılar. Beləliklə, bu qəsrin divarları əmələ gəldi.

Sonra başqa bir sel çoxlu miqdarda ağac qırıb bura gətirdi və ağaclar taxtaya dönüb təsadüfi olaraq divarların üstünə yığıldılar. Beləliklə də qəsrin tavanı düzəldi.

Daha sonra başqa bir sel gəldi. Qapı- pəncərələr divarlara yapışdı və bu qəsri düzəltdilər.

Axırda isə külək gül-çiçəkləri çöl və bağlardan qırıb bura gətirdi. Sonra təsadüfi olaraq onları burda əkdi və bu gözəl gülüstan əmələ gəldi."

Vəzirin sözlərini eşidən sultan əsəbləşib dedi: "Dəli olmusan, yoxsa məni dəli sayırsan? Əgər me`mar, usta və iş alətləri olmasa, bu gözəllikdə qəsrin düzəlməyi mümkün deyil."

Bunu eşidən vəzir fürsətdən istifadə edərək belə cavab verdi: "Sultan sağ olsun, siz deyirsiniz ki, bu gözəllikdə qəsrin düzəlməyi daş və torpaqla mümkün deyil. Bəs onda necə ola bilər ki, bu gözəllikdə və bu əzəmətdə olan aləm öz-özlüyündə əmələ gəlsin və heç bir xaliqi (yaradanı) olmasın? Bəs necə mümkündür ki, Ay və Günəş, yer və göylər, ulduzlar, dağlar, çöllər, çaylar, dənizlər, otlar, heyvanlar və s. öz-özünə yaransın və yaradanı olmasın?"

Sultan vəzirin nəsihətlərindən oyandı və tək olan Allaha iman gətirdi.[1]

---

"Məaarefe Qoran" , səh.124.[1]

Özü yaranışa möhtac olan kəs,
Mümkünmü varlığa verə bir nəfəs?!

## Allahı tanımağın insana olan tə`sirləri

Allahı tanımaq insan həyatına aşağıdakı müsbət tə`sirləri göstərir:

**1-Elmin inkişafı**

Təsəvvür edin ki, bir dostunuz səfərdən gəlib və sizin üçün bir kitab hədiyyə gətirmişdir. O, bu kitabın çox gözəl və maraqlı olduğunu bildirir. Kitabın gözəlliyinin səbəbini soruşduqda deyir ki, bunun müəllifi çox diqqətli, mahir, təcrübəli, bilikli və öz ixtisasında usta bir şəxsiyyətdir. Şübhəsiz ki, belə bir kitabı siz üzündən oxuyub keçməyəcəksiniz. Əksinə, onun bütün ifadə, cümlə, hətta kəlmələrinə diqqət edəcəksiniz. Bir cümləsini başa düşmədikdə neçə saat, bəlkə də neçə gün ona vaxt sərf etməklə o cümlənin mə`na və məfhumunu başa düşmək istəyəcəksiniz. Bunun səbəbi nədir?! Səbəbi də budur ki, o kitabın müəllifi adi şəxs deyil. Əksinə, o müəllif böyük bir alimdir. Hər kəlməsində belə hikmətlər vardır.

Lakin sizə desələr ki, bu kitabın üzü, cildi qəşəng olsa da, müəllifi savadsız bir bir insandır, yəqin ki, o kitabı yalnız üzündən oxuyub keçəcəksiniz. Başa düşmədiyiniz yerdə də - “bu da müəllifin savadsızlığı

üzündəndir”-deyəcəksiniz. Insanın bu cür kitabın üzərində
vaxt sərf etməsi heyfdir.

Bu dünya da böyük bir kitaba bənzəyir. Onda olan hər bir məxluqat bir kəlmə, yaxud bir cümlə təşkil edir. Mö`min bir şəxsin nəzərində bu dünyada olan bütün məxluqatın hamısı hikmət üzündəndir. Mö`min olan şəxs Allahı tanımağın sayəsində xüsusi və fövqəladə bir diqqətlə dünya məxluqatının hikmət və sirrini öyrənməyə çalışır. Məhz bu məsələ elmin inkişafında böyük rol oynayır. Səbəbi də budur ki, o, bilir ki, bu məxluqatı yaradanın tükənməz elm və qüdrəti vardır. Buna görə də bu hikmət, sirr və fəlsəfəni tapmaq üçün daha dəqiq və daha güclü mütaliələr edir, axtarışlar aparır. Nəticədə isə elmi naliyyətlər əldə etmiş olur.

Ateist bir şəxs isə bu barədə heç bir mütaliə etmir. Çünki o, bunları yaradanı şüursuz təbiət bilir. Bə`zi materialist alimlərin elm kəşf edənlər sırasına qoşulmasının səbəbi budur ki, onlar Allahı qə`bul edir, lakin bu Allahı **“təbiət”** adlandırır və təbiətin “Allah” olduğunu iddia edirlər. Bunun səbəbi isə, materialistlərin təbiət üçün nizam-intizam, hesab və proqram iddia etməsidir. Qısa sözlə desək, Allahı tanımaq elmin inkişafına səbəb olur.

**2-Çalışmaq və ümid**

Insan öz həyatında çətinliklərlə üzləşdikdə, qapılar hər tərəfdən onun üzünə bağlandığı zaman, çətinliklərin müqabilində tənhalıq və zəiflik hiss

etdikdə Allaha olan iman, onun köməyinə tələsərək ona arxa və kömək olur. Allaha imanı olan şəxslər heç vaxt özlərini tənha və zəif hiss etmir, mə`yus olmurlar. Çünki onlar Allahın qüdrətinin hər şeydən üstün və çətinliklərin onun əlində asan olduğunu bilirlər. Onlar Allaha, Onun lütf mərhəmətinə, köməyinə və himayəsinə ümid bağlamaqla çətinliklərə qarşı mübarizəyə qalxır və bütün qüvvələrindən istifadə edirlər. Ona ümid bağlamaqla bütün çətinlikləri arxada qoyur, onlara qalib gəlirlər. Doğrudan da Allaha imanlı olmaq, insanlar üçün böyük bir arxadır. Ona imanlı olmaq insanı səbrli və dözümlü edir. Ona iman bağlamaq ümid çırağını həmişə ürəklərdə saxlayır. Məhz bu səbəbdən də mö`min insanlar heç vaxt özlərinə qəsd etmirlər. Özünə qəsd etməyin səbəbi yalnız məğlub, ümidsiz və mə`yus olmaqdır. Mö`minlər isə, heç vaxt məğlub və mə`yus olmurlar. Buna görə də Allahı tanımaq insana ümid bəxş edir.

**3-Məs`uliyyət hissi**

Bə`zi həkimlər, onlara kasıb və imkansız bir xəstə müraciət etdikdə müalicə üçün pul almamaqdan əlavə, onlara dərman almaq üçün öz ciblərindən pul da verirlər. Əgər xəstəlikləri bir qədər ciddi olarsa, səhərə qədər onun kasıb evində xəstənin başı üstə dururlar. Bu cür həkimlər Allaha inanan və mö`min şəxslərdir.

Lakin bə`zi həkimlər də vardır ki, pul almamış xəstəyə yaxın durmurlar. Bunlar imansız, ya da imanı zəif olan insanlardır. Insanın imanı olarsa, öz işində (hər hansı bir iş olursa, olsun) məs`uliyyət hiss

edəcəkdir. Öz vəzifəsini yaxşı yerinə yetirəcəkdir, öz işində güzəştə gedəcəkdir. Öz daxilində əməllərini izləyən mə`nəvi bir keşikçi hiss edəcəkdir. Imansız insanlar isə özünüsevər, təkəbbürlü və təhlükəli insanlardır. Özləri üçün heç bir məs`uliyyət hiss etmirlər. Başqalarına zülm edib, onların haqqını tapdalamaq, bu cür insanlar üçün çox sadədir. Beləəri yaxşı və xeyirxah işlər görməyə çox az razı olurlar.

Deməli, hər kəs Allahın hər an onu nəzarət etdiyinə inanarsa, o şəxs həmişə bütün işlərində məs`uliyyət hissi edəcəkdir.

**4-Rahatlıq**

Psixoloqların araşdırmalarından mə`lum olur ki, ruhi xəstəliyə mə`ruz qalma hazırki dövrdə əvvəlki vaxtlardan daha çoxdur. Onlar belə izah edirlər ki, bu xəstəliyə düçar olmağın səbəblərindən biri "nigarançılıq hissi" keçirməkdir. Gələcək hadisələrin, ölümün, müharibənin, kasıbçılığın, məğlubiyyətin və s. nigarançılığı insanı ruhi xəstəliyə düçar edir. Bunun müalicəsində isə deyirlər: **"Bu nigarançılıq aradan qaldıran səbəblərdən biri də Allaha iman bağlamaqdır."** Deməli, Allaha iman bağlamaq nigarançılığı dəf edir. Mehriban, Ruzi verən, bəndələrinin vəziyyətindən hər zaman agah olan və bəndələri ona üz tutan zaman onlara kömək edən Allah, imanlı insanları bu çətinliklərdən də rahat və azad edir. Məhz bu səbəbdən də həqiqi mö`minlər özlərini həmişə rahat hiss edirlər. Heç bir nigarançılıq onlara qalib gələ bilmir. Bütün işləri Allah xatirinədir.

Buna görə də, bir ziyan gördükdə əvəzini Allahdan istəyirlər. Hətta müharibə meydanlarında onların üzündə təbəssüm və sevinc hiss olunur.

Qur`an bu barədə belə buyurur: **«Iman gətirib imanlarını zülmlə (günahla) qatışdırmayanlar əmin - amanlıqdadırlar və hidayət olanlar (düz yolda olanlar) məhz onlardır.»**[1]

Allahı tanımaq insana aramlıq və rahatlıq bəxş edir. Qur`an buyurur: **«O kəslər ki, ayaq üstə, oturduqları və uzandıqları halda Allahı yadlarına salır, göylərin və yerin yaradılışı barəsində fikirləşir (qəlb və dilləri ilə deyir)lər: Pərvərdigara, bunu (bu əzəmətli aləmi) boş yerə yaratmamısan! Sən (faydasız və puç işlərdən) pak (və uzaq)san (və bütün bunlar mütləq ali məqsəd, yəni ağıl sahibləri üçün vəzifələr müəyyənləşdirmək və dünyada savab və əzaba layiq olmaq və onların axirətdə gerçəkləşməsi üçündür). Odur ki, bizi odun (Cəhənnəm) əzabından qoru.»**[2]

Nə vaxt olmadın ki, axtaram Səni?
Hər vaxt aşkarsan, könül həmdəmi.

Qeybə çəkilmədin gözüm araya,
Üzbəüzdə gördüm baxdım haraya.

Yüz min cilvə ilə səhnədəsən Sən,
Yüz min gözlə Səni seyr edirəm mən.

---

"Əl-Ənam" surəsi, ayə 82.[1]
"Ali-Imran" surəsi, ayə 191. [2]

# Ikinci fəsil

## DİN

“Din” - ərəb kəlməsi olub lüğətdə müxtəlif mə’nalarda işlənmişdir. Onlardan: “cəza”, “itaət”, “hökm”, s. qeyd etmək olar. Amma, bu sözün ən mühüm və ümdə mə’nası “**itaət və əmrə tabe olmaqdır**”.

İlahiyyat alimləri dini belə tə`rif edirlər: “Din, Allah-təala tərəfindən bəşəriyyətin xoşbəxtliyə çatmasından ötrü haqq Peyğəmbərlərə (əleyhimussəlam) nazil olan hökmlər və göstərişlər toplusudur. Ona görə bu əmrlərə və qayda-qanunlara tabe olmağı lazım bilmişdir ki, insanlar bunlara tabe olmaqla Allahın və`d etdiyi səadətə çatsınlar.”

Bə’zi alimlər isə belə demişlər: “Din, elə bir İlahi quruluşdur ki, ağıl və təfəkkür sahiblərini öz iradə və ixtiyarı ilə dünyada xeyirə, axirətdə isə səadətə tərəf sövq etdirir və onları düzgün yola istiqamətləndirir.”

Hər iki tə`rifə fikir verdikdə mə`naların eyni olduğunu görürük.

Dinin iki mühüm və əsas dayağı (kökü, şərti) vardır:

1-**Varlığın mənşəyinə əqidə** (Allaha iman);

2-**Bu əqidədən doğan tələblərə əməl etmək** (Allahın əmrlərinə itaət);

Din - insanların bu dünyada yaxşı yaşayış və axirət evində əbədi səadəti üçün Allah tərəfindən təqdim olunmuş kamil proqramdır. Şübhəsiz ki, insanların hidayəti (doğru yola sövqü) və xoşbəxtliyi üçün ən kamil olan bu proqram, insanı varlıq aləminin həqiqətləri ilə tanış edir.

Din - problemlərlə qarşılaşmış insan üçün ən e`tibarlı sığınacaqdır. Insana izzət və böyüklük verən yalnız "**din**" və "**iman**"dır.

İlahi dinlər ayrı-ayrı fərdlərin və cəmiyyətin islahı, kamala çatması, nicat və xoşbəxtliyi üçün göndərilmişdir.

## Dinin zərurəti

Insan bu dünyada hədəfsiz yaradılmamışdır. Allah-təaladan da heç vaxt yersiz, hikmətsiz və hədəfsiz bir iş baş verməz. Qur`an ayələri və rəvayətlərdən aydın olur ki, insanın yaradılışında əsl hədəf - **fəzilət və kamala yetişməklə Allah yanında ən ali dərəcələrə çatmaqdır.** Bu ali hədəflərə dəqiq proqram, hərtərəfli qanun və göstərişlərsiz çatmaq mümkün deyildir. Əksinə, bu dəyərli məqamlara çatmaqdan ötrü elə qanun və hökmlərə ehtiyac var ki, fərdi və ictimai hüquqları qoruyub, azadlıq və rahatlığı tə`min etsin, kamal və səadət yollarını insana göstərsin.

Aydındır ki, insan özünün müxtəlif istəklərini o cümlədən, Yaradanını və onu əsas hədəflərinə çatdıracaq yolları tanımır və çoxları öz səadət və

xoşbəxtliklərini dünyada maddi mənafelərinə çatmaqda görüb, mə`nəvi və axirət ehtiyaclarından qafildirlər.

Bəşər arasında qeyri-ilahi dinlər də mövcuddur. Insanlar tərəfindən kor-təbii surətdə, yaxud xəyal və gümanlardan yaranan xurafat dinlər və ümumiyyətlə bütlərə, ulduzlara, mələklərə, və s. əsaslanan dinlər də vardır. Qur'ani-Kərim nöqteyi-nəzərindən bu kimi düzgün olmayan əqidələr də "din" adlandırılmışdır. "Əl-Kafirun" surəsinin 6-cı ayəsində buyurulur: **«Sizin öz dininiz və mənim də öz dinim vardır.»**

Bəs görəsən, Allahın buyurduğu və düzgün saydığı din hansıdır?

Bu suala da Qur'ani-Kərim belə cavab buyurur: **«Şübhəsiz, Allah yanında (həqiqi) din həmin İslamdır. Hər kim İslamdan başqa bir din axtarışında olsa, əsla ondan qə`bul olunmayacaq və o, axirətdə ziyan çəkəcəkdir.»** [1]

"Ali-Imran" surəsi, 19 və 85-ci ayələr.[1]

## Üçüncü fəsil

# İSLAM

"İslam" ərəb kəlməsi olub "Allahın dininə təslim olmaq" mə`nasını daşıyır. Bu cəhətdən də Allahın dininə təslim olana "müsəlman" [1] deyilir. Yə`ni, Allahın yeganəliyinə, mələklərə, Peyğəmbərlərə (ələyhimussəlam), Qur`ana, dirilməyə, bir sözlə dinin zəruri məsələlərinə inanan şəxs müsəlman sayılır.

Bildiyimiz kimi müsəlman olmağın ilkin şərti "**kəlmeyi şəhadət**"-i deməkdir. Yə`ni, şəxsin özünün müsəlman olmasını isbat etməsi üçün bu kəlmələri dilə gətirməsi zəruridir:

1-Əşhədu ən lə iləhə illəllah *(Şəhadət verirəm ki, Allahdan başqa heç bir mə`bud yoxdur).*

2-Əşhədu ənnə Muhəmmədən rasulullah. *(Şəhadət verirəm ki, Məhəmməd Allahın elçisidir).*

3-Əşhədu ənnə əmiralmu`mininə Əliyyən vəliyyullah. *(Şəhadət verirəm ki, mö`minlərin əmiri olan Əli Allahın vəlisidir).*[2]

Lakin Allahın tam razılığını qazanmaq üçün yanlız "inanmaq" kifayət etmir. Əgər əməl olmasa, Axirətdə "inam" fayda verməyəcəkdir.

Müsəlmandan da üstün dərəcəyə isə "mö`min" [1] deyilir. "Mö`min" kəlməsi ərəb mənşəli olub "Allaha

---

Əslində bu kəlmə "musəlman"dır.[1]

Yə`ni, Əli (ələyhissəlam), Məhəmməd Peyğəmbərdən (salləllahu ələyhi [2] və əlihi və səlləm) sonra bütün müsəlmanların rəhbəridir.

iman gətirib, Onun əmrlərini can-başla yerinə yetirən şəxs"ə deyilir. Hər kəsdə məhz bu ikisi (**iman və əməl**) olarsa, müsəlmandan da yuxarı dərəcəyə yüksəlmiş olur. Deməli, mö`min müsəlmandan üstün mərtəbə sayılır. Nəticədə, hər mö`minə müsəlman demək düzgün, amma hər müsəlmana mö`min demək yanlış və səhvdir. Məhz buna görə də Allah buyurur: **«Həqiqətən, bu Qur`an (bütün bəşəriyyəti) ən doğru yola (İslama) yönəldir, yaxşı işlər görən mö`minlərə böyük bir mükafata nail olacaqları ilə müjdə verir.»**[2]

## İslam mö`tədil dindir

Müsəlman olan hər bir şəxs öz dinini düzgün tanımalı və ağlına gələn fikirləri din adındın söyləməməlidir. İslam dini insanları "**ifrat**" (həddi aşmaq) və "**təfrit**"ə (üzdən getməyə) deyil, "**mö`tədil**" yola (orta yola) də`vət edir. Başqa sözlə desək, insan istər fərdi, istərsə də ictimai fəaliyyətlərində «**həddindən az**»a və «**həddindən çox**»a yol verməməlidir. Bu ikisinin arasında olan «**orta yol**»u seçib həyatını davam etməlidir. Əgər o, ifrata və ya təfritə yol verərsə, onda günaha batıb əzaba düçar olacaqdır.

Sözümüzü üç misalla aydınlaşdırmaq istərdik:

---

Əslində bu kəlmə "mu`min"dir.[1]
"Əl-Isra" surəsi, ayə 9.[2]

**1-ci misal:** Bilirik ki, həddi-buluğa[1] çatan hər bir ağıllı insana ömrünün sonuna kimi namaz qılmaq vacibdir. Bə`zən o, vaxtının çox hissəsini məsciddə keçirir və ibadətlə məşğul olur. Ailəsinə isə ruzi qazanmaq yadına düşmür. Belə olduqda, həmin şəxs ifrata varmış olur, yə`ni ibadətdə həddini aşır. Lakin elələri də var ki, Əziz Peyğəmbərimizin (salləllahu ələyhi və əlihi və səlləm) bu hədisini - “Ibadət on hissədən ibarətdir. Onun doqquzu halal ruzi qazanmaqdır” – deyə sübut gətirir və namazı qılmır, yaxud qəzaya verir. Bu şəxs isə təfrit etmiş olur. Yə`ni namaza əhəmiyyət vermir və səhlənkarlıq edərək üzdən yanaşır. Nəticədə həm ifrat, həm də təfrit edən günah qazanmış olur.

Lakin o, mö`tədil yolu seçərsə, yə`ni müəyyən vaxtını ruzi qazanıb, namazı vaxtında qılarsa, onda savab əldə etmiş olar və Behiştə daxil olar.

**2-ci misal:** Bütün İlahi dinlərdə “donuz” əti yemək haramdır. Əgər insan acdırsa və onu ölüm təhlükəsi gözləyirsə, yanında donuz ətindən başqa halal ruzi olmasa, belə olan halda özünün sağ qalması üçün donuz ətini yeməsə və ölsə, onda o, günahkardır və ifrat etmiş olur. Həmçinin, əgər halal ruzi olan yerdə ürəyi istədiyi zaman donuz əti yesə, onda da təfrit etmiş olur. Yə`ni, hər iki halda Allah-təalanın hökmünə baş əyməyərək özünün seçim və istəyini

---

Oğlan 15, qız isə 9 yaş.[1]

Allah-təalanın seçim və istəyindən üstün tutmuş, nəticədə isə əbədi əzabı seçmiş olur.

Lakin əgər insanın ölüm təhlükəsi olarsa və donuz ətindən başqa halal ruzi tapılmasa, onda sağ qalması üçün donuz ətindən bir miqdar yeməsi vacibdir. Çünki, Allah-təala insanı hər şeydən üstün tutur və onun ölümdən qurtulması üçün murdardan istifadə etməsinə icazə verir. Belə olduqda, o, vəzifəsini düzgün yerinə yetirmiş olur.

**3-cü misal:** Allah-təala istər kişinin, istərsə də qadının fitrətində "şəhvət" (cinsi meyl) hissini yaratmışdır. Bə`zən insan bu işdə ya ifrata, ya da təfritə uğrayır. Belə ki, o, daxilində olan həmin "şəhvət" hissini lazım olmayan məqamda istifadə edərək günah qazanaraq zinaya[1] mürtəkib olur. O, bu halda ifrata uğrayır. Ya da ömrünün sonuna kimi subay qalaraq gözləri ilə zina[2] edir. Bu halda isə təfritə uğramış olur.

Uca Yaradan bizə bu hissi kontrol edib günaha düşməməyimiz üçün mö`tədil yolu tə`yin etmişdir, yə`ni ifrata və yaxud təfritə yol verməməyimiz üçün "**kəbin**" oxunaraq ailə qurmağı buyurmuşdur.

Deməli, hər kəs ifrata və təfritə yol verərsə, mə`lumdur ki, həm özünə, həm də cəmiyyətə ziyan vuracaqdır. Nəhayətdə isə o, bu dünyada çox acı fəlakət və nəticələrlə üzləşəcək, Axirətdə isə Uca Yaradanın qəzəbinə düçar

---

Naməhrəmlə cinsi əlaqə.[1]
Naməhrəmə baxıb şeytani fikirlərə düşmək və s.[2]

olacaqdır.

## İslam ictimai dindir

İslamı digər din və məktəblərdən fərqləndirən xüsusiyyətlərdən biri də onun "ictimai" din olmasıdır. Burada təkcə ayrı-ayrı fərdlərin deyil, cəmiyyətin islah olunmasına və onun düz yolu seçib saflaşmasına diqqət yetirilir. Buna görə də hər kəs İslamı öyrənməli və düzgün analiz etməlidir.

İslamda tərki-dünyalıq qə`bul olunmazdır. Insan namaz, oruc və digər fərdi əməllərlə yanaşı, cəmiyyət və bəşəriyyət qarşısındakı vacib əməllərini də yerinə yetirməlidir. İslamda vacib buyurulan Vətəni müdafiə etmək, Allahın dostları ilə dost, düşmənləri ilə düşmən olmaq və bu kimi göstərişlər, həmçinin onlardan irəli gələn yüzlərlə, minlərlə vəzifə bunu (dinin ictimai olmasını) deməyə əsəs verir.

Bir sözlə, İslam - həmrəylik, öz ardıcıllarını səadət və xoşbəxtliyə çatdıran, insanı yaşadığı cəmiyyətlə sıx ünsiyyət saxlamağa sövq edən bir dindir.

Hər bir müsəlmanın üzərinə düşən fərdi və şər`i vəzifələri yaşadığı cəmiyyətdə ictimai əlaqələr yaratmaqla icra etməsini zəruri hesab edəriksə, bunu da qə`bul etməliyik ki, cəmiyyət üzvləri ilk növbədə bir-birlərinə qarşı tə`yin olunan hüquq və vəzifələrlə tanış olmalı və onlara riayət etməlidirlər. Bununla yanaşı xalq arasında bir sıra əxlaq normaları və ictimai qayda-qanunlar da vardır ki, insani dəyərlərin

qorunması, ümumi asayiş və tarazlığın tənzim olunması onlara necə riayət etməkdən asılıdır. Təbiidir ki, bu normalara düzgün yanaşmayan şəxslər cəmiyyətdən uzaqlaşdırılacaq və kimsənin e`timadını qazanmayacaqdır.

"**Kamal və sonsuz xoşbəxtlik**" arzusunda olan insan, İslam dininin buyuruqlarını yerinə yetirməli və bu işdə ciddi olmalıdır. İstər İlahi, istərsə də qeyri-ilahi məktəblərin prinsiplərini nəzərdən keçirdikdə belə qənaətə gəlmək olur ki, onların hər biri insanın **"kamal və sonsuz xoşbəxtliyə"** çatması üçün yalnız öz ideyasının həqiqət olduğunu hesab edir. Bu səbəbdən də deyə bilərik ki, dinlər arasında mövcud olan ən başlıca fərq - **insanın xoşbəxt həyat və səadətə** - necə çatmasındadır. Görəsən, insan buna nail olmaq üçün hansı yolları keçməli və hansı əxlaqi xüsusiyyətlərə malik olmalıdır?

Hər bir insan hamıdan üstün olmasını və ixtiyarında olan şeylərin ən yaxşısına yiyələnməsini istəyir. Onlar həmişə ən yüksək məqamlara nail olmağa və çatışmazlıqları aradan qaldıraraq xoşbəxt həyat tərzi sürməyə can atırlar. Bu bir həqiqətdir ki, hər bir insan dünənindən daha yaxşı yaşamağa can atır və mümkün qədər çox var-dövlət sahibi olmaq istəyir. Kamal və səadətə nail olmaq istəyi ilə yanaşı, insanlar bu yolda müxtəlif çətinliklərlə qarşılaşmağı sevmirlər. Bu səbəbdən də çətinliklərlə üzləşərkən özlərində bir növ narahatçılıq və ümidsizlik hiss edirlər. Insanda

olan bu xüsusiyyəti İslam alimləri **«kamillik axtaran fitrət»** adlandırırlar.

Belə bir fitri xasiyyət insanda hansısa şəkk və tərəddüd olunası şəxs tərəfindən vücuda gəlməmişdir. Bütün din və ideoloji məktəblər yekdilliklə belə bir xüsusiyyətin insan fitrətində mövcud olduğunu e`tiraf etmiş, lakin bir-birindən fərqli olaraq insanın "səadət və kamala" çatması üçün bəşəriyyətə müxtəlif üsullar və yollar təqdim etmişlər. Yaranmış ixtilaf da yalnız insanın kamala çatması üçün ona təqdim olunan yolların hansının haqq və həqiqət olmasından ibarətdir.

Qeyd etdik ki, insan **"sonsuz xoşbəxtlik"** arzusundadır. Əgər bunu qə`bul edəriksə, sözün əsl mə`nasında İslam dininin bəşəriyyətə təqdim etdiyi səadəti qə`bul etmiş olarıq. Bu isə Allaha yaxınlıq və Onun razılığını qazanmaq deməkdir. Çünki, varlıqlar arasında yeganə sonsuz və mütləq qüvvə Allahın müqəddəs Vücudu və Zatıdır. Insan kamala yalnız o zaman nail ola bilər ki, Allahın razılığını qazanmaqla Ona yaxınlaşmış olsun. Bunun isə yeganə yolu - **İslam dininin göstərişlərinə layiqincə əməl etməkdir**.

İslam nöqteyi-nəzərindən Allahdan başqa hər bir şey fani və məhduddur. Insanın daimi istək və ehtiyaclarını tə`min edən yalnız Allah-təaladır. Bu səbəbdən də xoşbəxtliyi var-dövlətdə görənlər böyük səhvə yol vermiş olurlar.

Qur`an-Kərim buyurur: **«Bilin ki, mallarınız və övladlarınız imtahan vasitəsidir və həqiqətən böyük mükafat, məhz Allahın yanındadır.»**[1]

Pul və var-dövlət nə qədər çox olarsa, yenə də fani və tükənəsidir. Var-dövlət çox olduqda belə, insan bir çox hallarda qarşılaşdığı çətinlikləri pulla aradan qaldırıb hər şeyi onunla əldə edə bilmir və xəyalında yaradıb-yaşatdığı xoşbəxtliyə çatmır. Aləmləri yaradan, bütün xeyir və gözəlliklərin səbəbkarı olan Allah isə fani deyil, əbədidir. Insan yalnız Allaha arxalanmaqla öz ehtiyaclarını ödəyə və əbədiyyətə qovuşa bilər.

Qur`an bu haqda buyurur: **«Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən ibadətinizə) möhtac deyil və hər cür şükrə layiqdir.»** [2]

İslam dini hazırki əsrdə yeni bir dirçəliş və tərəqqiyə qədəm qoymuşdur. Dünya müsəlmanları ayılaraq, öz əslinə, kökünə qayıdıb, cavabsız qalmış problemlərin həllini İslam tə`limlərində axtarırlar. Allah-təala haqq din olan İslamı insanlara yalnız müəyyən bir zaman üçün deyil, əksinə Qiyamət gününə qədər gələcək bütün zamanlar üçün göndərmişdir.

İmam Hüseyn (ələyhissəlam) "Ərəfə" duasında bu mətləbə işarə edərək buyurur: "İlahi! Səni itirən şəxs nəyi axtarır və Səni tapan şəxs nəyi itirmiş olur?!"

---

"Əl-Ənfal" surəsi, ayə 28.[1]
"Fatir" surəsi, ayə 15.[2]

Insanın kamala çatmasının ən başlıca şərti - **Allahın razılığını qazanmaq məqsədi ilə İlahi göstərişlərə əməl etmək və Onun qoyduğu yasaq və qadağalara tabe olmaqdır.**

Başqa sözlə desək, İslam, insanın Allaha yaxınlaşmasını yalnız saf niyyətlə həyata keçirilən ibadətdə görür. Amma bu heç də o demək deyildir ki, o, cəmiyyətdən uzaq düşərək ömrünü-gününü ibadətdə keçirməlidir. Əksinə, insan daim özünü cəmiyyətin bir üzvü bilməli, yaranmış bütün çətinliklərin aradan qaldırılmasında onlarla qarşılıqlı həmkarlıq və dostluq əlaqələri qurmalıdır.

İslamın söz verdiyi ədalətli cəmiyyətdə yaşamasını, övladlarının sağlam cəmiyyətdə böyüməsini, itirilmiş heysiyyətinin qaytarılmasını, tapdanmış haqlarının bərpasını istəyən, təhqir altında, kölə halında istəməyən, quldarlıq və feodalizm quruluşlarından, monarxiyadan, diktaturadan yaxa qurtarmaq istəyən hər bir kəs mübarizəyə qoşulmalıdır. Əks təqdirdə heç bir şey dəyişməyəcək və dünya zülm ilə dolacaq.

Qur`an buyurur: **«Har hansı bir tayfa öz halını (vəziyyətini) dəyişməyincə, Allah da onun vəziyyətini dəyişməz.»**[1]

Insanı xoşbəxt etmək üçün onun həyatını elektrikləşdirmək, kompyüterləşdirmək kifayət etmir. Axı onun döyünən qəlbi, daim rahatlıq axtaran ruhu var! Elmi-texniki tərəqqi insanın cisminə rahatlıq

---

[1] “Ər-Rə`d” surəsi, ayə 11. Bu mübarək ayə atalar sözündə: “Səndən hərəkət, Allahdan bərəkət”.

gətirir. O isə təkcə “**cism**”dən yox, həm də “**ruh**”dan təşkil olunub. Ruhən xoşbəxt olmayan insan dünyadan imtina edir, intihara əl atır. Əksinə, ruhən xoşbəxt olan insan isə elektronikasız da keçinə bilir. Bəs ruhu necə xoşbəxt etməli? Ruhun xoşbəxtliyi isə yalnız və yalnız Yaradanın əmrlərinə “itaət” etməkdən ibarətdir. Insanın bütün fikirləri, əməlləri və danışıqları Allaha yönəlməli, hədəf yalnız Allah olmalıdır.

Qur`ani-Kərim bu barədə belə buyurur: **«Qəlblər yalnız Allahı yada salmaqla rahatlıq tapar.»**[1]

---

[1] “Ər-Rə`d” surəsi, ayə 28. (“**Yada salmaq**”da məqsəd – Allaha inam və Onun əmrlərinə əməli surətdə tabeçilikdir).

## Dördüncü fəsil

# QURANİ-KƏRİM

Qur`an-ərəb kəlməsi olub "oxunulan" mə`nasını verir. Allah-təala bu sonuncu müqəddəs Kitabı bütün insanların doğru yola hidayət olması üçün Məhəmməd Peyğəmbərə (salləllahu ələyhi və əlihi və səlləm) 23 il ərzində Cəbrayıl (ələyhissəlam) mələyin vasitəsilə nazil etmişdir.

Qur`an 114 surə, 6236 ayə və 77807 kəlmədən və 323671 hərfdən ibarətdir. Ən böyük surə "Əl-Bəqara" (286 ayə), ən kiçik surə isə "Əl-Kəvsər" (3 ayə) sayılır.

Qur`an - bəşəriyyətin bu dünya və axirətdə səadətə, xoşbəxtliyə qovuşmasını tə`min edən qanunlardan ibarətdir. O, "Nur" Kitabıdır.

Allah-təala buyurur: **«Ey insanlar! Həqiqətən sizin hidayətiniz üçün Allah tərəfindən möhkəm bir dəlil gəldi və sizə doğru, parlaq bir Nur (Qur'an) göndərdik.»**[1]

Bu gün dünyada istehsal olunan hər hansı bir cihazın, maşının, dəzgahın və s. üzərində, onu düzəldən və ya ixtira edən mühəndis tərəfindən müəyyən bir kitabça qoyulur ki, ondan necə istifadə qaydası, hansı şeylərin ona xeyiri-zərəri olması və s. kimi göstərişlər qeyd olunub alıcının ixtiyarına

---

"Ən-Nisa" surəsi, ayə 174.[1]

verilsin. Alıcılar bu maldan istifadə etməmişdən qabaq o kitabçanı diqqətlə oxuyurlar ki, orda yazılan qaydalara əməl edib düzgün bəhrələnsinlər və həmin avadanlıq tez xarab olub sıradan çıxmasın.

Biz insanlar, Allah tərəfindən yaradılmış və təşkil olunmuş elə bir «cihazıq» ki, “cisim” və “ruh”umuzda olan mürəkkəbliyə görə hətta öz həqiqətmizi və xoşbəxtlik yolumuzu tanımağa belə acizik.

Indi gəlin düşünək, necə ola bilər ki, cansız bir əşya üçün kitabça yazılsın, amma Xaliqimiz bizim üçün belə bir Kitab (qanun) yazmasın?!

Görəsən, biz insanların daxilində cismi və ruhi xüsusiyyətlərimizin şərh verildiyi, vücudumuzda olan iste`dad və imkanların, habelə onlardan düzgün surətdə bəhrələnmək yolunun bəyan olunduğu, ən mühümü isə cisim və ruhumuzda olan, onu həlakət və bədbəxtliyə sürükləyən səbəblər qeyd olunan bir proqrama ehtiyac yoxdurmu?!

Heç təsəvvür etmək mümkündürmü ki, biz insanları rəhmət və məhəbbət əsasında yaradan Pərvərdigar, sonradan bizi öz başımıza buraxaraq, səadətə və xoşbəxtliyə çatmaq yolunu bizə göstərməsin?!

Hər bir ağıllı insan öz iste`dadlarının çiçəklənməsi üçün düzgün proqrama möhtacdır. Bu proqram sayəsində o öz İlahi və dəyərli məqsədlərinə çatır. Bu zülmət dünyada əsaslı proqramsız səadətə çatmaq mümkünsüzdür.

Aləmlərin Rəbbi Qur`ani-Kərimi doğru yolu tapmaqda müsəlmanlar üçün proqram kimi tanıtdırır. Insanlar bu nurani Kitabdan istifadə etməklə öz ali məqamlarına çatmalı, dünya və axirətin həqiqi səadətini əldə etməlidir.

Qur`an Allah tərəfindən göndərilmiş elə bir hidayət Kitabıdır ki, orada insanın səadət və xoşbəxtlik yolu, eləcə də onun həlakət və bədbəxliyinə səbəb olan nəticələr bildirilmişdir. Düzgün ictimai və ailə münasibətləri, əxlaqi və hüquqi məsələlər, cismi və ruhi ehtiyaclar, fərdi və ictimai vəzifələr, cəmiyyətdə olan düzgün və yanlış adət-ənənələr, cəmiyyətin və ya şəxsin taleyində mühüm rol oynayan iqtisadi və s. kimi qanunlar bütünlüklə bu müqəddəs Kitabda və Onun təfsirində bəyan olunmuşdur.

Qur`anda keçmiş xalqların başına gələn hadisələr, müxtəlif müharibələr, ayrı-ayrı şəxslərin həyat tarixi və s. gəlməsinə baxmayaraq, O, dastan və nağıl kitabı deyil, əksinə bu günkü insan həyatında düzgün yaşamağı öyrədən bir kitabdır. Bu müqəddəs Kitab daim oxunmalıdır, amma təkcə dillə deyil, eyni zamanda təfəkkürlə, düşünməklə yanaşı oxunmalı, ibrət alınmalı və Ona əməl olunmalıdır. Elə Qur`anın özü də bunu bizdən istəmişdir.

Misal olaraq: **«Bu (Qur`an), ayələrində düşünüb arxasınca getmələri (və onda olan dərin maarifi əldə etmələri) və (əsl) ağıl sahiblərinin ibrət götürmələri**

**üçün sənə nazil etdiyimiz xeyir dolu, bərəkətli bir Kitabdır.»**[1]

Bu, O Qur`andır ki, geridə qalmış bu günkü dünyanı, Öz nuru ilə yüksək mədəniyyətə çatdırmışdır. Qur’anın nuraniyyəti təkcə onun mə’na və maarifinə aid deyil. Hətta Onun kəlmələri, yazısı, zahiri də nurdur. Qur’anın nuranilik xüsusiyyəti budur ki, Onun maarifi aydındır və şübhələrdən uzaqdır. O, bəşər cəmiyyətini hər cür əqidə, əxlaq azğınlığından, yol seçimində çaşqınlıqdan azad edir və işıqlı “siratul-mustəqim”-ə, yə’ni “doğru yol”a çatdırır. Çünki, insan əqli nə qədər inkişaf etsə də, özbaşına doğru və düzgün yolu tapması mümkün deyil. Buna görə də Mehriban olan Yaradanımızın göstərişlərinə ehtiyacımız vardır.

Qur`an buyurur: **«Allah, (iman gətirib) Onun razılığına tabe olanları Qur`anla salamatlıq yollarına yönəldir, Öz izni ilə zülmətdən nura çıxarıb, doğru yola istiqamətləndirir.»**[2]

Təəssüf ki, bu müqəddəs Kitab müsəlmanların qəfləti üzündən yalqız və tək-tənha qalmışdır. Qur`an birinci növbədə diri insanlara göndərilib ki, insanlar Onun qanunlarına riayət etsinlər. Əgər belə olmasaydı, onda (nəuzu billəh)[3] Allah-təala hikmətsiz iş görmüş olar. Lakin O, hikmət Sahibidir və əbəs yerə heç bir iş görməz. Buna görə də dirilər Qur`anın buyuruqlarına

---

“Sad” surəsi, ayə 29. [1]

“Əl-Maidə” surəsi, ayə 16.[2]

Yə`ni, Allaha pənah aparırıq.[3]

əməl etməlidirlər. Qaldı ki, ölülərə, əlbətdə ki, onlar üçün Qur`an oxunmasının savabı böyükdür. Bu barədə çoxlu hədislər vardır.

Görəsən, nə üçün Qur`an aşağıdakı işlərə həsr olunmuşdur?!

-Qur`anın cümə axşamları qəbiristanlıqlarda oxunması;
-Oruc tutanların baş qatmaq və vaxt keçirmək üçün "Qur`an" oxuması;
-Məscidlərin küncündə yerləşdirilməsi;
-Evlərdə servantın başına qoyulması;
-Uşaqlara göz dəyməməsi üçün dua yazılması;
-Küçələrdə dilənmək üçün "alət" kimi istifadə edilməsi;
-Körpələrin qundaqdakı zinətinə çevrilməsi;
-Səfərə çıxanların yükü;
-Cin vuranların silahına dönməsi;
-Toylarda gəlinlərin boyunlarından asılması;
-Qadınların bilərziyini əvəz etməsi;
-Şadlıq məclislərində zinət olması;
-Kitab satıcılarının sərmayəsi və s...

Ürək yanğısı ilə demək olar ki, Qur`an bu gün şe`r, roman və nağıl kitablarından da aşağı səviyyəyə enmişdir. Əgər bu şe`rlərdən biri oxunsa, gözlərin, qulaqların və ürəklərin diqqəti həmin şe`rə yönələr!...

Görəsən, bu bədən üzvləri hansı faydaya çatacaq?! Qiyamətdə cansız əşyalar, hətta bədən üzvlərimiz belə bizdən şikayət edəcəkdir: **«Nəhayət onları Cəhənnəmə gətirdikdə qulaqları, gözləri və dəriləri onların**

**əleyhinə (dünyada) etdikləri günahlara görə şəhadət verəcəkdir. Onlar öz dərilərinə deyəcəklər: Nə üçün bizim əleyhimizə şəhadət verirsiniz? (Dəriləri) cavab verəcək: Bizi dilə gətirən Allahdır. O, hər şeyi danışdırmağa Qadirdir. Hamınızı ilk dəfə O yaradıb və indi (də) Ona tərəf qaytarılırsınız.»**[1]

Həmçinin Qiyamətdə Qur`an bizdən gileylənib fəryad edəcək: "Mən o kəslərdən gileylənirəm ki, Məni kənara atıblar, Mənə heç nəzər də salmırlar. Mən o kəslərdən gileylənirəm ki, Məni ancaq əzbərləyirlər, nə mə`nasını bilirlər və nə də Məndə yazılanlara əməl edirlər. Ancaq öz istəklərinə çatmaq və savab qazanmaq üçün Məni saxlayırlar."

Furqan surəsinin 30-cu ayəsində belə buyurulur: **«Həmin gün Allahın peyğəmbəri deyəcəkdir: Ey mənim Rəbbim! Həqiqətən, mənim qövmüm (peyğəmbərliyin əvvəlindən dünyanın sonuna kimi gəlib-getmiş müsəlmanlar) bu Qur`anı tərk etdi (və Ona əməl etməkdən üz döndərdi).»**

Bu ayədən görünür ki, Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm), müsəlmanların Qur`anı tərk etməsindən nə qədər narazıdır.

İslamda hər bir şeyin haqqı vardır. 8-ci İmam Rza (ələyhissəlam) buyurur: "Gözün haqqı naməhrəmə baxmamaq, dilin haqqı qeybət və yalan danışmamaq, əlin haqqı oğurluq etməmək, ayağın haqqı isə haram yerlərə getməməkdir. Namazda isə Qur`an oxumağımızın səbəbi odur ki, O, öz haqqından

"Fussilət" surəsi, ayə 20-21.[1]

məhrum edilməsin. Qur`anın haqqı isə 3 hissədən ibarətdir:
1) **Üzündən diqqətlə oxumaq.**
2) **Ayələr üzərində düşünmək.**
3) **Qur`anın buyuruqlarına əməl etmək.”**

Bə`ziləri sual edə bilər ki, “axı mən ərəbcə bilmirəm, Qur`anı necə oxuyum?” Cavab: Qur`anı ərəbcə oxumaq lazım deyil, Onu öz ana dilində oxu! Əsas və vacib olanı budur ki, **Qur`anı oxuyarkən ayələrini düşünüb, buyuruqlarına əməl edəsən.**

## Ən böyük mö`cüzə

Qur`an əbədidir. Kimsə Onun sirlərinin nəhayətinə çatmaq gücündə deyil. Bu ilahi Kitabda hər kəsin faydalana biləcəyi bitib tükənməyən mə`nalar var.

Qur`an son səmavi müjdədir. O, yalnız bir Kitab deyil, həm də Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) peyğəmbərliyini isbat edən bir nişanə və ən üstün mö`cüzədir. Elə buna görə də Qur`anın mö`cüzəliyi İslamın erkən çağlarından müsəlman və qeyri-müsəlmanların diqqətini cəlb etmişdir. Onun e`cazkarlığı dərin məzmun, elmi nöqtələr, qeybdən verilən xəbərlər və s. kimi fərqli yönlərə malikdir.

Əgər biz dünyanın bütün nöqtələrində olan kitablara müraciət etsək, Qur`ana tay heç bir kitab tapa bilmərik.

Qur`an Özünün mö`cüzə olduğunu iddia edərək belə buyurur: **«De: Şübhəsiz, əgər insan və cin tayfası**

**bu Qur`anın (kəlmə və mə`na baxımından) bənzərini gətirmək üçün bir yerə toplaşsa, hətta bir-birlərinə kömək və arxa olsalar belə, onun bənzərini gətirə bilməzlər (çünki onu vücud, qüdrət və elm baxımından bütün varlıq aləmini əhatə etmiş bir qüvvə yaratmışdır).»**[1]

Həqiqətən də indiyə kimi heç bir canlı Qur`anın bənzərini gətirə bilməmişdir.

## Bir neçə hədis

Peyğəmbərimiz (salləllahu ələyhi və əlihi və səlləm) Qur`an barəsində buyurur:

-"Allah bütün varlıqlardan üstün olduğu kimi, Qur`an da digər kəlamlardan üstün və fəzilətlidir."

-"Qur`an elə bir sərvətdir ki, nə ondan artıq sərvət var, nə də ondan sonra yoxsulluq."

-"Ən doğru söz, ən mötəbər kəlam, hikmətli nəsihətlər və ən gözəl əhvalatlar Allahın kitabındandır."

-"Dəmir pas atdığı kimi, qəlblər də daşlaşaraq məhv olur. Bundan yaxa qurtarmaq istəyirsinizsə, Qur`an oxuyun və ölümü xatırlayın!"[2]

Qur`ani-Kərimi oxumaq, onu öyrənib və öyrətmək İslam dinində mühüm işlərdən hesab olunur. Bu barədə iki hədisi diqqətinizə çatdırırıq:

---

"Əl-Isra" surəsi, ayə 88.[1]

[2] "Nəhcul-fəsahə", səh. 460.

İslam Peyğəmbəri (səlləllahu ələyhi və alihi və səlləm) buyurub: “Sizlərin ən yaxşısı o kəsdir ki, Qur`anı öyrənə və (onu başqasına) öyrədə.”

Başqa bir hədisdə O, Salmana tövsiyə edərək belə buyurur: “Ey Salman, Qur`an oxumağı sənə tövsiyə edirəm, çünki Qur`an oxumaq günahların kəffarəsidir (yə`ni günahları yuyub aparır).”

Elə buna görə də Qur`ani-Kərimi yalnız yas məclislərinə, qəbristan əhlinə aid etmək və yaxud büküb evlərdə qoymaq yox, əksinə onu oxuyub, **göstərişlərinə əməl etmək vacibdir.**

İmam Əli (əleyhissəlam) buyurur: “Övladın atanın üzərində olan haqqı ona gözəl ad qoymaq, düzgün tərbiyə etmək və Qur`an öyrətməkdən ibarətdir.”[1]

**«Həqiqətən öyüd verən bu Qur`an onlara gələn zaman onu inkar edənlər (odda olacaqlar). Doğrudan da bu (Qur`an) möhkəm və məğlubedilməz bir kitabdır. Ona nə qarşısından, nə də arxasından batil yol tapa bilməz (onun hökm və tə`limlərində, həmçinin keçmiş və gələcək barəsindəki xəbərlərində heç bir yanlışlıq ola bilməz). O, hikmət sahibi və şükrə tə`rifə layiq olan (bütün işləri bəyənilən) Allah tərəfindən nazil edilmişdir.»** [2]

Ey ziyalı həmdərdim, müsəlman həmdinim, hörmətli həmvətənim!

Bizim məs`uliyyətimiz eynidir! Düşmən bizi məhv etmək üçün hansı yolu seçib? O, bizi dinimizdən

---

[1] “Tərbiyəte fərzənd”, səh. 75.

“Fussilət” surəsi, ayə 41-42.[2]

uzaqlaşdırmaq fikrindədir. Əgər bizi bədbəxt etmək üçün bu yolu seçmişlərsə, demək, biz də xoşbəxt olmaq üçün həmin yolu getməliyik. Bəli, düşmənin uzaqlaşdırdığı yola qayıtmaq!

Qur`anı qəbristanlıqdan çıxarıb, dirilər üçün həyata qaytarmaq! Allahın kitabını rəflərdən endirib, sinif otaqlarına aparmaq!

Düşmən Qur`anı məhv edə bilməyib. Lakin Onu bağlı saxlamağı bacarıb. Onu açmaq, oxumaq lazımdır!

O günü görəcəyikmi ki, məktəblərdə Qur`an da bir dərslik olsun? O günü görəcəyikmi ki, alimlik dərəcəsi almaq üçün Qur`anı oxumaq zəruri olsun?

Əgər Qur`anı həyatımıza, dinimizə qaytarsaq, “tovhidi”, yəni Allahın birliyini yalnız inanc kimi yox, həm də ilahi bir dünya görüşü kimi dərk edərik.

# Beşinci fəsil

## ƏHLI-BEYT[1] (ələyhimussəlam)

Qur`ani-Kərim buyurur: **«Həqiqətən, Allah siz Əhli - beytdən (əqidə, əxlaq və əməllərdə) hər cür (növ) pisliyi təmizləmək və sizi - paklığın bütün cəhətlərində - pak etmək istəyir.»**[2]

Əhli-beyt (ələyhimussəlam) dedikdə 14 mə`sum (pak, günahsız, səhvsiz, xətasız, ədalətli, bir sözlə tam kamil insanlar) nəzərdə tutulur. Onların mübarək adlarını və ləqəblərindən bə`zilərini yada salırıq:

1-Məhəmməd Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm), ləqəbi: Mustafa, Xatəmul-Ənbiya (Peyğəmbərlərin sonuncusu).

2-Həzrət Fatimə (səlamullahi ələyha), ləqəbi: Zəhra, Tahirə, Siddiqə.

3-İmam Əli (ələyhissəlam), ləqəbi: Əmirulmu`minin, Əbu Turab.

4- İmam Həsən (ələyhissəlam), ləqəbi: Muctəba.

5-İmam Hüseyn (əleyhis-salam), ləqəbi: Seyyiduş-şuhəda.

6-İmam Əli (ələyhissəlam), ləqəbi: Zeynulabidin, Səccad.

7-İmam Məhəmməd (ələyhissəlam), ləqəbi: Baqir.

8-İmam Cəfər (ələyhissəlam), ləqəbi: Sadiq.

---

[1] Yə`ni, "ev əhli".

[2] "Əl-Əhzab" surəsi, ayə 33.

9-İmam Musa (əleyhissəlam), ləqəbi: Kazim.
10-İmam Əli (əleyhissəlam), ləqəbi: Riza.
11-İmam Məhəmməd (əleyhissəlam), ləqəbi: Təqi, Cavad.
12-İmam Əli (əleyhisəlam), ləqəbi: Nəqi, Hadi.
13-İmam Həsən (əleyhissəlam), ləqəbi: Əskəri.
14-İmam Məhəmməd (əleyhissəlam), ləqəbi:, Məhdi, Sahibəz-zəman.

Allahın əmr etdiyinə əsasən insanların Əhli-beytə (əleyhimussəlam) qarşı iki vacib və mühüm vəzifəsi vardır:

*1) Əhli-beytə (əleyhimussəlam) məhəbbət;*

**«...De: Sizdən bunun (ilahi tapşırıqların çatdırılmasının) əvəzində qohumlarım (Əhli-beytim) barəsində (qəlb və əməldə olan) məhəbbətdən başqa bir muzd istəmirəm...»**[1]

*2)Allaha yaxınlaşmaq üçün Əhli-beyti (əleyhimussəlam) vasitəçi tutmaq;*

**«Ey iman gətirənlər, Allahdan qorxun, Ona yaxınlaşmaq üçün vasitə**[2] **axtarın və nicat tapasınız deyə, Onun yolunda cihad edin!»**

*3)Əhli-beytə (əleyhimussəlam) itaət;*

**«Ey iman gətirənlər, Allaha itaət edin, Onun Peyğəmbərinə və (Peyğəmbərin mə`sum canişinləri olan) əmr sahiblərinizə (İmamlara) tabe olun. Beləliklə, əgər (din və ya dünya işlərindən) bir şey**

---

[1] "Əş-Şura", surəsi, ayə 23.

[2]Yə`ni, Allaha yaxınlaşmaq üçün dində və həyat tərzinizdə Əhli-beytsiz (əleyhimussəlam) nəzər yürütməyin və Onları həmişə özünüzə nümunə sayın!

**barəsində mübahisəniz olsa, Allaha və Axirət gününə imanınız varsa, onu Allaha və Onun Peyğəmbərinə həvalə edin! Bu (sizin üçün) daha xeyirli və nəticə baxımından daha gözəldir.»**[1]

## Əhli-beyt (əleyhimussəlam) Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) sünnəsində

Hər kim Əziz Peyğəmbərimiz Həzrət Məhəmmədin (səlləllahu ələyhi və alihi və səlləm) sünnəsində (keçdiyi həyat yolunda) tədqiqat aparıb mütaliə etsə və o Həzrətin (səlləllahu ələyhi və alihi və səlləm) Əhli-beytə (ələyhimussəlam) qarşı olan məhəbbət və əhəmiyyətini görsə, başa düşər ki, bu müqəddəs ailənin İslamda nə qədər böyük, əsaslı rolu və tə`siri vardır. Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) müxtəlif zamanlarda bu məsələni xalqa bəyan edərək, Allahın əmri ilə ümmətdə belə bir məsələni qə`bul etməyə şərait yaradırdı. O, (səlləllahu ələyhi və alihi və səlləm) bu işi mərhələ-mərhələ həyata keçirirdi. Ilkin mərhələdə Allahın əmri ilə qızı Fatiməni (səlamullahi ələyha) Həzrət Əliyə (ələyhissəlam) ərə verdi və bununla da mübarək Əhli-beyt (ələyhimussəlam) ağacının gövdəsini əkdi ki, tarix boyu bu ağacın budaqları İslam ümmətinin bütün üfüqlərinə ucalsın.

---

[1] "Ən-Nisa", surəsi, ayə 59.

## “Səqələyn”[1] hədisi

Həzrət Peyğəmbər səlləllahu ələyhi və alihi və səlləm) buyurmuşdur: “Həqiqətən mən sizin aranızda iki ağır və qiymətli əmanət qoyuram. Onlardan biri Allah-təalanın kitabı (Qur`an), digəri isə mənim itrətimdir. Allahın kitabı göydən yerə endirilən ipi xatırladır və itrətim isə mənim Əhli-beytimdir. Mehriban olan Allah mənə xəbər vermişdir ki, bu iki şey Cənnət hovuzunda mənə qovuşana qədər bir-birlərindən ayrılmayacaqlar. Diqqətli olun və görün məndən sonra bu iki şeylə necə rəftar edəcəksiniz!”

Yaxud başqa bir tə`birlə belə buyurur: “Mən sizin aranızda iki şey qoyub gedirəm. Əgər onlara tabe olsanız, heç bir zaman yoldan çıxıb azmazsınız. O iki şey Allahın kitabı və mənim Əhli-beytimdir. Onlar Cənnət hovuzunda mənə qovuşana qədər bir-birlərindən ayrılmazlar. Baxın görün məndən sonra onlarla necə rəftar edəcəksiniz.”[2]

## “Səfinə”[3] hədisi

---

[1] Yə`ni, “iki ağır əmanət”.

[2] “Səhihu-Tirmizi”, c. 2, səh. 380, “Əhli-beytin mənaqibi” fəsli, “Müstədrəku-Hakim”, c. 3, səh.109, “Musnəd”, Əhməd ibni Hənbəl, c.3, səh.17, “Zəxairul-uqba” , Təbəri, səh.16 və s. kitablar.

[3] Yə`ni, “gəmi”.

“Səqələyn” hədisi bizə Əhli-beyti (ələyhimussəlam), Qur`anın mə`na və həqiqətlərini, hikmət və sirlərini bəyan edən şəxslər kimi tanıtdırdı.

“Səfinə” hədisi isə Onların (ələyhimussəlam), müsəlmanlar üçün nicat gəmisi və qurtuluş yolu olduqlarını müəyyən edir. Bu hədisdə izah olunur ki, hər kim bu gəmidən istifadə etməzsə və onunla birgə hərəkət etməzsə, şübhə yoxdur ki, günah dənizində bataraq məhv olacaqdır. Eyni zamanda Əhli-beytin (ələyhimussəlam) nicat gəmisinə minməyən şəxs insanları hidayət və mənəviyyat sahilləinə aparan İlahi rəhbərləri rədd edir və bununla da özünün əbədi bədbəxtçilik dənizində boğulmasına razı olur.

Əbuzər Ğəffari belə rəvayət edir: “Ay camaat! Hər kim məni tanıyırsa tanıyıb, tanımayanlar bilsinlər ki, mən Əbuzərəm! Mən Peyğəmbərdən (səlləllahu ələyhi və alihi və səlləm) belə eşitdim: “Mənim Əhli-beytim Nuhun gəmisi kimidir. Hər kim ondan uzaq düşsə cəhənnəm oduna düşər. Mənim Əhli-beytimi bir bədəndə baş və yaxud bir başda gözün yerində fərz edin. Şübhəsiz, bədən başsız və baş da gözsüz heç bir zaman bir iş görməyə qadir deyildir.”[1]

**Digər hədislər:**

**1-** Əziz Peyğəmbərimiz (salləllahu ələyhi və əlihi və səlləm) dəfələrlə buyurmuşdur: “Hər kim mənim

---

[1] “Əl-ithafu bi hubbil əşraf”, Şərbavi Şafeyi, səh.26, “Hilyətul-əvliya”, c. 4, səh. 306, “Zəvaidu musnədil bəzar”, Əhli-beyt vəl-ərvah fəsli, səh.277, “Məcməuz-zəvaid”, c. 9, səh. 163, “Mu`cəmul-kəbir”, Təbərani, c. 1, səh.125 və s. kitablar.

Əhli-beytimlə pis rəftar etməklə məni narahat etsə, Allahın qəzəbi o adam üçün şiddətli olar.”

**2-**“Qiyamət günü bütün bəndələrə bu dörd sualları verməmiş qoymazlar bir addım irəliləsin; ömrünü hansı şeylərə fənaya verdiyindən, bədənini nələrdə qocaltdığından, mal-dövləti hardan qazanıb, harada məsrəf etdiyindən və biz Əhli-beytin məhəbbət və dostluğundan.”

**3**-“Həqiqətən məndən sonra ümmətim üçün olan canişimlərim, vəsilərim və Allahın bəndələrə olan höccətləri və İmamları on iki nəfərdən ibarətdir. Onların əvvəli Əli, axırıncısı isə nəslimdən olan övladım Məhdidir”[1]

Bir sözlə Əhli-beyt (əleyhimussəlam) haqqında nazil olan ayələr və rəvayət olunan aşkar hədislər, tarix boyu müxtəlif zaman və məkan şəraitində müsəlmanların qəlblərində yaşamışdır. Bu e`tibarlı mənbələr, elm və mərifət xəzinələri zaman keçdikcə daha da canlı və önəmli bir şəkildə müsəlmanların namuslu təfəkkürlərində kök salaraq, bir daha onları İslamın ülvi hədəflərinə doğru istiqamətləndirir. Bu müqəddəs insanlarla (əleyhimussəlam) tanışlıq Allah, Qur`an və varlıq aləmi ilə həqiqi tanışlıq səbəbidir. Belə bir mə`rifət həqiqətlərin dərki üçün nuraniyyətə səbəb olur. Bu yolla nəfs saflaşdırılır, batin aləmi bəzənir.

[1] “Yənabiul-məvəddət”, c. 3, bab 78, hədis 2, səh. 25 və s. kitablar.

Bəli, ayə və rəvayətlərdən göründüyü kimi, Əhli-beyt (ələyhimussəlam) bütün maddi və mə`nəvi bərəkətlərin mənbəsidir. Insan Onları tanımadan, Onlara bağlanmadan heç bir bərəkətə nail ola bilməz.

Demək olar ki, bütün səmavi dinlərdə hər bir Peyğəmbərin on iki canişini olmuşdur. Məsələn, Isa Peyğəmbərin (ələyhissəlam) on iki həvarisi (apostol) O Həzrətin (ələyhissəlam) gətirdiyi dini yaymış və insanları düzgün yola hidayət etmişlər. Həmçinin İslam Peyğəmbərindən (salləllahu ələyhi və əlihi və səlləm) sonra sonuncu dini insanlara düzgün tanıtdırmaq və onları doğru yola hidayət etmək üçün İmamların (ələyhimussəlam) vücudu zəruridir. İmam Riza (ələyhissəlam) həqiqi İmamın məqam və sifətlərini belə sadalayır:

1-İmam Öz nuru ilə dünyanı işıqlandıran günəş kimidir.

2-İmam on dörd gecəlik ay, nurlu çıraq, aydınlıq, yol göstərən ulduz kimidir.

3-İmam susuz üçün şirin su, yolunu azan insan üçün isə bələdçidir.

4-İmam hərarət axtaran üçün şö`lənənən od, təhlükə zamanı sığınacaqdır. Ondan ayrılan həlak olur.

5-İmam Allahın halalını halal, haramını haram edir. Allahın buyurduğu hədlər qorunur, din müdafiə olunur, insanlar hikmət və moizə ilə Rəbbinin yoluna də`vət edilir, aşkar dəlillərlə haqq yol açıqlanır.

6-İmam daimi və bərəkətli yağış kölgə salan bulud, məhsuldar torpaq, sulu çeşmə, bəhrəli bağ-baxçadır.

7-İmam vəfalı dost, mehriban ata, candan üstün qardaş, qayğıkeş ana, e`tibarlı sığınacaqdır.

8-İmam xalq üzərində Allahın nəzarətçisi, bəndələr üçün dəlil, yer üzündə canişin, Allaha doğru də`vət edib dini qoruyan kəsdir.

9-İmam bütün günahlardan, nöqsanlardan pak və uzaqdır. O elm və biliklə, səbir və dözümlə bəzənmişdir.

10-İmam dinin nizamı, müsəlmanların izzəti, münafiqlər[1] üçün qəzəb səbəbi, kafirlər üçün ölümdür.

11-İmam məqam və mərtəbəsinə kimsənin çatmayacağı bir kəsdir. Onunla eyni biliyə malik olan yoxdur. Ona oxşar tapılmaz, Onun vücudu Allah tərəfindən əta olunmuş fəzl qoynundadır.

12-İmamın sifətlərinin bəyanında öz acizliyini hamı e`tiraf etmişdir. Axı İmamın bütün fəzilətlərini, məqamlarını, üstünlüklərini necə əhatə etmək olar?!

13- İmam danışan Qur`andır. Qur`an və İslam maarifinə İmamsız yaxınlaşmayın!

14-Heç şübhəsiz, İmamət məqamı dinin cilovu, müsəlmanların nizamı, dünyanın salamatçılığı, mö`minlərin izzətidir.

15-Həqiqətən, İmamət uca mərtəbəli İslamın sütunu və bu geniş həqiqətin cismidir. Yetərli namaz, zəkat, oruc, həcc, cihad, qənimət, sədəqə, hədd və ölkənin hifzi yalnız İmamın varlığına bağlıdır...[2]

---

[1] Yə`ni, "ikiüzlü".

[2] "Bəşəriyyətin nicat yolu", səh. 86.

## Altıncı fəsil

# DİN İLƏ ELMİN QARŞILIQLI MÜNASİBƏTİ

İslam dini elm və təhsilə xüsusi əhəmiyyət verir. Hər bir müsəlman dindarlıqla yanaşı ayıq, agah və mə`rifət sahibi olmalıdır. Qur`ani-Məcid qısa və mə`nalı bir cümlədə buyurur: **«(Qəlbən) kor və cahil insan, görən və agah insanla birdirmi?!»**[1]

Məşhur kimyaçı Mendeleyev öz xatirələrində yazır: "Əgər Cabir ibn Həyyanın [2] yazdığı kitabları oxumasaydım, kimyəvi elementlər cədvəlini aşkar edə bilməzdim."[3]

İlk təhsillərini dini mədrəsədə almış Ibn Sina, Nəsrəddin Tusi, Farabi və s. tanınmış alimlər həmişə elmi nəaliyyətlərini İslam dini ilə əsaslandırmışlar. Məsələn, fəlsəfə, astronomiya, tibb, fizika və kimya elmlərini gözəl bilən Ibn Sina deyir: "Mən elmi məsələlərdə çətinliyə düşdüyüm zaman əvvəl dəstəmaz alar, sonra namaz qılar və Allahdan kömək

---

"Əl-Ən`am" surəsi, ayə 50.[1]

[2] İmam Cə`fər Sadiqin (əleyhissəlam) tələbəsi. Tarixdə deyilir ki, bu İmamın (əleyhissəlam) dörd mindən çox şagirdi var idi və onlara bütün elmlərdən (fəlsəfə, astronomiya, tibb, fizika, kimya, riyaziyyat, həndəsə və s.) dərs keçirdi.

[3] "Cəmiyyət və din", səh.88.

istərdim. Nəhayətdə isə həmin elmi məsələ mənim üçün aşkar olardı.”[1]

Bildiyimiz kimi bə`zi elmlər dini, bə`zisi isə qeyri-dinidir. Dini elmlər dedikdə əqidə, əxlaq, əməli elmlər və bu elmlərə giriş olan ərəb qrammatikası, məntiq və s. nəzərdə tutulur.

Qeyri-dini elmlərə isə mühəndislik, həkimlik və s. qeyd etmək olar.

İstər dünyəvi, istərsə də dini elmləri öyrənmək vacibdir. Başqa sözlə desək, elm iki hissədən ibarətdir:
1-**Bütün insanlara vacib olan elm;**
2-**Bə`zi insanlara vacib olan elm;**

İslam Peyğəmbəri (salləllahu ələyhi və əlihi və səlləm) buyurur: “Vacib olan elm üçdür: “Ayətun muhkəmə” (usuluddin), “fərizətun adilə” (furuuddin) və “sunnətun qaimə” (əxlaq-yə`ni, fərdi və ictimai hüquqlar). Bunlardan başqa nə varsa, fəzilətdir.”[2]

Hədisdən aydın olur ki, həddi-buluğdan başlayaraq bütün insanlar dini elmləri usuluddini, furuuddini və əxlaqı) öyrənməli və ömürlərinin sonuna kimi bu üç elmdən faydalanıb ona əməl etməlidirlər. Çünki hədisdə “vacib” kəlməsi işlənibdir. Çox aydın bir məsələdir ki, Qiyamətdə Qur`anın buyuruqlarına əməl edib-etməməyimizdən sorğu-sual olunacağıq.

Lakin qeyri-dini elmləri isə bütün insanların öyrənməsi “vacib” deyil və buna görə sorğu-sual olunmayacaqlar. Bunları bə`zi insanlara öyrənmək

---

[1] “Din ilə elmin vəhdəti”, səh. 3.
“Usuli-kafi,” c. 1, s. 37.[2]

vacibdir ki, cəmiyyətə xeyir verib, onun maddi yönümünü həll etsinlər.

Beləliklə, Qiyamətdə Allah-təala bizdən – **“Nə üçün həkimliyi və ya mühəndisliyi öyrənmədin?”** – deyə, soruşmayacaq. Əksinə O, bunları soruşacaqdır: **“Nə üçün namaz qılmadın, xüms ödəmədin? Nə üçün zülm etdin, tərəzidə aldatdın və s.?”**

## Elm Qur`anda

Dini elmdən ayırmaq insafsızlıqdır. Tarixə nəzər saldıqda elmlə din arasında ziddiyyət yox, əksinə vəhdət və sıx əlaqə olmuşdur. Bə`zən elə insanlara rast gəlmək olur ki, Qur`anı elmdən ayırır və bunların tamamilə bir-birinə zidd olduğunu isbat etmək istəyir. Halbuki, onlar az da olsa, bu barədə araşdırma aparsalar, onda bu ikisinin bir-birindən ayrılmaz olduğunu müşahidə edərlər. Sözümüzə dəlil olaraq aşağıdakılara diqqət edək:

Hər bir şeyin, o cümlədən canlı və cansızın yaradıcısı tək olan Allahdır. Deməli, bütün elmlərin yaradıcısı – Odur.

Elm - ərəb kəlməsidir. Ana dilimizdə isə “bilik” mə`nasındadır. Qur`anda “elm” sözü 779 dəfə işlənmişdir. Bu da öz növbəsində Qur`anda kəlmə sayına görə altıncı yerdə durur. Birinci yerdə duran “Allah” kəlməsidir ki, iki mindən çox ayədə təkrar olunmuşdur.

Qur`ani-Kərimin ən böyük mö`cüzə olmasının səbəbi budur ki, yüzlərlə ayə elmdən xəbər verir. Bunu hətta materialist alimlər belə təsdiq edir. Bir neçə ayəni yada salmaq istərdik:

1) **«Bağışlayan və mehriban Allahın adı ilə. And içirəm Qiyamət gününə! Və and içirəm özünü məzəmmət edən nəfsə (mö`minin nəfsinə və Allaha asi olduğu üçün özünü məzəmmət edən ayıq vicdanına and olsun ki, Qiyamət haqdır)! Yoxsa insan belə güman edir ki, Biz əsla onun sümüklərini (öldükdən sonra torpaqların arasından) bir yerə yığa bilməyəcəyik? Bəli (bir yerə yığacağıq), hələ bir (üstəlik) onun barmaqlarının ucunu da əvvəldə olduğu kimi sirli xətlərlə düzəltməyə qadirik!»**[1]

Insanın barmaq izləri onun "şəxsiyyət vəsiqəsi"dir. Ümumiyyətlə Qur`anda insanları ölümündən sonra diriltmənin Allah üçün çox asan olması bildirilir. Bu ayədə barmaq uclarının vurğulanması son dərəcə hikmətamizdir. Çünki bütün insanların barmaq izləri tamamilə bənzərsiz, təkrarsız və tamamilə özünəməxsusdur. Tibb elminin "doktilaskopiya" sahəsi də barmaq izlərini müəyyənləşdirən əsas vasitədir. Cinayətkarın tapılmasında və s. mühüm işlərdə həmin cizgilər köməyə çatır. Bu da on doqquzuncu əsrin axırları kəşf edilmişdir.

2) «**Sonra onu(n nəslini) nütfə (torpağın maddələrinin cövhəri) şəklində möhkəm bir yerə (ana bətninə) qoyduq. Sonra nütfəni ələqə etdik**

[1] "Əl-Qiyamət" surəsi, ayə 1-4.

**(laxta qana çevirdik), sonra ələqəni muzğə etdik (çeynənmiş ət şəklinə saldıq). Ondan sonra muzğəni (yumşaq) sümüklər etdik. Beləliklə sümüklərə ət (libası) geyindirdik. Sonra onu (inkişaf etmək qabiliyyəti olan həmin cismi ruh üfürməklə ağıl və elmə layiq) başqa bir (canlı) məxluq (şəklində) vücuda gətirdik. Buna görə də afərin Allaha! Yaradanların ən yaxşısı olan Allah, çox xeyir-bərəkətlidir!**»[1]

Dölün ana bətnindəki inkişafını araşdıran elm sahəsi embriologiyadır. Mikroskop icad olmamışdan qabaq bu elm yaxın zamanlara qədər elə hesab edirdi ki, ana bətnindəki dölün sümükləri ilə əzələləri eyni vaxtda əmələ gələrək paralel şəkildə inkişaf edir. Buna görə də bə`zi adamlar bu ayələrin elmlə düz gəlmədiyini uzun zaman ərzində iddia ediblər. Lakin mikroskopik araşdırmalar göstərdi ki, dölün ana bətnindəki inkişafı prosesi məhz Qur`anda təsvir olunmuş ardıcıllıq üzrə gedir.

3) «**Və küləkləri (buludlar, ağaclar və otlar üçün) mayalandırıcı olaraq göndərdik. Göydən (yağış, qar və dolu şəklində) su nazil etdik və sizi onunla sirab etdik. Siz onu (nə göyün buludunda və nə də yerin dərinliklərində) yığıb saxlayan deyilsiniz və buna qüdrətiniz də yoxdur.**»[2]

Orta məktəb dövründən bilirik ki, küləklər tozlandırıcı xüsusiyyətə malikdir. Belə ki, əksər açıq

---

“Əl-Mu`minin” surəsi, ayə 13-14. [1]
“Əl-Hicr” surəsi, ayə 22. [2]

toxumlu və çiçək verən bütün  toxumlu bitkilər, şam ağacları, palmalar, habelə çəmənlik otları və s. küləklərlə mayalanır. Külək çiçək tozlarını bitkilərdən alıb onları eyni növdən olan başqa bitkilərə apararaq mayalanma prosesini həyata keçirir.

Bir sözlə bu elmi həqiqətlər 14 əsr bundan öncə Qur`anda öz əksini tapmışdır.

## Elm hədislərdə

İslam dini həm cəmiyyətə, həm də tək-tək insanlara, şəriətə aid bə`zi məsələlərdə **zaman**, **məkan** və **cins** baxımından məhdudiyyətlər tə`yin etmişdir. Lakin yeganə sahə elmdir ki, İslam dini ona heç bir hədd qoymamış və elmə daha geniş yer vermişdir. Deyilənləri izah etmək istərdik:

**Zaman baxımından:** Bilirik ki, zaman cəhətindən oğlan 15, qız isə 9 yaşına çatarkən "namaz" qılmaq onlara vacib olur. Yə`ni, bu yaşdan qabaq ibadət etmək vacib deyil və şəxsin öz ixtiyarındadır. Deməli, namaz məsələsində Allah-təala insana zaman cəhətindən məhdudiyyət qoymuşdur.

Lakin, elm cəhətindən isə Allah-təala insana heç bir hədd qoymamışdır. Necə ki, Əziz Peyğəmbərimiz (salləllahu ələyhi və alihi və sələm) buyurur: "**Beşikdən qəbrədək elm öyrənin**!"[1]

[1] "Nəhcul-fəsahə", səh. 246, hədis 327.

Hədisdən aydın olur ki, elmi 9 və ya 15 yaşından deyil, körpənin dünyaya göz açmasından öyrənməsi lazımdır.

Bə`ziləri: “Axı körpənin beşikdə elm öyrənməsi necə mümkündür?”- deyə soruşa bilərlər. Cavab: “Insanın tərbiyəsinin məhz elə o vaxtdan başlanması zəruridir. Çünki, körpənin zehni tər-təmizdir. Ora nə həkk olunsa, o da qalacaqdır. Əgər valideyn haram musiqiləri onun qulağına eşitdirərsə, onda həmin musiqi körpənin mə`nəviyyatında mənfi izlər buraxacaq və onun qəlbi qaralacaqdır. Yox, əgər körpə Qur`an eşidərsə və Onunla böyüyərsə, mə`lumdur ki, onun vücudunu müsbət xüsusiyyətlər əhatə edəcəkdir.

**Məkan baxımından:** Dinin bə`zi hökmlərini məxsus yerdə və ya məxsus məkanda yerinə yetirmək lazımdır. Məsələn, “həcc” kimi olan ibadət yalnız Məkkə şəhərində yerinə yetirilməlidir. Başqa şəhərdə bu ibadəti yerinə yetirmək haramdır. Deməli, həcc məsələsində Allah-təala insana məkan cəhətindən məhdudiyyət qoymuşdur.

Lakin, elm cəhətindən isə Allah-təala insana heç bir hədd qoymamışdır. Necə ki, Əziz Peyğəmbərimiz (salləllahu ələyhi və alihi və səlləm) buyurur: “**Elm Çində də olmuş olsa, gedin, öyrənin**!”[1]

Çin əhlinin müsəlman olmamasından belə bir qənaətə gəlmək olar ki, bəşəriyyət üçün faydalı

[1] Həmin mənbə, səh. 246, hədis 324.

istənilən bir elm və bilik dəyərlidir. Insanı kamilliyə aparan, özü və ətrafı ilə daha artıq tanışlığa yönəldən, onu Allaha yaxınlaşdıran istənilən bir elm və bilik İslamda diqqət mərkəzindədir. Çünki İslam dini bəşəriyyətin hidayəti və onun Allaha doğru hərəkəti üçün göndərilmişdir.

Bir sözlə hədisdən göründüyü kimi kafir və bütpərəst ölkəsində belə faydalı elm varsa, müsəlmanların həmin elmi öyrənməsi və xalqa mənfəət verməsi zəruridir.

**Cins baxımından:** Həmçinin bə`zi hökmlərin kişilər tərəfindən yerinə yetirilməsi vacib, qadınlar tərəfindən isə vacib deyildir. Buna misal "cihad"ı göstərmək olar. Yə`ni, Allah-təala cinsiyyət məsələsində qadınlara məhdudiyyət tə`yin edir və düşmənlə üzbəüz vuruşmağı onlara vacib bilmir.

Lakin, elm cəhətindən isə Allah-təala kişi və qadına heç bir hədd qoymur. Əziz Peyğəmbərimiz (salləllahu ələyhi və alihi və səlləm) bu barədə buyurur: "**Elm öyrənmək bütün müsəlman kişilərə və qadınlara vacibdir.**"[1]

Yuxarıdakı bu üç hədisdən aydın olur ki, haqq olan dinimiz bir sıra ibadi əməllərdə məhdudiyyət qoymuş, elmdə isə heç bir məhdudiyyət qoymamışdır. Və bu da elmin üstünlüyünün açıq-aşkar nümunəsidir.

Məhəmməd Peyğəmbər (salləllahu ələyhi və alihi və səlləm) buyurur: "Dini elm və maarifin var-

---

[1] Həmin mənbə, səh. 249, hədis 1905.

dövlətdən yeddi üstün cəhəti var: 1-Elm Peyğəmbərlərin mirasıdır, var-dövlət isə fironların.
2-Elmi bağışlayıb əta etdikcə artır, var-dövlət isə azalır.
3-Elm alimin qoruyucusudur, var-dövlət isə özü qorunmağa möhtacdır.
4-Elm kəfəndə olarkən də insana yoldaşdır, var-dövlət isə yox.
5-Var-dövlət kafirə də məxsus ola bilər, mö`minə də, lakin, elm yalnız mö`minlərə məxsusdur.
6-Alim dini məsələlərdə hamının müraciət nöqtəsidir, lakin, dövlətli isə belə deyil.
7-Elm sirat körpüsündən keçərkən sahibinə qüdrət bəxş edər, mal-dövlət isə öz sahibinin qüdrətini əlindən alar.[1]

İmam Sadiq (ələyhissəlam) buyurur: "Dini məsələlərin dərkində dərinə varın! Dində dərinliyə varmayan və onu anlamaq üçün çalışmayan kəs bədəvi ərəblər kimi qalacaq."[2]

Əmirəl-mö`minin Həzrət Əli (ələyhissəlam) necə də gözəl buyurmuşdur:

Yerdən cücərirsə həm gül, həm tikan,
Sual da, cavab da elm babından.

---

[1] "Nəsihətlər", Ayətullah Meşkini, səh. 216.
[2] "Biharul-ənvar", Əllamə Məclisi, c. 1, s. 215, hədis 19.

Bəli, səmavi suallar verən hər bir kəs cavab olaraq elm və bilik əldə edəcək. Cəmiyyət və mədəniyyətin inkişaf və sabitliyi səmimi suallar və düşüncəli cavablardan asılıdır.

14 mə`sumun (əleyhimussəlam) dualarından biri də bu olmuşdur: “İlahi! Heç bir xeyiri olmayan elmdən, təvazökarlığın nə olduğunu bilməyən qəlblərdən, qə`bul olunmayan dualardan və azğın nəfsdən Sənə sığınıram.”[1]

Deməkk, heç bir xeyiri olmayan elmlərə yiyələnmək üçün sərf olunan vaxt və iste`dad olduqca əbəs və əhəmiyyətsizdir.

Əldə olunan elm, dildə yox, əməli olaraq həyata keçirilməlidir. Allah-təala deyilən sözlərə əməl etməməyi məzəmmət edərək buyurur: **«Ey iman gətirənlər! Etməyəcəyiniz bir şeyi niyə deyirsiniz? Etməyəcəyiniz bir şeyi demək, Allah yanında böyük qəzəbə səbəb olar.»**[2]

Əziz Peyğəmbərimiz (salləllahu əleyhi və alihi və səlləm) başqa bir hədisdə belə buyurur: “Bu dörd şeyə görə elm öyrənən şəxslər Cəhənnəm əzabına düçar olarlar:

1-Alimlərlə mübahisə aparmaq üçün;

2-Nadan və cahillərin qarşısında öyünmək üçün;

3-Camaatın nəzərini özünə cəlb etmək üçün;

[1] “Məfatihul-cinan” kitabından, şeyx Abbas Qumi.

[2] “Əs-Səff” surəsi, ayə 2-3.

4-Yiyələndiyi elmin vasitəsilə hakim və əmirlərdən (dövlət başçılarından) pul və var-dövlət əldə etmək üçün.”[1]

Əli (əleyhissəlam) buyurur: “Allah eşqindən kövrəlməyən qəlblərdə, ağlamayan gözlərdə və heç bir mənfəəti olmayan elmlərdə xeyir olmaz. Xeyiri olmayan elmlər, şəfa verməyən dərmanlar kimidir.”[2]

Rəvayətdə deyilir: “Bir yəhudi İmam Əlinin (əleyhissəlam) yanına gəlib dedi: “Mənə elə bir ədəd de ki, 1-dən 10-a kimi bölünəndə nəticəsi qalıqsız olsun.

Əli (əleyhissəlam): “Əgər cavabını desəm, İslamı qə`bul edəcəksənmi?”

Dedi: – “Bəli.”

Əli (əleyhissəlam) ona buyurdu: “Həftənin günlərini vur, çevrənin tam dərəcəsinə! Istədiyin ədəd alınacaqdır.”

Yəhudi həftənin günlərini (yə`ni 7-ni), çevrənin tam dərəcəsinə (yə`ni 360-a) vurub 2520 rəqəmini alır və onu 1-dən 10-a kimi bölüb nəticəsi qalıqsız olduğunu gördükdə İslamı qə`bul edir.....

Həmçinin ərəb rəqəmlərində 1-dən 10-a kimi sayının hansında "əyn" hərfi varsa, onları bir-birinə vur! Istədiyin ədəd alınacaqdır. (4, 7, 9 və 10 rəqəmlərində “əyn” hərfi mövcuddur...rabi`ə, səb`ə, tis`ə və ə`şərə)....”[3]

---

[1] “Sunəni Darəmi”, c. 1.
[2] “Ğurarul-hikəm”, elm babı.
[3] “Həzrət Əlinin (əleyhissəlam) qəzavətləri”, səh. 129.

Mərhum Şeyx Bəhai “Xülasətul-hesab” kitabının 136-cı səhifəsində belə qeyd edir:

“Əgər ayların sayını (12) ayın günlərinin sayına (30)[1] və onun hasilini (360) də həftənin günlərinə (7) vursan, elə bir ədəd alınar (2520) ki, qeyd olunan ədədlərin hamısına qalıqsız bölünər.”

Bəli, hörmətli oxucu! Əgər 14 mə`sumun (əleyhimussəlam) elmi haqqında yazmaq istəsək, cildlərlə kitablar əmələ gələr. Lakin diqqət olunası məqam budur ki, qeyd etdiyimiz kimi bütün elmlər Allahdandır və elmləri də Allah-təala iki hissəyə bölür: “Lədunni|” və “iktisabi”. Allah-təala “lədunni” elmi Özünün layiq bildiyi və seçdiyi bəndələrinə əta edir. Bu bəndələr Peyğəmbərlər və İmamlardır (əleyhimussəlam). Belə ki, Allah-təala məsləhət bildiyi elmləri Peyğəmbərlərin və İmamların (əleyhimussəlam) qəlbində yerləşdirir. Yə`ni, Onlar heç kimdən dərs almırlar. Qısa sözlə desək, bu müqəddəs insanların müəllimi birbaşa Allah-təalanın Özüdür.

“Iktisabi” elmə gəldikdə isə yerdə qalan bütün insanlar bu elmdən istifadə edir. Yə`ni, hər hansı bir mə`lumatı, yaxud hər hansı bir elmi kəsb etmək (qazanmaq) üçün ya müəllimdən, ya kitabdan və ya başqa vasitələrlə öyrənirlər. Ona görə də insan özünü başqalarından elmli və üstün saymamalı, özünü Yaradanın hüzurunda aciz və zəif sanmalı,

[1] Məqsəd hicri-qəməri aylarıdır. Bu ayın ən uzun günü 30 gündür.

Peyğəmbərləri və İmamları (ələyhimussəlam) özü üçün örnək bilib kamilliyə doğru addımlamalıdır. Məhz belə olan surətdə həm bu dünya, həm də Axirət səadətinə qovuşmuş olar.

## Yeddinci fəsil

# USULUDDIN

Müqəddəs İslam dininin maarifi iki hissədən ibarətdir:
1) **Usuluddin** (dinin əsasları və ya kökləri).
2) **Furuuddin** (dinin budaqları).

Başqa sözlə desək, din – "**iman**" və "**əməl**"dən ibarətdir və hər bir müsəlman "dinin kökləri"nə inanmalı, "dinin budaqları"na isə əməl etməlidir. Məhz belə olan surətdə insan Allahın razılığını, əbədi olan Cənnəti qazanacaq, məqsəd və hədəfə çatacaqdır.

Bir qanadı olan quşun öz məqsəd və hədəfinə yetişməsi qeyri-mümkündür. Bunun üçün onun iki qanadının olması zəruridir. Insanın da bu iki qanadı ( yə`ni, "iman" və "əməl"i) olmasa, onda, o, bir qanadlı quş kimi öz məqsədinə və hədəfinə heç vaxt yetişməyəcək və əbədi olan Cənənnəmi qazanacaqdır.

Qur`an buyurur: **«Şübhəsiz, iman gətirib**[1] **və saleh iş görənlər**[2] **isə yaradılmışların ən yaxşılarıdır. Onların Rəbbi yanındakı mükafatları (evlərinin və ağaclarının) altından çaylar axan Ədn cənnətləridir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır**

---

Yə`ni, "usuluddin"ə imanı olanlar.[1]
Yə`ni, "furuuddin"ə əməl edənlər. [2]

**və onlar da Allahdan razıdırlar. Bu (mükafat) öz Rəbbindən qorxan kəslər üçündür.»**[1]

Usuluddin 5, furuuddin isə 10 maddədən ibarətdir. Usuluddinin maddələri aşağıdakılardır:

1)**Tovhid** – yə`ni Allahı hər bir cəhətdən yeganə, misilsiz və şəriksiz bilmək.

Məhz "tovhid" bütün İslam tə`limlərinin ruhu və əsasdır. O, İslam dininin bünövrəsi, kökü və dayaq nöqtəsidir. Dinimizin hər bir bölməsi bir növ, "tovhid"lə Allahın yeganəliyi ilə sıx bağlıdır. Allahın pak zatının vəhdəti və misilsiz olması, "tovhid"ə əsaslanır.İlahi Peyğəmbərlərinin (ələyhimussəlam) bir Allaha doğru çağırışları, İlahi dininin və ayinlərinin bir olması, müsəlmanların qibləsinin, həmçinin Müqəddəs kitabımızın bir olması, İlahi qanun vericiliyinin və hökmlərin bəşər övladları üçün vəhdəti, Qiyamət gününə olan e`tiqadın birliyi də, "tovhid"dən xəbər verir.

Qur`ani-Kərim buyurur: **«Sənə və səndən əvvəlki bütün Peyğəmbərlərə vəhy olunmuşdur ki, əgər müşrik**[2] **olsanız, əməllərinizin hamısı hədər olacaqdır. Və əlbəttə, ziyankarlardan olacaqsınız.»**[3]

2) **Ədl -** yə`ni Allahın ədalətli olduğuna inam.

Allahın öz bəndələrinə zülm etməsi, heç bir səbəb olmadan kimisə cəzalandırması və ya əsassız olaraq

---

[1] "Əl-Bəyyinə" surəsi, ayə 8.

[2] Yə`ni, Allaha şərik qoşan şəxs, varlıq aləminin bir neçə yaradıcısı olduğunu qə`bul edənlər.

[3] "Əz-Zümər" surəsi, ayə 65.

bağışlaması qeyri-mümkündür. Çünki Allah-təala dəfələrlə Qur`anda zalımların və günahkarların əbədi Cəhənnəmdə olmasını və`d edir. Deməli, Onun Öz və`dəsinə əməl etməməsi, ləyaqətsiz və günahkar şəxslərə peyğəmbərlik və İmamət məqamı bəxş etməsi və onların ixtiyarında müxtəlif mö`cüzələr qoyması da, qeyri-mümkündür. O, Adildir və zərrə qədər heç kimə nahaq yerə zülm etməz.

Qur`an buyurur: **«Doğrudan da, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm edərlər.»**[1]

Yaxud **«Həqiqətən, Allah (heç kəsə) zərrə qədər belə zülm etməz.»**[2]

Ağılın hökmünə əsasən kainatın Xaliqi hər növ zülmkarlıq və insafsızlıqdan uzaq olmalıdır. Əks təqdirdə Allah-təalanın sifətlərindən biri sayılan **"hikmət"**in mə`nası olmayacaqdır.

Heç bir ağıl və məntiq, zülmkar Rəbbi təsdiq etməz, çünki zülmə əl atan şəxs ya kimdənsə qorxur və onun şərrindən uzaq olmaq istəyir, ya kimə və ya nəyəsə ehtiyacı vardır. Allah-təala isə bütün bunlardan pak və uzaqdır.

Görəsən, insanları ədalət və yaxşılığa əmr edən Allahın Özü ədalət və insafdan kənar ola bilərmi?!

Əgər Allah-təala Öz işlərində ədalətli olmasaydı, onda Onun bütün işləri hikmətsiz sayılar, hikmətsiz

---

"Yunis" surəsi, ayə 44. [1]

[2] "Ən-Nisa" surəsi, ayə 40.

işlər isə əbəs və mə`nasız olardı. Bu isə uca məqamlı Rəbbimizdən çox-çox uzaqdır.

Qiyamətdə sorğu-sualın da ədalətlə keçiriləcəyi barədə buyurulur: «**Biz Qiyamət günü (əqidə, sifət və əməlləri ölçmək üçün) ədalətli ölçü və tərəzilər qoyacağıq. Beləliklə, heç kəsə heç bir şəkildə zülm olunmayacaq və onların haqlarından kəsilməyəcək. Əgər (insanın əməli kiçiklik baxımından) xardal dənəsi ağırlığında olsa belə, onu (tərəziyə) gətirəcəyik. Bizim haqq-hesab çəkən olmağımız kifayətdir.»**[1]

Əməllərimizi çəkmək istəyən bu tərəzi nədir? Xatırladaq ki, bu ayədə deyilən tərəzi insanın yaxşı və pis əməllərini ölçən tərəzidir və bu dünyanın tərəziləri kimi adi tərəzi deyildir. Bu, Allah-təalanın xalis ədalət tərəzisidir.

3) **Nubuvvət -** Yə`ni, Həzrət Adəmdən (əleyhissəlam) sonuncu Peyğəmbər Həzrət Məhəmmədə (səlləllahu ələyhi və əlihi və səlləm) qədər insanların hidayəti üçün göndərilmiş yüz iyirmi dörd min Peyğəmbərin (əleyhimussəlam) haqq olmasına inanmaq və onları təsdiq etmək.

Allah-taalanın insanlara din və qanun göndərməsi Peyğəmbərlərin (əleyhimussəlam) vasitəsi ilə olmuşdur. Onların hədəfi Allahın yeganəliyi, adillliyi, hökmləri və habelə Qiyamətə kimi zəruri məsələləri insanlara çatdırıb, onları bu yola hidayət etmək olmuşdur.

---

"Ənbiya" surəsi, ayə 47. [1]

Peyğəmbər göndərilməsinin digər bir səbəbi də budur ki, bəndələr üçün bütün bəhanə yollarını bağlayır ki, Qiyamət günü heç kəs **- Ey Allah, bizə bir peyğəmbər göndərsəydin, biz də ona tabe olub yolumuzu azmazdıq -** deməsin.

Allahın bizlərə 124 min peyğəmbər göndərməsində hədəf vardır. Bu, o deməkdir ki, ey insan, Mənim səninlə işim var və sənin də vəzifələrin vardır və verdiyim vəzifələrə necə əməl etdiyini Axirətdə yoxlayacağam. Bunu əməl tərəzisi ilə ölçəcəyəm. Əgər tərəzi ağır olsa, deməli yerin Behiştdir.

Bilməliyik ki, biz öz ağlımız vasitəsilə düz yolu tapa bilmərik. Buna görə də İlahi elçilərə ehtiyac vardır.

Qur`an buyurur: **«Ayələrini onlara oxumaq, onları (əqidədə, əxlaqda və əməldəki çirkinliklərdən) pak etmək, onlara (səmavi) kitab, dini və əqli mə`rifətlər öyrətmək üçün ümmilərin (çoxusu savadsız olan Məkkə camaatının) arasından özlərindən olan bir Peyğəmbər seçən Odur. Doğrudan da onlar bundan öncə açıq-aşkar azğınlıq içində idilər.»** [1]

## İslam cəmiyyətində rəhbərin rolu

Hər bir hərəkət bir neçə ünsürdən ibarətdir; başlanğıc, yol, vasitə, bələdçi və məqsəd. Bu beş ünsür

---

"Əl-Cümə" surəsi, ayə 1-2.[1]

arasında bələdçi daha mühüm rol oynayır. Əgər bələdçi və ya rəhbər alim və pəhrizkar [1] olarsa, yolçular yolunu azmaz. Layiqli rəhbərə xalq itaət etsə, bütün çətinliklər həll olar.

***Misal:*** Iynənin ucu iti və sap da möhkəm bağlı olarsa, istənilən bir parçanı tikmək olar. Sap iynədən çıxdıqda isə ən nazik parçanı belə tikmək mümkünsüzdür. Sapsız iynə gecə-gündüz işləsə belə, faydasız olar.

Yaxud, mahir sürücü nasaz maşını tə`mir edib yoluna davam etdiyi kimi, Peyğəmbərlər (əleyhimussəlam) də ən çətin ictimai şəraitlərdə insanları tərbiyələndirə bilmişlər. Ləyaqətsiz rəhbər isə naşı sürücü kimi ən qiymətli avtomobili hərəkətə gətirə bilmədiyi tək, öz xalqını işığa çıxara bilmir.

Beləliklə, Allah, səadət yolunda ucalıb İlahi kamilliyə çatmaq hədəfilə yaratdığı bəndələrini başçısız qoymamış və onlara Peyğəmbərlər, İmamlar göndərmişdir.

4) **İmamət** – Sonuncu Peyğəmbərimiz Məhəmməddən (salləllahu əleyhi və alihi və səlləm) sonra insanları doğru yola hidayət etmək üçün Onun haqq canişinləri olan 12 İmama (əleyhimussəlam) inanmaq və Onları təsdiq etmək.

İmamət - peyğəmbərlik kimi İlahi bir məqamdır. Bu məqam Allah tərəfindən ləyaqəti olan insanlara əta edilir. Bə`zi Peyğəmbərlər bu məqamı daşımışlar. Bu

---

Yə`ni, təqvalı. Allahın buyurduğu halal və haramları yerinə yetirən şəxs.[1]

barədə Qur`an buyurur: **«Və (oğlu) Ishaqı və (nəvəsi) Yə`qubu əlavə bəxşiş kimi ona əta etdik və hamısını saleh və (peyğəmbərlik məqamına) layiq etdik. Onları (yaşadıqları cəmiyyəti) Bizim əmrimizlə doğru yola yönəldən İmamlar qərar verdik və onlara xeyir işlər görməyi, namaz qılmağı və zəkat verməyi vəhy etdik. Onlar yalnız Bizə ibadət edirdilər.»**[1]

Yaxud: **«Ibrahimi öz Rəbbi bir neçə sözlə (bə`zi əmrləri ilə) imtahana çəkdiyi zaman o, Allahın əmrlərini tamamilə yerinə yetirdi. Belə olduqda, Allah ona - səni insanlara İmam (dini rəhbər, başçı) tə`yin edəcəyəm - dedi. Ibrahim isə - nəslimdən necə? - deyə soruşdu. Allah (onun cavabında) buyurdu: - Zalımlar mənim İmamlıq rütbəmə nail ola bilməzlər.»**[2]

Yə`ni, Ibrahim (ələyhissəlam) nübuvət və rəsulluq (peyğəmbərlik) məqamına çatdıqdan və Allahın imtahanlarından başı uca çıxdıqdan sonra "İmamət" məqamına nail olur və camaatın zahiri, batini, maddi və mə`nəvi rəhbərliyini öhdəsinə götürür.

5) **Məad -** yə`ni dirilib əbədi yaşamağa inanmaq.

Adəmdən Peyğəmbərdən (ələyhissəlam) ta Qiyamət gününə kimi gəlib-getmiş bütün insanlar bir daha dirilib, dünyada etdiyi əməllər üçün Allah qarşısında cavab verəcəkdir.

Məad - lüğətdə, "qayıdış" mə`nasındadır. Yə`ni, insanlar öldükdən sonra bir daha dirilib Axirət aləminə

---

[1] "Əl-Ənbiya" surəsi, ayə 72-73.
"Əl-Bəqərə" surəsi, ayə 124. [2]

qayıdacaqlar. Bu əqidə dinin zəruri məsələlərindən biridir və hər bir şəxsin buna e`tiqadı və inamlı olması gərəkdir. Hər bir şəxs inanmalıdır ki, insan öləndən sonra bir daha dirilib, dünyada etdiyi əməlləri müqabilində hesab verəcək və nəhayət Cənnət və ya Cəhənnəmə gedəcəkdir. Həmçinin qəbirdə olan sorğu-sual və Bərzəx aləminin məsələləri də bu mövzuya aiddir.

Amma çox təəssüflər olsun ki, bu mühüm məsələyə bə`ziləri soyuq münasibət göstərirlər.

Qur`an buyurur: **«Nə üçün Allaha kafir olursunuz (inanmırsınız), halbuki siz ölü idiniz. O, sizi diriltdi, sonra öldürəcək və yenidən sizi dirildəcək. Daha sonra isə Ona tərəf qaytarılacaqsınız.»**[1]

Əgər insan keçmişinə bir nəzər salsa, görər ki, bir gün yox idi və birdən insan şəklində bu dünyada yaşamağa başladı. Bu, Allahdır ki, biz insanları xəql etmiş və bizə can vermişdir. Hər bir meyvə ağacdan dərilən kimi, hər bir insan da bir gün bu dünyadan dərilərək, gedəcəkdir.

Özümüzü tanımaq yolu ilə Allahı da dərk etdikdən sonra görürük ki, Allah bizə ölülərin yenidən dirildilməsi haqqında ayələr buyurur. Bəs Allah bizləri necə dirildəcəkdir? Biz axı torpaq olacağıq?! Onu yaddan çıxartmayaq ki, biz insan kimi xəlq edilməmişdən qabaq da torpaq idik və Allah bizi xam

---

"Əl-Bəqərə" surəsi, ayə 28. [1]

torpaqdan xəql etmişdi. Bəs indi yenidən bunu edə bilməzmi?!

Rəvayətdə deyilir: Dirilməyə inanmayan bir şəxs qəbiristanlıqdan götürdüyü çürümüş sümüyü gətirib Peyğəmbərimizin (salləllahu ələyhi və əlihi və səlləm) qarşısında ovxaladı və istehza edərək dedi: “Bu çürümüş sümükləri kim dirildəcək?”

Bu zaman Allah-təala Yasin surəsinin 78 və 79-cu ayəsini nazil etdi: «**Və öz yaradılışını unutduğu halda Bizə bir məsəl də çəkib dedi: (Bu) sümükləri çürümüş və toz-torpaq olduqları halda kim dirildəcək?! De: Onları ilk dəfə yoxdan yaradan dirildəcəkdir. O hər (növ) xilqəti, hər bir yaradılışı biləndir.**»

Bir neçə misala nəzər salaq:

1-Nehrəyə bir qədər qatıq və su töküb çalxalayın. Yağ dənəciklərinin bir yerə yığışdığını görəcəksiniz. Allah da yeri hərəkətə gətirməklə əzaları bir yerə toplayacaqdır.

2-Insanın yarandığı nütfə[1] müxtəlif qidalardan zərrə-zərrə toplanır. Torpaqdakı maddələr buğdanın meyvənin canına sovrulur, sonra insan orqanizminə keçib nütfəni formalaşdırır. Deməak, insan torpaq zərrələrindən vücuda gəlir.

3-Məgər mal-qaranın əti və südü yediyi otlardan yaranmırmı?! Otdan süd çıxaran Allah ölünü torpaqdan çıxara bilməzmi?

---

Yə`ni, sperma.[1]

Insan gərək Xaliqi ilə məadına aid vəzifələrini tanısın. Yə`ni bilsin ki, Allah onu yaradandan sonra ondan nə istəyir, vəzifələri nədir?! Yoxsa - **Allah məni sadəcə xəlq etdi, sonra da öz başına buraxdı** - deyə səhv və batil fikirlərə dalmasın!

## Nə üçün ölümdən qorxuruq?

Sürücü sükan arxasında o zaman qorxur ki, ya yanacaq tükənir, ya qaçaqmal aparır, ya sür`ət çoxdur, ya yol təhlükəlidir, ya yoldaşları pis adamdır və s…

Ölümdən sonranı düşünüb, hazırlıq görən, günahdan çəkinən, mö`minlərlə dostluq edən, bir sözlə Allahın razılığı üçün çalışan insan ölümdən heç vaxt qorxmur və çəkinmir. O, bu dünyanın imtahan olduğunu bilir və buna görə də həmişə çalışır ki, bütün əməlləri Allaha xatir olsun.

Qur`anda təqribən iki mindən çox ayə "**məad**" barəsindədir və bu da Qur`anın üçdə iki hissəsini təşkil edir. Bəlkə də bu ona görədir ki, əgər insanlar **öləndən sonra dirilib əbədi yaşayacaqlarına inansalar,** onda heç kim günah etməyə can atmaz və hamı səadət içində ömür sürər.

**«Sura[1] (ikinci dəfə) üfürülər, onda onların hamısı dərhal qəbirlərindən öz Rəbbinə doğru tələsərlər. Deyərlər: - Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? (Bəli,) bu Rəhman (olan Allahın dünyada) bizə və`d verdiyi həmin (ölümdən sonrakı həyat)dır.**

---

Yə`ni, "şeypur".[1]

**Onun Peyğəmbərləri doğru deyirlərmiş - (Bu zaman) üfürmə və bağırtı (surun üçüncü dəfə çalınması) yalnız bir dəfə olar, onda dərhal hamılıqla (yaradılmış ilk insandan ölmüş axırıncı insanadək) Bizim hüzurumuzda hazır duracaqlar.»**[1]

“Yasin” surəsi, ayə 51-53.[1]

# Səkkizinci fəsil

## FURUUDDIN

Indi isə furuuddinin maddələri ilə qısa tanış olaq:

**1-Namaz:** Gün ərzində müəyyən şərtlər əsasında və müəyyən vaxtlarda 17 rək`ət namaz qılmaq və bu da 5 namazdan ibarətdir:

Sübh namazı 2 rük`ət; Zöhr namazı 4 rük`ət; Əsr namazı 4 rük`ət; Məğrib (Şam) namazı 3 rük`ət; Işa (Xiftən) namazı 4 rük`ət;

Namaz hətta İslamdan öncəki İlahi dinlərdə ən əhəmiyyətli ibadətlərdən olmuşdur. Namazın uzun tarixi var və bu ibadət bütün Peyğəmbərlərin tapşırığıdır.

Qur`an Həzrət Ibrahimin (əleyhissəlam) dilindən belə buyurur: **«Pərvərdigara! Məni və mənim nəslimdən olanları namaz qılanlardan buyur.»**[1]

Həmçinin Həzrət Musa, Şüeyb, Zəkəriyya, Loğmandan (əleyhimussəlam) danışılarkən namaz mövzusu yada salınır.

Yaxud: **«Ey Məryəm, öz Rəbbinə təvazökarlıq et (namaz qıl və bütün əməlləri yalnız Ona görə yerinə yetir), səcdə et və ruku edənlərlə birgə ruku et (namaz qılanlarla birgə namaz qıl)!»**[2]

Və ya Həzrət Loğman oğlunu namaza də`vət edir və digər zəruri işlərin icrasını ona tövsiyə edir: **«Ey**

---

"Ibrahim" surəsi, ayə 40. [1]

[2] "Ali-Imran" surəsi, ayə 43.

**mənim əziz oğlum, namaz qıl və yaxşı işləri (əql və şəriət nöqteyi-nəzərindən bəyənilən işləri görməyi) əmr et və pis işlərdən (hər hansı pis və bəyənilməz işi) qadağan et. (Insanlar və Xaliq qarşısında olan vəzifələrinə əməl edərkən baş verəcək çətin hadisələrdən) sənə yetişənə döz ki, bunlar vacib əmrlərdən və mühüm işlərdəndir.»**[1]

Bir çox ayə və rəvayətlərdə namaz imanlı insanların önəmli sifətlərindən sayılır. Əgər namaz nəzərdə tutulan şərtlər ödənməklə qılınarsa, insan mə`nəvi bir aləmə yüksələr, onun Allahla iman bağlılığı güclənər, ruhundakı və qəlbindəki günah çirkabları təmizlənir.

Namaz qət`i və ümumi göstərişdir. Namazın qılınmaması üçün yaxşı əməllər şərt sayılsaydı, çoxları min bir bəhanə ilə bu İlahi, tərbiyəvi göstərişdən boyun qaçırardılar.

Bundan əlavə, Allahın zikrindən ibarət olan bu ibadət heç nə ilə əvəz olunmur. Təcrübədən görünür ki, namaz qılmayan insanlar ən azı təmizlik məsələlərinə əməl etmirlər. Insan günahdan çəkinməklə kamala çata bilmir. Insanı kamala çatdıran – yalnız Allaha ibadətdir. Məhz ibadət insana iman tərbiyəsi verir, onun ruhunu kamala çatdırır. Bütün hallarda bu dini vəzifəni yerinə yetirmək hər bir insana vacibdir.

Namaz günahlar qarşısında bir səddir, eyni zamanda onların yuyulmasında tə`sirli bir vasitədir.

---

“Loğman” surəsi, ayə 17. [1]

Çünki o insanın iman ruhunu gücləndirir, qəlbdəki Allah qorxusuna qüvvət verir. Insan qəlbindəki qəflət pərdələrinin çəkilməsində, yaranış məqsədinin aydınlaşmasında namazın mühüm tə`siri var. Bu ibadət günün müxtəlif vaxtlarında insana xatırladır ki, **oyan, maddi ləzzətlərə uyma!**

Bəli, namaz insandakı əxlaqi fəzilətləri yetkinləşdirir, mə`nəvi təkamülə səbəb olur. Insan namaz vasitəsi ilə bu maddi həyatın dörd divarında baş qaldırıb mələklərlə səs-səsə verir.

Əziz Peyğəmbərdən (salləllahu ələyhi və əlihi və səlləm) belə nəql olunur ki, Həzrət onun görüşünə gəlmiş bir qrup şəxsə belə buyurdu: "Əgər qapınızın ağzından bir çay axsa və siz bu çayda gündə beş dəfə yuyunsanız, bədəninizdə bulaşıqlıq qalarmı? Məclisdəkilər dedilər: Xeyr. Həzrət buyurdu: Namaz da həmin çay kimidir. Hər namaz qılanda iki namaz arasında baş vermiş günahlar yuyulur.[1]

Insanın bütün bu deyilənləri nəzərə alıb namaza diqqətli olması lazımdır. Namazı ilk vaxtında qılmaq, namazda diqqətli və müt`i olmaq lazımdır. Insan namaz vaxtı kiminlə danışdığını dərk etməli, özünü Allahın əzəməti qarşısında "**heç**" saymalıdır. Namaz gedişində insan özünü nümayiş etməkdən çəkinməlidir. Çünki Allah üçün qılınmayan namazın mükafatı yoxdur və belə bir namaz insanı Cəhənnəmə aparır.

---

"Biharul-ənvar", c. 14, səh. 77.[1]

Cəmiyyət içində uzanan namaz
Cəhənnəmə açar olası hökmən.
Namazda kənarda qalmasın gözün,
Yoxsa səccadəni odda görərsən.

Qur`ani-Kərim "Əl-Maun" surəsində namazı lazımınca dəyərləndirməyənləri məzəmmət edərək belə buyurur: **«Vay halına o namaz qılanların ki, Onlar öz namazlarından qafildirlər və ona e`tinasızdırlar. Onlar riyakarlıq edər.»**[1]

Yuxarıda deyilənlərdən aydın olur ki, namaz qılmayan, bu vacib əmələ diqqətsizlik göstərənlərin aqibəti çox pisdir.

## Namazın sözləri və tərcüməsi

Namazda "niyyət"in Allaha xatir olması, Qur`ani-Kə`rimin "Fatihə" surəsini və istənilən başqa bir surəni, həmçinin "təşəhhüd" və "salam"ı oxumaq vacibdir.

**Niyyət:** Məsələn: Sübh namazı qılıram qurbətən iləllah. [2] **Əllahu Əkbər** (Allah bizim vəsf edib düşündüyümüzdən çox-çox böyükdür).

"**Fatihə**" surəsi:

1-**Bismilləəhir Rahməənir Rahiim** [1] *(Bağışlayan və Mehriban Allahın adı ilə).*

---

Ayə 4-6.[1]

Yə`ni, Allahın əmrini yerinə yetirmək üçün.[2]

2-**Əlhəmdulilləəhi Rabbil ə`ləmiin** *(Aləmlərin Pərvərdigarı olan Allaha şükürlər olsun).*

Allahın fəzlini kim saya bilər?
Mindən birin şükrün kim deyə bilər?

Dənizi, torpağı, ağacı, səni,
Yaradan yaratdı gündüz, gecəni.

Bu saysız ne`mətin şükrü çox çətin,
Adını çəkməyə çatmaz qüdrətin.

O lətif Yaradan yer xalısına,
Minlərlə xal vurmuş, baxım hansına?

Ulduzlar səmada doğdu ki, insan,
Bir ibrət götürsün bu sirr dünyadan.

3-**Ər Rahməənir Rahiim** *(Bağışlayan və Mehriban olana).*
4-**Məəliki yəvmiddiin** *(Qiyamət gününün Sahibinə).*
5-**Iyyəəkə nə`budu və iyyəəkə nəstəiin** *(Yalnız Sənə ibadət edir və yalnız Səndən kömək istəyirik).*
6-**Ihdinəs siraatal mustəqiim** *(Bizi doğru yola hidayət et).*

---

[1] "Fatihə" və "Ixlas" surələri namazda oxunduğu üçün onların ərəbcə düzgün tələffüzünü qeyd edirik. Məsələn, "Bismilləh"-kəlməsində "l" hərfindən sonra gələn "ə" hərfi "a" kimi oxunmamalıdır.

7-**Siraatal ləziinə ən əmtə ələyhim ğayril məğzuubi ələyhim vələzzaalliin** *(Sənin qəzəbləndiyin kəslərin və haqq yoldan azmışların yoluna yox).*

“**Ixlas**” surəsi:

1-**Bismilləəhir Rahməənir Rahiim** *(Bağışlayan və Mehriban Allahın adı ilə).*

2-**Qul huvəllaahu əhəd**[1] *(De: O Allah Yeganədir).*

3-**Əllaahus saməd** *(Allah hər şeydən ehtiyacsızdır və və ya məqsədim yalnız Allahdır).*

4-**Ləm yəlid və ləm yuuləd** *(Ondan kimsə dünyaya gəlməmiş və Onu bir kəs dünyaya gətirməmişdir).*

5-**Və ləm yəkul ləhuu kufuvən əhəd** *(Ona oxşar, tay, bərabər və s. bir şey, ya bir kəs yoxdur).*

“**Təşəhhüd**” :

1-**Əşhədu əl ləə iləəhə illəllaahu vəhdəhuu ləə şəriikə ləh** *(Şəhadət verirəm ki, Allahdan başqa mə`bud və heç bir şəriki, bənzəri yoxdur).*

2-**Və əşhədu ənnə Muhəmmədən əbduhuu və rasuuluh** *(Şəhadət verirəm ki, Məhəmməd Onun bəndəsi və elçisidir).*

3-**Əllaahummə salli ələə Muhəmmədiv və əəli Muhəmməd** *(İlahi! Məhəmməd və onun ailəsinə Öz rəhmətini göndər).*

“**Salam**” :

---

[1]“Əhəd”in mə`nası yeganə, “vahid”in mə`nası isə bir deməkdir və vahid müəyyən baxımdan “iki” ola bilər, lakin əhəd isə yox. Allah-təalanın yeganəliyi bizim mürəkkəb birliyimiz kimi deyil. Onu nə zehnlə, nə təsəvvürlə, nə də xəyalla tərkibləndirmək olmaz və bu qeyri-mümkündür.

1-**Əssələəmu ələykə əyyuhənnəbiyyu və rahmətullaahi və bərakəətuh** *(Salam olsun Sənə, ey haqq olan Peyğəmbər, Allahın rəhmət və bərəkəti Sənə olsun).*
2-**Əssələəmu ələynəə və ələə ibəədil-ləəhis-saalihiin.** *(Bizə və Allahın layiqli bəndələrinə salam olsun).*
3-**Əssələəmu ələykum və rahmətullaahi və bərakəətuh** *(Salam olsun sizə, Allahın rəhmət və bərəkəti sizə olsun).*
"**Təsbihati ərbəə**" :[1]
**Subhəənəllaahi vəlhəmdulilləəhi və ləə iləəhə illəllaahu vəllaahu əkbər** *(Allah hər bir eyb və nöqsandan uzaqdır. Və şükürlər olsun Allaha. Allahdan başqa mə`bud (ibadətə layiq olunası bir varlıq) yoxdur. Və Allah bizim vəsf edib düşündüyümüzdən çox-çox böyükdür).*

## Yeddi bəhanə

Yeri gəlmişkən namaza əhəmiyyət verməyən şəxslərin bəhanələrini qeyd edib onları cavablandırmaq istərdik:

***Bəhanə 1:*** Mən Allaha inanıram və məncə bu kifayətdir. Namaz qılmağa isə ehtiyac görmürəm.

---

[1] Yə`ni, dörd zikr. Namazın 3 və 4-cü rük`ətində "təsbihati ərbəə"nin əvəzinə "Fatihə"surəsini oxumaq olar.

***Cavab:*** Çox gözəl, amma iş burasındadır ki, sənin inandığın O Uca Allah namaz qılmağı sənə vacib bilir: **«Həqiqətən Mənəm O Allah ki, Məndən başqa heç bir mə`bud yoxdur. Elə isə Mənə ibadət və namaz qılmaqla Məni yad et.»**[1]

***Bəhanə 2:*** Mən hesab edirəm ki, ən başlıcası insanın qəlbinin təmiz olmasıdır. Namaz qılmasan da olar. ***Cavab:*** Müqəddəs və mübarək dinimiz də qəlbin təmizliyini əsas amillərdən sayır. Amma məhz elə namaz həmin bu qəlb təmizliyinə nail olmağın zəruri elementlərindəndir. Maraqlıdır, Allahın sözünə qulaq asmayanın ürəyi necə təmiz ola bilər? Sənin qəlbin namaz qılmaqdan mübarək ayaqları şişən Məhəmməd Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) qəlbindən təmizdirmi?!

***Bəhanə 3:*** Namaz mənim vaxtımı alır. Işlərim o qədər çoxdur ki, çatdıra bilmirəm. ***Cavab:*** Bəs onda dünyada müxtəlif peşələrdə (fəhlə, mühəndis, həkim, müəllim, tacir və s.) çalışan insanlar namaz qılmağa necə vaxt tapır? Sözsüz ki, milyonlarla müsəlmanın namaz qılıb bu ibadətə vaxt ayırması dediyinizin əksini sübut edir. Bir də ki, gündəlik vacib olan beş namazın ümumi vaxtı təxminən 30 dəqiqə çəkir. Həmin vaxtı Allaha ayırmaq məntiqə uyğun deyilmi?

***Bəhanə 4:*** O qədər namaz qılıb, oruc tutan tanıyıram ki, özlərini layiqli aparmırlar. ***Cavab:*** Bəs

---

"Taha" surəsi, ayə 14.[1]

elə isə, siz o kəslərdən olun ki, namaz qılıb, oruc tutur və bununla yanaşı öz ləyaqətlərini də qoruyurlar.

***Bəhanə 5:*** Mən niyyət etdim ki, filan arzum yerinə yetsə, namaz qılaram. Lakin arzum yerinə yetmədi...***Cavab:*** Biz öz Yaradanımıza şərtmi qoyuruq? Özü də ki, biz haradan bilə bilərik ki, xeyirimiz haradadır, ziyanımız harada? Məsələn, ola bilər ki, avtomobil barədə olan yerinə yetməmiş arzumuz bizi ağır bir qəzaya (ölümə) gətirəcəkdi... Qur`an buyurur: **«...Bəyənmədiyiniz bir çox şeylər var ki, sizin üçün xeyirli və bəyəndiyiniz bir çox şeylər var ki, sizin üçün zərərlidir. Allah bunları bilir, siz isə bilmirsiniz.** [1]»

***Bəhanə 6:*** Mən qorxuram ki, namazı vaxtında qılmayım. Bu ibadəti yerinə yetirmək mənim üçün çətin olar. ***Cavab:*** Qətiyyən qorxmayın! Sizdən qat-qat zəif, şikəst, xəstə olan insanlar belə namazı vaxtında qılır və bundan yalnız fayda aparır.

***Bəhanə 7:*** Mən hələ cavanam, 40 yaşına çatanda namaza başlayaram. ***Cavab:***Allahdan çox bilirsənmi? Gələcəkdən xəbər vermək yalnız Allaha məxsusdur. Sən 40 yaşına kimi yaşayacağına əminsənmi? Yaxud beş dəqiqədən sonra başına nə iş gələcəyini bilirsənmi?

Şair demişkən:

---

[1] "Əl-Bəqərə" surəsi, ayə 216.

Çəkmə dünyanın nazını,
Sən qıl beş vaxt namazını,
“**Sabah qılaram**” deyənin,
Bu gün qıldıq namazını![1]

## Bəhanə, yoxsa araşdırma?

Deyilənlərdən mə’lum olur ki, bə’zilərində təslimçilik və bəndəlik ruhiyyəsi olmadığından dindarlıq və vəzifədən boyun qaçırmaq üçün bəhanə axtarırlar. Buna görə də araşdırma aparır, hər dini göstərişin fəlsəfəsini axtarır və özlərini ziyalı göstərirlər.

Qur’ani-Kərim belə şəxslərin Qiyamətə e’tiqadları barəsində buyurur: **«Lakin insan bundan sonra da günah etmək, pis işlər görmək istəyər və “Qiyamət günü nə vaxt olacaqdır?” - deyə soruşar.»**[2]

Onlar bəhanəçil uşaqlar kimidir. Bəhanələr kəsildikdə, başqa bir bəhanə axtarırlar. Bu kimi şəxslər başçı, mexanik, həkim, xarici dəblər, nəfsani vəsvəsələr və şeytani meyllər qarşısında təslimdirlər. Lakin dini göstərişlərə gəldikdə isə tədqiqatçı və müstəqil fikirli olurlar. Onlar böyük şəxsiyyətlərlə yaxın olmaq və birlikdə şəkil çəkdirməkdən fərəh hissi duyurlar. Baxmayaraq ki, onların bu işdə heç bir

---

[1] Məqsəd – meyyitə qılınan namazdır.
[2] “Əl-Qiyamət” surəsi, ayə 5-6.

mənfəəti yoxdur. Təkcə bu yaxınlıq onlar üçün sevimlidir.

Sual: Insanlar üçün bu dünyada belə işlər qiymətlidirsə, onda Allaha bəndəlik və Ona ibadət etmək, həmçinin Onun hüzurunda olmaq iftixar sayılmazmı?

## Bir söhbət

Bir gün bir şəxs soruşdu: “Nə üçün sübh namazı iki rük`ətdir?”

Dedim: “Bilmirəm. Allahın göstərişidir, yerinə yetirilməlidir.”

O, mənim bu sualı bilmədiyimi anlayan kimi ziyalı qiyafəsi aldı və təkəbbürlə dedi: “Dünya elm dünyasıdır, elmsiz din qə`bul deyil...”

Soruşdum: “Nə üçün nar ağacının yarpağı kiçik, üzüm yarpağı isə böyükdür?”

Dedi: “Bilmirəm.”

Təkəbbürü azaldı. Ona dedim: “Qardaş, dünyanın elm dünyası olmasını qə`bul edirik. Lakin bu o demək deyil ki, varlığın bütün sirlərini bu gün öyrənməliyik. Şübhəsiz, narın nazik, üzümün enli yarpaqları, onların meyvələrinin dadı arasında təbiətşünaslar tərəfindən nə vaxtsa kəşf olunacaq bir rabitəsi vardır. Demək, sirlərin varlığını qə`bul edirik. Lakin onların hamısını bilmək iddiasında olan şəxsi qə`bul etmirik. Əgər hər bir əməldən öncə onun fəlsəfəsini öyrənsək, allahpərəstlik və təslimçilik necə olsun? Vəhy elmdən

daha üstün və daha sirlidir. Nə üçün ziyalılar hər bir qanun və proqramı qə`bul edir, lakin din və Allah qanunlarına gəldikdə çətinliyə düşür və məntiq əhli olurlar?!"

Sonra o, başını aşağı saldı və heç bir söz demədən uzaqlaşdı."[1]

Allah-təala bizi sevir və Onun bizim namazlara heç bir ehtiyacı yoxdur. Əsl məqsəd budur ki, insan namaz qılmaqla kamilliyə, mə`nəviyyata ucalıb dünya və axirət səadətinə yetişsin.

Namazın əhəmiyyətli olduğunu yada salaraq Qur`ani-Kərimin "Muddəssir" surəcinin 40-47-ci ayələrini zikr edirik: **«Cənnətdəkilər (Cəhənnəmdə olan) günahkarlardan soruşacaq: Sizi "Səqər"ə (Cəhənnəmə) salan nədir? Cavab verəcəklər: Biz namaz qılanlardan deyildik, yoxsullara təam verməzdik, batilə uyanlarla əlbir idik, dirilənə kimi Qiyamət gününü (dirilməyi) də yalan sayardıq.»**

**Beş namaz :** Gündə - 30 dəq. Həftədə - 3 saat yarım. Ayda - 12 saat. Ildə isə - 6 gündən ibarətdir.

Aclıqdan ağzını açmışsa əgər,
Namaz qılmayana borc vermək hədər.
Allahın borcunu qaytarmayan kəs,
Borcunu qaytarmaz, gözləmə əbəs.

Namaz barəsində daha da ətraflı mə`lumat almaq üçün "**Namazın hikmət və sirləri**" adlı kitabına müraciət edə bilərsiniz.[2]

[1] "Əsrare nəmaz", Möhsin Qiraəti, səh. 32.
Ayətullah Əhməd Ehtİmam, mütərcim: Rövşən Əhmədzadə. [2]

**2-Oruc:** Hər il mübarək Ramazan ayının əvvəlindən sonuna qədər, sübh azanından məğrib azanınadək orucu batil edən şeylərdən pəhriz etmək vacibdir.

Orucun vacib olması haqqında Allah-təala buyurur: **«Ey iman gətirənlər! Təqvalı olasınız (Allaha yaxın, Onun razılığını qazanasınız) deyə, oruc tutmaq sizdən əvvəlki ümmətlərə vacib olduğu kimi, sizə də vacib edildi.»**[1]

Ümumiyyətlə, bütün ibadətlərin məğzi, mahiyyəti təqvadır. Əgər Allah bizdən ibadət tələb edirsə, bundan məqsəd təqvadır. Yə`ni, əsl məqsəd insanların Allaha sığınması, haramlardan çəkinməsi və Allahın əmrlərinə itaət etməsidir.

Qur`an, Tövrat və Incildəki buyuruqlardan belə anlaşılır ki, İslamdan öncəki dinlərdə də oruc olmuşdur.

## Orucu batil edən şeylər

On şey orucu batil edir:

Yemək; Içmək; Cima; Istimna (yə`ni, spermanın xaric olmasına səbəb olan müəyyən bir iş görmək); Allah, Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) və onun canişinlərinin[2] (ələyhimussalam) adından yalan demək; Qəliz tozu boğaza çatdırmaq; Başın hər yerini

“Əl-Bəqərə” surəsi, ayə 183.[1]

[2] Yə`ni, İmamlar (ələyhimussalam).

suya batırmaq;[1] Sübh azanına qədər cənabət, heyz və nifas halında qalmaq; Axıcı (maye) şeylərlə imalə etmək; Qusmaq.

## Orucu vacib olmayan şəxslər

**1-**Əgər bir şəxs qocalıq səbəbi ilə oruc tuta bilməsə, yaxud ona əziyyət olsa, oruc ona vacib deyil. Amma əziyyət olsa, hər gün üçün bir müdd[2] təam (buğda, arpa və s.) fəqirə verməlidir.

**2-**Əgər bir insan çox susuz olan və ya susuzluğa dözə bilməyən və ya susuzluğun məşəqqəti (çətinliyi, əziyyəti) olan bir xəstəliyə tutularsa, oruc ona vacib deyil. Amma ikinci halda (məşəqqətli olan halda) hər gün üçün bir müdd təam fəqirə verməlidir. Gərəkdir ki, naçar olduğu miqdardan artıq su içməsin. Əgər sonradan oruc tuta bilərsə, tutmadıqlarının qəzasını tutmalıdır.

**3-**Doğum vaxtı yaxınlaşan və oruc tutmağın bətnindəki uşağa zərəri olan qadına oruc vacib deyil. Həmçinin, əgər orucun onun özü üçün də zərəri olsa, oruc ona vacib deyil. Bu halda hər gün üçün bir müdd təam fəqirə verməlidir. Hər iki halda isə tutmadığı günlərin qəzasını etməlidir və s...

(Oruc barəsində olan hökmlər risalələrdə geniş surətdə bəyan edilmişdir).

---

Çimmək bura daxil deyil.[1]
Yə`ni, 750 qram.[2]

## Pak niyyət və vicdanın tərbiyəsi

Oruc tutan şəxs təkcə yemək-içməkdən yox, orucu batil edən bütün işlərdən çəkinir. Əgər bir şəxs İlahi niyyətsiz oruc tutarsa, bu yalnız özünü nümayiş olar. Oruc tutarkən namaz və həccdə olduğu kimi, hansısa əməlləri yerinə yetirmək lazım gəlmir. Oruc tutan şəxs yemək və içməkdən, bu kimi bə`zi işlərdən çəkinməlidir. Bu səbəbdən də oruc insanların diqqətini az cəlb edir. Təbiidir ki, bu ibadətdə riya üçün bir o qədər də meydan yoxdur. Oruc tutanların əksəri Allahın razılığı üçün bu ibadəti yerinə yetirir. Olsun ki, elə bu səbəbdən Allah-təala oruc tutanların mükafatını Öz öhdəsinə götürür.

Orucun tərbiyəvi xüsusiyyətlərindən biri vicdanın tərbiyəsidir. Oruc - həmçinin o, ibadətlərdəndir ki, səmimi, pak niyyətlə və dini vicdanın dalınca getməklə həyata keçir. Onda riyakarlıq, batil düşmənçiliklər azlıq təşkil edir. Oruc - səbir, haramlardan özünü saxlama və pəhrizkarlıqdır. Kim ki, pak niyyət, Allahın əmrlərinə itaətə sevgi göstərməsə və vicdanın çağırışına cavab verməsə, özünü günahlardan çəkindirməmişdir və pərhizkar deyildir. Buna görə xəlvətdə yemək və içməkdən pəhriz etməyəcəkdir. Bəlkə də, insanların arasında yeməkdən çəkinər, amma gizlində orucunu yeyəcəkdir.

Şübhəsiz, kimsə insanların arasında aşkar və ya gizli pəhrizkarlıq edər, oruc tutarsa, təmiz və səmimi niyyətlidir və onun itaəti həqiqidir.

Niyyətdir yaşadan ibadətləri,
Incisiz sədəfin nədir dəyəri?

## Orucun faydaları və tə`sirləri

Əgər bu dini göstəriş oruc, bütün qaydaları və şərtləri ödənməklə yerinə yetirilərsə, böyük maddi və mə`nəvi tə`sirlərə malik olar. Onun bə`zi təsirlərini yada salmaq istərdik:

***Tərbiyəvi tə`sir***

1-Oruc insanın ruhuna sığal çəkir, onun cismini və canını paklayır. Oruc tutan insan ac və susuz halda ətrafdakı qidalara göz yumur. O əməli şəkildə sübut edir ki, yalnız yemək barədə düşünən heyvan deyil. Bəli, o öz nəfs istəklərinə qalib gəldiyini əməldə sübuta yetirir. Bəli, oruc insanı heyvanlıq məqamından mələk məqamına yüksəldir və insanda təqva ruhiyyəsi yaratdığını bildirir.

Az yeyən mələyə oxşadır özün,
Heyvan tək yeyənin heç görmə üzün.
Hər işdə Allaha müt`i olan kəs,
Nəfsinə yox deyib oldu müqəddəs.

2-Oruc insanın iradəsini gücləndirir. Ixtiyarında müxtəlif xörəklər və içkilər olan insan Allahın razılığı üçün onlara göz yumur. Bəli, yemək və içməkdən çəkinməsi onu gücləndirir. Çay kənarında bitmiş ağac gecə-gündüz çayın suyundan bəhrələnsə də kövrək olur, bir gün su görməsə, yarpaqları təravətini itirir. Amma susuz səhralarda bitən ağaclar güclü küləklərə, günəşin istisinə, qışın soyuğuna müqavimət göstərib, möhkəm və davamlı olur. Oruc da belədir. Insan özünə müvəqqəti məhdudiyyətlər qoymaqla iradəsini gücləndirir.

Az yeməyə vərdiş verərsə insan,
Çətin döngələri adlayar asan.
Kim nəfs istəyəni verərsə ona,
Çıxıntı önündə çətin dayana.

***İctimai tə`sir***

Orucun digər bir müsbət tə`siri cəmiyyətdə bərabərlik yaratmasıdır. Oruc göstərişini yerinə yetirənlər maddi durumundan və ictimai məqamından asılı olmayaraq eyni çətinlikləri yaşayır.

Hişam ibn Həkəm İmam Sadiqdən (əleyhissəlam) orucun vacib olma səbəbini soruşur. İmam (əleyhissəlam) buyurur: “Allah bu ibadəti vacib etdi ki, yoxsul və varlı eyniləşsin. Oruc tutan varlı, aclığı dadmaqla yoxsulların çətinliyini dərk edir, onlara

yardım əli uzadır. Allah oruc vasitəsi ilə bəndələri arasında bərabərlik yaradır..."[1]

***Orucun sağlamlığa tə`siri***

Orucun insanın sağlamlığına böyük tə`siri var. Həzrət Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) buyurur: "Oruc tutun, sağlam olun." [2] Bu hədisdən uzun əsrlər keçməsinə baxmayaraq həkimlər indi də bir sıra xəstələri oruc tutmaqla müalicə edirlər.

Bir çox xəstəliklərin səbəbi çox və cürbəcür yeməkdir. Normadan artıq qida bədənə sovrulmur, artıq piylər şəklində orqanizmin müxtəlif nöqtələrində toplanır. Beləliklə, insanda piylənmə gedir, qanda şəkərin miqdarı artır. Artıq qidalanma orqanizmdə müxtəlif mikrobların, xəstəliklərin yaranmasına səbəb olur. Bütün bu hallarla ən yaxşı mübarizə üsulu çox yeməkdən çəkinmək və oruc tutmaqdır. Oruc insan orqanizmindəki artıq maddələri təmizləyir, bədənə təravət verir. Bədəndəki həzm orqanları ömür boyu işləyən ən əhəmiyyətli orqanlardır. Oruc tutan insan bu orqanlara istirahət verir. Əlbəttə ki, oruc tutan şəxs axşam orucunu açarkən, eləcə də o başdan yeyərkən hədd gözləsə, orucdan faydalanır. Əks təqdirdə oruc faydasız ola bilər.

Mə`sumların buyuruqlarını nəzərdən keçirdikdə bu ibadətin insanın fiziki və mə`nəvi sağlamlığında böyük tə`sirə malik olduğu aydınlaşır:

---

"Vəsail", c. 10, səh. 7, hədis 1.[1]
"Ləvame", c. 6, səh. 154.[2]

1. Həzrət Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) nəql edir ki, Allah-təala buyurdu: “Oruc Mənim üçündür və Mən özüm onun mükafatını verərəm.”[1]

2. Həzrət Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) buyurur: “Oruc cəhənnəm odu qarşısında sipərdir.”[2]

3. İmam Sadiq (ələyhissəlam) buyurur: “Oruc tutanın yuxusu ibadət, susması Allaha təsbih, əməlləri və duaları Allah dərgahında qə`buldur.”[3]

4. İmam Sadiq (ələyhissəlam)  başqa bir rəvayətdə buyurur: “Isti və yandırıcı havada oruc tutmaq böyük cihaddır.”[4]

5. Xanım Məryəmin vəfatı barədəki hədisdə deyilir: “Həzrət Isa (ələyhissəlam) anasını dəfn etdikdən sonra onu çağırdı: “Ey ana! Dünyaya qayıtmaq istəyirsənmi?” Xanım Məryəm cavab verdi: “Bəli, iki iş üçün qayıtmaq istəyirəm: çox soyuq gecələrdə Allaha ibadət və çox isti günlərdə oruc tutmaq üçün. Ey oğlum! Yol çox təhlükəli, qorxuludur!”[5]

---

“Vəsail”, c. 10, səh. 397, hədis 7.[1]
Həmin mənbə, səh. 395, hədis 1.[2]
Həmin mənbə, səh. 401, hədis 17.[3]
“Mustədrəkul-vəsail”, c. 7, səh. 504, hədis 1.[4]
Həmin mənbə, səh. 506, hədis 6.[5]

## Mən nə üçün oruc tutmalıyam?

1-**Çünki**, bu – mənim Yaradanımın mənə buyuruğudur. O, məni mənim özümdən yaxşı tanıyır və mənim yalnız xeyrimi istəyir.

2-**Çünki**, bu, məni daha sağlam edir. Oruc mənim orqanizmimin yenilənməsinə səbəb olur və həyat resurslarını səfərbər edir.

3-**Çünki**, oruc mənim orqanizmimi təravətləndirir. Gün ərzində bədənimin həzm prosesindən tam dincəlməsi orqanizmin tam bərpasına xidmət edir.

4-**Çünki**, oruc mənim vücudumu və iradəmi möhkəmləndirir. Mən, heç kəsin görmədiyi və bilmədiyi şəraitdə belə, digər vaxtlarda mənə halal olan ne`mətlərdən könüllü və şüurlu olaraq imtina edirəm.

5-**Çünki**, oruc məni daha mərhəmətli olmağa sövq edir. Mən imkansızların halını duymağa başlayıram. O kəslərin ki, yemək istəyirlər, amma yeməyə imkanları yoxdur.

6-**Çünki**, oruc mənim psixoloji yenilənməyimə xidmət edir. Mənim dayanmağa, düşünməyə, ötüb keçmişləri və gələcəyi yenidən dəyərləndirməyə imkanım olur.

7-**Çünki**, oruc məni başlıca məqsədimə-Allaha və kamil insan olmaq məqamına yaxınlaşdırır.

## Oruc tutmaq barədə yanlış fikirlər

1-**Yanlışlıq**: Çimmək, duş qə`bul etmək olmaz. **Həqiqət**: Olar, sadəcə başı bütünlüklə suyun altına salmaq olmaz.

2-**Yanlışlıq**: Ağız suyunu (tüpürcəyi) udmaq olmaz. **Həqiqət**: Oruc tutan şəxsin ağız suyunu udmasında heç bir məhdudiyyət yoxdur və ağız suyunu uda bilər.

3-**Yanlışlıq**: Ağzı yaxalamaq və dişləri təmizləmək olmaz. **Həqiqət**: Olar, sadəcə diqqət etmək lazımdır ki, su boğazdan aşağı getməsin.

4- **Yanlışlıq**: Orucluq vaxtı toy-bayram keçirtmək olmaz. **Həqiqət**: Mübarək ayda toy etmək olar və bununla bağlı heç bir məhdudiyyət yoxdur. Məhdudiyyət, hər zaman olduğu kimi toy və yaxud məclislərdə haram əməllərin olmamasıdır.

5- **Yanlışlıq**: Namaz qılmayan oruc tuta bilməz. **Həqiqət**: Bunlar - iki müxtəlif vacib əməllərdir, lakin onlardan birinin yerinə yetirilməsi, digərinin yerinə yetirilməsindən asılı deyil və bununla şərtlənmir.

6- **Yanlışlıq**: Səhvən nəsə yeyəndə və ya içəndə oruc pozulur və onu artıq davam etmək gərək deyil. **Həqiqət**: Səhvən nəyisə yemək və içmək orucu pozmur. Amma, oruc tutduğunuzu xatırladığınız anda dərhal qida və maye qə`bulunu dayandırmaq və qida qalığını ağız boşluğundan xaric etmək lazımdır.

7- **Yanlışlıq**: Oruc tutan iynə və peyvənd vura bilməz. **Həqiqət**: Bilər. Məhdudiyyət, yalnız qidanı əvəz edən iynələrə, məs: qlükozaya aiddir.

**3-Xüms**[1]**:** Bu kəlmə "beşdə bir" mə`nasını verir. Yə`ni, insanın müxtəlif yollarla əldə etdiyi qazancın ilin ehtiyaclarından artıq qalan hissəsinin beşdə birini müəyyənləşmiş ünvanlara ayırması nəzərdə tutulur.

Xüms – İslam dinində mühüm maliyyə vacibatlarından sayılır. Qur`an xümsün əhəmiyyətini bəyan edərkən onu imanla əlaqələndirmişdir: **«Bilin ki, (kafirlərlə döyüşdən və ya hər hansı bir qazanc vasitəsilə ilə) əşya və mallardan əldə etsəniz, qənimətin xümsü (beşdə biri) Allahın, Onun Peyğəmbərinin, Peyğəmbərin qohumunun (İmamların), yetimlərin, yoxsulların və yolda (İslam və müsəlmanlar üçün lazım olan hər bir dini və dünyəvi hədəf yolunda) qalanlarındır. Əgər Allaha və (haqqın batildən) ayrılıq günü - o iki dəstənin (müsəlmanlarla müşriklərin Bədr müharibəsində) toqquşduğu gün Öz bəndəmizə nazil etdiyimizə iman gətirmisinizsə, (xümsü ödəyin). Allah hər şeyə qadirdir.»**[2]

Ayədən göründüyü kimi xümsün vacib olması və onun ümumi istifadə yerləri aydın şəkildə bəyan olunmuşdur.

İslam dinində Həzrət Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) dövründən başlayaraq məhrumlara, ehtiyaclılara, kimsəsizlərə, xəstələrə və əlillərə xüsusi diqqət göstərilmişdir.

---

Əslində "xums"dur.[1]
"Əl-Ənfal" surəsi, ayə 41.[2]

Cəmiyyətdə yoxsulların mövcudluğunun əsas səbəblərindən biri varlıların dini haqları ödəməməsidir. Əgər varlılar Allahın tə`yin etdiyi haqları ödəsələr, əlbətdə ki, cəmiyyətdə yoxsul qalmaz...

Həzrət Əli (ələyhissəlam) buyurur: "Yalnız varlı əlinə yığdığından yoxsul ac qaldı."[1]

İslam dininin əsas məqsədlərindən biri sosial təbəqələr arasındakı ədalətsiz fərqləri aradan qaldırmaqdır. Bu məqsədə çatmaq üçün İslam dininin xüsusi və geniş proqramları var. Bu proqramlara əməl edilərsə, xoşbəxt bir cəmiyyət qurular. Ədalətsizlik, insafsızlıq, bahaçıllıq, əskik satmaq, xalqın malının qəsb edilməsi, oğurluq, israf, saxtakarlıq, qatqıçılıq, fırıldaqçılıq, rüşvətxorluq, sələmçilik kimi işlərdən uzaq olmaq, eyni zamanda xüms və zəkat kimi haqları ödəmək, fitriyyə, kəffarə, nəfəqə kimi haqları sahibinə çatdırmaq İslam dinində nəzərdə tutulmuş proqramların tərkib hissəsidir. Cəmiyyətdə yoxsulluğun aradan qaldırılmasında sədəqələrin, qərzül-həsənə (xeyir gözləmədən verilən gözəl borc) banklarının, ümumi vəqflərin böyük əhəmiyyəti var.

İslam proqramlarında cəhd göstərilir ki, insanlarda iman, qardaşlıq, insaniyyət, ədalətpərvərlik ruhu tərbiyə olunsun. Müsəlman qonşusu ac ikən özü tox yatmaqdan utanmalıdır.

---

"Nəhcul-bəlağə", hikmətlər bölməsi, hikmət 328. [1]

Fəzldən, ehsandan uzaq olan kəs,
Kor kimi yoxsula göstərməz həvəs.
Dünyanı qazanmaq sayılmaz hünər,
Çalış ki, qəlblərə çalasan zəfər.

## Xümsün xərclənməsi

Xüms iki bərabər hissəyə bölünür:
a) **İmamın səhmi** (payı): Hazırkı dövrdə vacib ehtiyata əsasən həmin səhm zəruri şərtlərə malik müctəhidə[1] təqdim olunmalı, ya da onun icazəsi ilə İslamın güclənməsi yolunda sərf edilməlidir.
b) **Seyidlərin səhmi**: Bu hissə yoxsul, yolda qalmış seyyidlərə xərclənir. Bu hissənin xərclənməsi üçün yaxşı olar ki, müctəhiddən icazə alınsın.

## Nələrə xüms düşür?

Yeddi şey üçün xüms vermək vacibdir. Yə`ni qeyd edilənlərin beşdə biri xüms kimi ödənməlidir.
1. **Ticarət və iş gəliri:** Insan əkinçilik, sənətkarlıq, ticarət və digər iqtisadi yollarla sərvət əldə edərsə və bu sərvət ilin ehtiyaclarından artıq qalarsa, onun beşdə biri xüms ödənir;
2. **Mə`dən:** Mə`dən xalqın malı sayılır. Vacib ehtiyata əsasən İmamın (ələyhissəlam) qeybi dövründə mə`dən

Yə`ni, Islam elmləri üzrə ən üstün dərəcəli alim, şər`i hakim.[1]

hasilatı üçün şər`i hakimdən icazə alınmalıdır. Mə`dəndən qızıl, gümüş və sairə qiymətli ehtiyatlar çıxaran şəxs öz xərclərini çıxıb (15 misqal qızıl) xüms ödəməlidir;

3. **Xəzinə:** Xəzinə dedikdə yerdə, ağacda, dağda və ya divarda gizlədilmiş şey nəzərdə tutulur. Xəzinənin sahibi tanınmır. Onun tapılması xərcləri çıxıldıqdan sonra xümsü ödənməlidir;

4. **Üzgüçülüklə dənizdən çıxarılan cəvahir:** Cəvahir də xalqın malı sayılır. Onu çıxarmaq üçün vacib ehtiyata əsasən şər`i hakimdən icazə alınmalıdır. Əgər üzgüçülük yolu ilə dənizdən cəvahir, mərcan və bu kimi şeylər əldə olunarsa, xərclər çıxıldıqdan sonra onun beşdə biri xüms ödənməlidir;

5. **Harama qatışmış halal mal:** Əgər insanın malı harama qatışmışsa və onun miqdarını müəyyənləşdirmək mümkün deyilsə, həmin malın xümsü ödənməlidir;

6. **Savaş qəniməti:** Əgər müsəlmanlar mə`sum İmamın (əleyhissəlam) hüzuru dövründə onun əmri ilə kafirlərlə vuruşub qənimət əldə etsələr, İmamın (əleyhissəlam) məsləhəti ilə bir hissə ayrıldıqdan sonra xərcləri çıxıb qalan hissənin xümsünü verməlidirlər;

7. **Zimmi kafirin müsəlmandan aldığı torpaq;** Əgər bir kafir İslam dövlətinin himayəsində yaşayırsa, ona “zimmi kafir” deyilir. Zimmi kafir müsəlmandan aldığı torpağa görə xüms verməlidir. Həmin şəxs torpaq əvəzinə pul da verə bilər.

## Xümsü tərk etməyin tə`sirləri

Ayə və rəvayətləri və nəzərdən keçirdikdə mə`lum olur ki, xümsdən boyun qaçırmaq həm özü günahdır, həm də başqa günahlara səbəb olur.

**1. Xümsü ödəməyən xəyanət edir:**

Adi danışıqda "xəyanət" dedikdə bir şəxsin ona əmanət tapşırılmış maldan istifadəsi nəzərdə tutulur. Yə`ni həmin şəxs mal sahibindən icazə almadan ondan istifadə edir.

Həzrət Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) savaş qəniməti əldə olunduqda müsəlmanlara xitabən buyurardı: "Qənimətlərə münasibətdə xəyanətlərdən çəkinin! Hesablanmadan və xümsü ödəmədən bir kişi əsir qadınla izdivac edərsə və ya qənimət ata süvar olarsa, qənimətə xəyanət etmişdir."[1]

Həzrətin (səlləllahu ələyhi və alihi və səlləm) buyuruğu aşkar şəkildə göstərir ki, xümsü verilməmiş qənimətdən istifadə xəyanətdir. Deməli, xümsü ödənməmiş mal əmanət hökmündədir və ona toxunan xəyanətkar sayılır.

**2. Xümsü ödəməyən qəsbkardır:**

Bildiyimiz kimi, şər`ən icazə almamış başqalarının malına toxunmaq qəsb[2] sayılır. Digər tərəfdən illik gəlirdən artıq qalan qazancın beşdə biri İmama çatır. Demək, bir şəxs illik qazancından artıq qalan miqdarın beşdə birini İmama təhvil verməsə, onun bu işi qəsb

---

"Bəsairul-dərəcat", c. 5, səh. 29.[1]

Yə`ni, başqasının malından icazəsiz istifadə etmək.[2]

sayılır. İmam Baqir (əleyhissəlam) buyurur: “Bir şəxs xümsü verilməmiş pulla bir şey alarsa, haram bir şey almış sayılır.”[1]

Ishaq ibn Əmmar İmam Baqirin (əleyhissəlam) belə buyurduğunu nəql edir: “Insanın xümsü verilməmiş mal ilə bir şey almağa haqqı yoxdur. O deyə bilməz ki, aldığını öz pulu ilə alıb. Yalnız xüms sahibi icazə versə mümkündür.”[2]

Gördüyünüz kimi, İmam (əleyhissəlam) hər iki rəvayətdə xümsü verilməmiş maldan istifadəni haram sayır. Nəticədə aydınlaşır ki, xümsü verilməmiş mal qəsb olunmuş sayılır.

**3. Xümsü ödəməyən yetimin malını yeyir:**

Yetimin malını yemək ona görə pis sayılır ki, onun özünü müdafiə etmək gücü yoxdur. O özünü güclü bir şəxsin caynağından qurtarmaqda acizdir. İmamlar (əleyhissəlam) hakimiyyətdən uzaqlaşdırıldığı üçün xalqın malındın xüms ayıra bilməmişlər. Bu sahədə onlar bir növ yetim sayılmışlar. Əbu Bəsir İmam Baqirdən (əleyhissəlam) soruşur: “Bəndəni oda salan ən asan iş nədir?” İmam (əleyhissəlam) buyurur: “Yetimin malından bir dirhəm yemək. Bizik həmin yetim deyilən.”[3]

**4. Xümsü ödəməyənin malı puça çıxar:**

Rəvayətlərə əsasən xüms ödəmək nəinki malı əskiltmir, hətta onu artırır. Xüms ödəməmək isə malı

---

“Təhzib”, c. 4, səh. 136.[1]
“Biharul-ənvar”, c. 96, səh. 193.[2]
“Mən lə yəhzuruhul fəqih”, c. 2, səh. 41.[3]

puça çıxardır, var-dövləti azaldır. İmam Sadiq (əleyhissəlam) buyurur: "Hər kəs bir dirhəm xümsü sahibinə verməsə, iki dirhəm artıq xərcləyəcək. Hər kəs malında başqasına məxsus olanı qaytarmasa, Allah Qiyamət günü həmin malı alovdan ilan şəklində onun boynundan asacaq."[1]

Digər bir rəvayətdə isə belə buyurur: "Allahın haqqını ödəməyən kəs batil yolda iki qat artığını sərf edər."[2]

**5. Xümsü ödəməyən əhdi pozur:**

Dini qəbul etmək dedikdə, onun əmrlərini yerinə yetirmək nəzərdə tutulur. Hər kəs dini qə`bul etdikdən sonra onun göstərişlərinə, yə`ni əhdinə vəfa qılmasa, vəfasızlıq göstərmişdir. Xüms ödəmək vacib əmrlərdəndir. İslamı qə`bul edən hər bir müsəlman xüms ödəməlidir. Əgər ödəməsə, əhdinə vəfa qılmamışdır. Bu səbəbdən İmam Sadiq (əleyhissəlam) **«Vay olsun əskik satanlara!»**[3] ayəsini təfsir edərkən buyurur: "Yə`ni, ey Məhəmməd, sənin xümsünü kəsənlərə vay olsun!"[4]

## Xüms ödəməyin tə`sirləri

Xüms ödəməyin zərərləri ilə tanış olduq. Bəs xüms ödəməyin hansı bərəkətləri var?

---

"Vəsail", c. 6, səh. 378.[1]
Həmin mənbə.[2]
"Əl-Mutəffifin" surəsi, ayə 1.[3]
"Bihar", c. 96, səh. 189.[4]

**1. Övladın paklığı:**

Bildiyimiz kimi, qidalanmanın insan sağlamlığına və ruhuna böyük tə`siri var. Təmiz və halal ruzi sağlam düşüncə və sağlam əmələ səbəb olur. Haram qidalardan şeytani düşüncələr, şeytani əməllər qaynaqlanır.

Insanın əsil sərvəti onun övladıdır. Əgər övlad pak doğularsa, onun müsbət yöndə inkişafı üçün şərait yaranar. Pak doğulmamış övlad fitnə-fəsad mənbəyidir. Əslində, insan heç bir mülk sahibi deyil və ona əmanət verilənlər Allaha məxsusdur. Amma Allah mehribanlıq göstərərək verdiyi malın beşdə birini onun yolunda sərf eləməyi tapşırır. Qalan hissədən isə insanlar öz istədikləri kimi istifadə edə bilər. Şübhəsiz ki, xüms ödəməkdən boyun qaçırsalar, həm günaha yol verib Allaha itaətsizlik göstərmiş olur, həm də malları haram olduğundan bu haram, övladlarının necəliyinə tə`sir göstərir. Amma xüms ödəsələr, qidaları halal olduğundan övladlar da pak olur.

Digər bir rəvayətdə İmam Sadiq (əleyhissəlam) buyurur: "Hər kəs qəlbində bizə dostluq duysa, Allaha birinci ne`mətlərə görə sitayiş etsin. "Birinci ne`mətlər" nədir, deyə soruşurlar və İmam (əleyhissəlam) belə cavab verir: Pak doğuş." Sonra İmam (əleyhissəlam) buyurur: "Həzrət Əmirəl-mö`minin (əleyhissəlam) Həzrət Fatiməyə

(ələyhəssəlam) [1] dedi: Payına düşəni bizim tərəfdarlarımızın atalarına bağışla ki, onlar pak olsun."[2]

İmam Sadiq (ələyhissəlam) buyurur: "Insanlar üçün Qiyamət günü ən böyük çətinlik odur ki, haqqı tapdananlar qalxıb desin: "Pərvərdigara, bizim xümsümüzü borclulardan al. Biz xümsü mö`minlər üçün pak etdik ki, doğuşları pak, övladları halal olsun."[3]

**2. Var-dövlətin paklığı:**

Xümsü zəruri edən vasitələrdən biri də var-dövlətin paklanmasıdır. İmam Sadiqdən (ələyhissəlam) soruşurlar: "Bir şəxs halal və haramdan mal qazanıbsa, tövbə etmək istədikdə onu necə ayırmalıdır? İmam (ələyhissəlam) buyurur: "Malının xümsünü verib, onu pak etsin. Allah-təala var-dövləti xümsü ödənməklə paka çıxarır."[4]

Gördüyünüz kimi, İmam Sadiq (ələyhissəlam) xümsü malın paklanma səbəbi sayır. Qur`ani-Məciddə xüms ödənməsi malın təmizlənmə amili sayılır: **«Onların malından sədəqə al ki, paka çıxarasan.»**[5]

Bu ayədə xümsün malı paklaması səbəbi aydın şəkildə bəyan olunmuşdur.

**3. Ruzinin artması:**

---

Yə`ni, "Ona salam olsun."[1]
"Camiul-əhadis", c. 8, səh. 597.[2]
"Vafi", c. 6, səh. 276.[3]
"Əl-Məqnə", səh. 283.[4]
"Ət-Tövbə", ayə 103.[5]

Insanın ruzisi, var-dövləti təkcə çalışmaq, elm və bilik yolu ilə əldə olunmur. Mal-mülkün artması üçün başqa səbəblər də var. İmam Riza (əleyhissəlam) buyurur: “Xüms ödəməyiniz sizin ruzi açarınız və günahlarınızın yuyulma səbəbidir. Xüms verməklə möhtac olacağınız gün üçün ehtiyat toplayırsınız.”[1]

**4. Günahların yuyulması:**

Mə`sumlardan (əleyhimussəlam) başqa bütün insanların günahı var. Allah-təala mərhəmət edərək insanlar üçün paklanma yolları müəyyənləşdirmişdir. Bu yolları tanıyıb uyğun istiqamətdə addım atan insan Allahın rəhmətindən bəhrələnir. Allahın uyğun göstərişlərinə əməl edən insan pak cisim və şad ruhla Allahla görüşəsidir. İmam Riza (əleyhissəlam) buyurur: “Xüms verməyiniz günahlarınızın yuyulmasına səbəb olar.”[2]

**5. Dinin yayılmasında şəriklik:**

Bildiyimiz kimi, bütün işlərin həyata keçməsi üçün maddi dəstəyə ehtiyac var. Maddi dəstək olmadan hansısa işi gerçəkləşdirmək mümkün deyil. Müqəddəs İslam dini ümumbəşəri bir dindir. Demək, İslamın dünyaya yayılması üçün maddi dəstəyə ehtiyac var. İslamın ümumbəşəri məqsədlərini həyata keçirmək üçün bu dəstək zəruridir. Qur`ani-Kərimin bir çox ayələrində bildirilir ki, müqəddəs İslam dinini təbliğ edib yaymaq Həzrət Məhəmmədin (səlləllahu əleyhi və əlihi və səlləm) öhdəsinə düşmüş bir vəzifədir. Və

---

“Vəsail”, c. 6, səh. 375.[1]

Həmin mənbə.[2]

ona özünə canişin seçmək təklif olunur. Həzrət Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) İlahi vəhy əsasında pak İmamları (ələyhissəlam) özünə canişin seçir. Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) və mə`sum İmamların (ələyhissəlam) dini yetərincə təbliğ edə bilməsi üçün Allah-təala xümsü maddi dəstək qərar vermişdir. Demək, xüms ödəyən insan dinin təbliğinə kömək etməklə onun yayılmasına şərik olur. Tarixdə oxuyuruq: İmam Rizanın (ələyhissəlam) yaxınlarından sayılan Iran tacirlərindən biri Həzrətə (ələyhissəlam) məktub yazdı və ödəyəcəyi xümsün ona bağışlanmasını xahiş etdi. Həzrət (ələyhissəlam) bu şəxsin cavabında buyurdu: “Rəhman və Rəhim Allahın adı ilə. Həqiqətən, Allah Vüs`ət verən və Kərimdir. Yaxşı əməllərin əvəzində savab, pis əməllərin əvəzində əzab verir. Allahın halal etmədiyi mal halal olmaz. Xüms dinə, əhli-əyala və xidmətçilərimizə köməkdir. Biz abır-həyamızı qorumaq üçün ondan bağışlayır, xərcləyirik. Bizə xümsü əsirgəməyin və özünüzü bizim dualarımızdan məhrum qoymayın. Qüdrət tapmağımıza səbəb olan şeyi (xümsü) malınızdan ayırmaqla ruziniz üçün açar əldə edir, günahlarınızı yuyur, möhtac olacağınız gün üçün azuqə yığırsınız. Müsəlman Allahla bağladığı əhdə vəfa qılır. Müsəlman o şəxs deyil ki, dili ilə cavab verib qəlbində müxalif ola.”[1]

---

“Əl-məqnə”, səh. 284.[1]

Bəli, xüms mə`sumlar (ələyhimussəlam) üçün maddi dəstəkdir, onlar xüms vasitəsi ilə dini yayır. Əgər bu işə şərik olsaq, onun mə`nəvi savabından da bəhrələnərik.

## Xümsün fəlsəfəsi

Xümsün bir çox hikmət və fəlsəfəsi vardır. Onlardan bə`zilərini qeyd edirik:

**1)** Şübhəsiz ki, İslam təkcə əxlaqi, fəlsəfi və ya e`tiqadi bir məktəb kimi zühur etməmişdir. İslam bütün maddi və mə`nəvi ehtiyaclar nəzərə alınmış ictimai bir din olaraq zühur etdi. Bu məktəb Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) dövründə hökumət qurulan vaxtdan vardı. Hökumətin idarəsi üçün nizamlı və yetərli tə`minat mənbəsi lazım idi. Bununla da İslami hökumət təşkili sayəsində cəmiyyətin imkansızlarına, xəstələrinə, himayəsizlərinə, əlillərinə və yetimlərinə kömək edib iqtisadi boşluğu doldurmaq olardı. Allah-təala zəkat ayəsini nazil etməklə sonsuz rəhmət və yardım əlini Peyğəmbərə (salləllahu ələyhi və əlihi və səlləm) uzatdı. O, zəkatı vacib etməklə bu çatışmazlıq və nöqsanı aradan qaldırdı. Zəkat bütün İslam cəmiyyətinə məxsus olan büdcələrdəndir. Zəkat Bəni-Haşimə (seyyidlərə) yox, qeyd olunanlara çatır. Lakin hökumət başçısı olaraq İmamın da tə`min olunası xərcləri vardır. İslam quruluşunun inkişafı və cəmiyyətin idarəsi üçün ona böyük büdcə lazımdır. Bu

məqsədlə də xüms vermək vacib olmuşdur. Xüms rəvayətlərdə İslam hökumətinin vergisi kimi qeyd olunub.[1]

**2)** Allah-təala İslam Peyğəmbərinin (salləllahu ələyhi və əlihi və səlləm) izzət və kəramətini qoruyaraq Bəni-Haşim və onun yaxınlarından olan fəqirlərin tə`min olunması üçün xümsü vacib etdi. Allah onların payını Özü və Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) payına yaxın bildi. Bununla da onların təhqir olunması üçün yaranmış şərait aradan götürüldü. Bə`zi şəxslərin fəqirlərə zəkat verərkən özlərini üstün, qarşı tərəfi isə alçalmış hiss etmələri mümkündür. Hansı ki, xüms adlanan verginin ödənməsində məsələ isə tam əksinədir. Burada xümsü alan şəxs üstün hesab olunur.[2]

**3)** Xüms elə bir büdcədir ki, İmam (ələyhissəlam) nəzərdə tutduğu xeyir işləri bu büdcə vasitəsi ilə nəzərdən keçirir və onu lazım bildiyi istiqamətlərdə sərf edir. Ayədə deyilən "**Allaha məxsus olan (xüms)**", əslində Peyğəmbər üçündür. Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) də onu istədiyi yerlərdə sərf edir.[3]

**4)** Xüms - insanın kamilliyi və inkişafı üçün vasitədir. Hər bir şəxs vəzifələrini yerinə yetirməklə kamillik mərhələlərini keçir. Insan Allaha yaxınlıq məqsədi ilə

---

[1] "Vəsail", c. 6, "kitabul xums" babı, hədis 12.

Həmin mənbə, hədis 8.[2]

Həmin mənbə, "ənfal" babı, hədis 2.[3]

və dünyaya arxa çevirməklə vəzifəsini yerinə yetirir, günahlarını təmizləyir və kamilliyə doğru hərəkət edir.

İmam Rzanın (ələyhissəlam) öz yaxınlarından birinə yazdığı məktubda deyilir: “Xüms ödəmək insanın ruzi əldə etmək və günahlarının bağışlanma səbəbidir.[1]

**5)** Bu məktəbin əsas hədəfi olan İlahi dinin dirçəlişi və İslam hökumətinin qurulması üçün zəkat büdcəsindən əlavə müstəqil bir büdcə lazımdır. İlahi ədalət hökumətinin qurulmasına doğru olan bir inqilabın xərclərinin tə`min olunması üçün xüms, çox böyük sərvətdir.

Həmin məktubda yenə də İmam Rza (ələyhissəlam) belə buyurur: “Xüms bizim Allahın dininə yardımımızdır.”[2]

Əlbətdə ki, xümsün bizim bilmədiyimiz bir çox səbəb və hikmətləri də ola bilər.

## Bir şübhəyə cavab

Bə`ziləri belə düşünə bilər ki, xümsün bir hissəsinin seyyidlərə ayrılması bir növ ayrı seçkilikdir. Cavab olaraq deməliyik ki, uyğun hissə yalnız ehtiyaclı seyyidlərə xərclənir. Bundan əlavə onlara yalnız bir illik ehtiyacı verilə bilər. Deməli, həmin hissədən yalnız iqtisadi çətinliyə düşmüş yoxsul, yetim uşaqlar faydalana bilir. Bundan əlavə, seyyid olmayan

---

Həmin mənbə, hədis 12.[1]
Həmin mənbə, hədis 14.[2]

ehtiyaclılar öz ehtiyacını zəkatdan ödəyə bilər. Unutmamalıyıq ki, yoxsul seyyidlərin zəkatdan istifadə etmək hüququ yoxdur. Zəkat cəmiyyətin ümumi büdcəsi sayılır. Belə görünə bilərdi ki, seyyidlərin zəkatdan məhrum edilməsi də onlara qarşı ayrı seçkilikdir. Amma İslam qanunlarında bütün təbəqələr nəzərdə tutulmuşdur. Seyyidlər xümsdən, seyyid olmayanlar zəkatdan pay alır. Seyyidlərin zəkatdan məhrum edilməsinin səbəbi ayrıseçkilik yox, bir imtiyazdır. Seyyidlər müəyyən məsləhətlər əsasında ümumi büdcədən istifadə edə bilməzlər.

## Seyyidlik nə vaxtdan başlamışdır?

Çoxlarını düşündürən - Seyyidlik nə vaxtdan başlamışdır? - sualına cavab vermək istərdik: Seyyidlik-Həzrət Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) nəslində mövcud olan mə`nəvi bir şərəfdir. Onun nəslindən olan bu insanlara xüsusi hörmət göstərilir. Bu ehtiramın əsasını, şübhəsiz ki, həmin insanların Peyğəmbərlə (salləllahu ələyhi və əlihi və səlləm) qohumluq əlaqəsi təşkil edir. “Seyyid” ərəbcədən tərcümədə “ağa” deməkdir. Bu kəlmə Peyğəbər və İmamların (ələyhimussəlam) buyuruqlarında da işlədilmişdir.

Amma belə bir titul, seyyid olan şəxsə icazə vermir ki, İslam qanunlarını pozsun və özünü qanunlara münasibətdə başqalarından üstün saysın. Çünki Qur`an buyurur:

**«Ey insanlar! Şübhəsiz, Biz sizin hamınızı bir kişi və qadından (Adəm ilə Həvvadan) yaratdıq (və ya sizin hər birinizi bir ata və anadan yaratdıq) və sizi bir-birinizi tanıyasınız deyə böyük və kiçik qəbilələr etdik. (Odur ki, sizin aranızda irqi üstünlük yoxdur.) Həqiqətən sizin Allah yanında ən hörmətliniz sizin ən pəhrizkarınızdır. Həqiqətən Allah çox bilən və xəbərdardır.»** [1]

Bu mübarək ayədə Allah-təala insanın pulunu, var-dövlətini, məqamını, gözəlliyini və s. deyil, əksinə onun pəhrizkarlığını (yə`ni, Allaha olan itaətini, haramlardan çəkinib vacibləri yerinə yetirən şəxsi) üstün tutur.

Bunu da qeyd etmək lazımdır ki, Allah-təala əməlləri yalnız təqvalı insanlardan qə`bul edəcəkdir. Yə`ni, hər kəs vacibləri yerinə yetirib haramlardan çəkinməsə, özünü qınamalıdır.

Qur`an buyurur: **«Həqiqətən Allah yalnız təqvalılardan qə`bul edir.»**[2]

Buna görə də Allaha itaəti olmayan seyyidlər bilsinlər ki, istər Peyğəmbərin həyat yoldaşı, istər övladı, istərsə də əmisi və onun həyat yoldaşı belə Allah-təalanın əmrlərinə itaət etməsə, Axirətdə əbədi əzab içində olacaqlar.

Düşünək: "Əgər Peyğəmbərin əmisi, yaxud həyat yoldaşı yaxud da oğlu əzaba düçar olub əbədi

---

"Əl-Hucurat" surəsi, ayə 13.[1]

[2] "Əl-Maidə" surəsi, ayə 27.

Cəhənnəmdə yanacaqlarsa, onda görəsən, ibadət etməyən adi insanların aqibəti necə olacaq?!”

Deyilənlərdən nəticə çıxarmaq üçün Qur`ani-Kərimdən bir neçə ayəni zikr edirik:

1-«**Allah kafirlər üçün Nuhun və Lutun həyat yoldaşlarını misal çəkir. Onlar bizim saleh bəndələrimizin (Nuh və Lutun) nigahında idi və hər ikisi onlara (Nuh və Luta) xəyanət etdi. Onlar (Nuh və Lut) öz həyat yoldaşlarından əzabı uzaqlaşdıra bilmədi. Onlara deyildi: “Başqaları ilə atəşə daxil olun!**»[1]

2-«**Nuh Pərvərdigarına dedi: Pərvərdigara, oğlum mənim ailəmdəndir. Sənin və`dən haqdır və Sən ən yaxşı hökm edənsən.” (Allah) buyurdu: “Ey Nuh, həqiqətdə onun əməli düz olmadığı üçün sənin ailəndən deyil. Buna görə də bilmədiyin bir şeyi Məndən bir daha istəmə.**»[2]

3-«**Bağışlayan və mehriban Allahın adıilə. Əbu Ləhəbin hər iki əli kəsilsin, ziyana uğrasın və ölüm olsun ona! Əsla onun nə mal-dövləti, nə də əldə etdikləri (Allahın əzabını zərrə qədər də ) ondan uzaqlaşdıra bilməz. O, tezliklə alovlu (şöləli) oda girəcək və orada yanacaqdır. Və onun odun daşıyan həyat yoldaşı da (Cəhənnəm oduna girəcəkdir). Onun boynunda xurma lifindən hörülmüş ip olacaqdır. (O, Peyğəmbərin yolunun üstünə iplə tikanlı çöplər daşıdığına və Peyğəmbərin əleyhinə söz gəzdirdiyinə**

---

“Ət-Təhrim” surəsi, ayə 10.[1]
“Hud” surəsi, ayə 45-46.[2]

**görə Cəhənnəmdə də əməllərin eynilə təcəssüm olaraq "Zəqqum" ağacının odunlarını odlu zəncirlərlə daşıyacaqdır.)»**[1]

Əslində seyyidliyin kökü Peyğəmbərin (salləllahu ələyhi və əlihi və sələm) və Onun Əhli-beytinin (ələyhimussəlam) əzəmətidir. Onlar öz uca şəxsiyyətləri sayəsində ağa, seyyid olmuşlar. Bu şəxsiyyət ucalığı Həzrət Peyğəmbərin (salləllahu ələyhi və əlihi və sələm) babası Haşimdən gəlir. Onun övladları da bu yolla iftixar qazanmışlar.

## Xüms və vergi

Xüms –namaz, oruc və s. kimi İlahi və ibadi bir vacibatdır. Onda Allaha yaxınlıq qəsdi olmalıdır. Yə`ni, bu əməllər Allah-təalanın əmrinə görə yerinə yetirilməlidir. Lakin vergi xümslə ziddiyyət daşımayan, zaman və məkan şəraitinə tabe olan hökumət qanunudur. Beləliklə, vergi ödəmək xümsü əvəz edə bilməz.

## Iki bəhanə

Bə`ziləri xümsü ödəməmək üçün bir sıra bəhanələr gətirirlər və Allahın vacib etdiyi bu hökmə e`tinasız yanaşırlar. Onlardan ikisini qeyd etmək istərdik:

---

"Əl-Məsəd" surəsi. [1]

***Bəhanə 1:*** “Əgər xüms versəm, onda pulum azalar və çətin vəziyyətə düşərəm.”

Cavab: “Indiyə kimi xümsü ödəyənin heç biri çətinliyə düşməmiş və müflis olmamışdır. Bağbanlar ilin müəyyən fəslində ağacların budaqlarını kəsirlər ki, həmin ağaclar yaxşı bar verib, bollu-bərəkətli olsunlar. Allaha iman gətirənlər də hər il  xümsü ödəməklə var-dövləti çoxalmış və bərəkətli olmuşdur.

***Bəhanə 2:*** “Allah məsləhət bilsəydi, mənə pul yetirdiyi kimi kasıba da yetirərdi. Deməli, məsləhət bilmir.”

Cavab: Bəli, Allahın hər şeyə qüdrəti çatır. Lakin O, sənin kamilliyə və Cənnətə yetişməyin üçün səni imtahan edir.

Qur`anda belə buyurulur: **«Onlara – “Allahın sizə ruzi olaraq verdiyindən (haqqı olan şəxslərə Allah yolunda) sərf edin!” - deyildikdə, kafirlər iman gətirənlərə – “Allahın istədiyi təqdirdə yedirə biləcəyi kəsəmi yemək verək?” – cavab verərlər. (Allah onun ac qalmağını istəmişdir!) (Bilin ki,) Siz yalnız açıq-aşkar azğınlıq içindəsiniz.»**[1]

**4-Zəkat:** Şəriətdə 9 şeydən (arpa, buğda, xurma, kişmiş, inək, qoyun, dəvə, qızıl, gümüş) risalələrdə yazılmış bir sıra şəraitlə zəkat ödəmək vacibdir.

Zəkat – “təmizlik” mə`nasındadır. Yə`ni, yuxarıda adı çəkilən malların təmizliyi. Zəkatı vacib olan doqquz şeyin hər biri “nisab həddi”nə (müəyyən bir həddə) çatdıqda, onun zəkatını vermək vacib olur.

---

“Yasin” surəsi, ayə 47.[1]

Məsələn: Beş dəvəsi olan bir qoyun, otuz inəyi olan bir dana, qırx qoyunu olan bir qoyun zəkat verməlidir. Demək, nisab həddinə çatmamış malların zəkatını vermək lazım deyil. Risalədə bu barədə geniş şərh verilmişdir.

Zəkat – namaz, oruc və s. ibadətlər kimi həmişə insanlara vacib edilmişdir. Misal olaraq, Qur`anda Ismail Peyğəmbər (ələyhissəlam) haqqında belə buyurulur: **«O, öz ailəsinə həmişə namaz (qılmağı) və zəkatı (zəkat verməyi) buyurardı və Rəbbinin yanında bəyənilən idi.»**[1]

Yaxud Isa Peyğəmbər (ələyhissəlam) haqqında buyurulur: **«(Həmin körpə dilə gəlib) dedi: Həqiqətən mən Allahın bəndəsiyəm, O, (bu halımda) mənə kitab (Incil) verib və məni (bu yaşda) Peyğəmbər edib. Və məni harada olsam bərəkətli bir vücud edib və nə qədər ki sağam mənə namaz (qılmağ)ı və zəkatı (verməyi) tapşırıb.»**[2]

Qur`anda demək olar ki, "zəkat" kəlməsi əksər ayələrdə "namaz" kəlməsi ilə birlikdə işlənmişdir: **«Namaz qılın, zəkat verin və ruku edənlərlə birlikdə ruku edin!»**[3]

## Zəkatın sərf olunması

Zəkat aşağıdakı ünvanlara xərclənir:

---

[1] "Məryəm" surəsi, ayə 55.

[2] "Məryəm" surəsi, ayə 30-31.

"Əl-Bəqərə" surəsi, ayə 43.[3]

**1**. Yoxsullar; özünün və himayəsində olanların illik xərcini və ya illik xərcinin bir hissəsini ödəyə bilməyən şəxs yoxsul sayılır;
**2**. Miskinlər; maddi durumu yoxsuldan da aşağı olanlar miskin sayılır;
**3**. Zəkat veriləcəyi təqdirdə İslama meyl göstərəcək, savaşlarda müsəlmanlara yardım edəcək kafirlər;
**4**. Qul alıb azad etmək; hazırkı dövrümüzdə bu işi görmək mümkün deyil;
**5**. Borcunu verə bilməyənin borcunu ödəmək; bir şərtlə ki, həmin pul günaha xərclənməsin;
**6**. Cəmiyyətin ümumi mənafeyinə faydalı işlərə, İslamın güclənməsinə, Allah yolunda xərcləmək; məsələn, məscid, məktəb, kitabxana tikmək, yol düzəltmək və s...;
**7**. Yolda qalmış, Vətəninə qayıtmaq üçün pulu olmayan müsafirə kömək etmək; belə insanlar "ibn Səbil" adlanır;
**8**. İmam və ya onun naibi tərəfindən zəkat yığmağa vəzifəli şəxslərə xərcləmək.

İslamda sədəqə və ehsan[1] tə`kidlə vurğulanan bir məsələdir. Rəvayətlərdə bildirilir ki, insanın verdiyi sədəqə yoxsulun əlinə çatmamış Allahın hüzuruna təqdim olunur.[2]

---

Əslində "ihsan"dır. Mə`nası isə "yaxşılıq" deməkdir.[1]
"Vəsail", c. 9, "ənfal" babı, səh. 406, hədis 1. [2]

İmam Baqir (ələyhissəlam) birinə sədəqə verəndə onu geri alıb qoxulayar, öpər, sonra yenidən qaytararmış.[1]

Hədislərdə bildirilir ki, insan sədəqə vermək istədiyi vaxt 70 şeytan ona vəsvəsə edir. Onlar hər yolla sədəqəyə mane olmağa çalışarlar. Sədəqə verən şəxs əslində onu şeytanların cəngindən alıb, Allahın hüzuruna təqdim edər.[2]

## Zəkatın tərki

Qur`ani-Kərimin "Maidə" surəsinin 12-ci ayəsində zəkat ödəmək zərurətindən danışılır və bildirilir ki, günahların bağışlanması və Behiştə daxil olmaq zəkatdan asılıdır: **«Əgər namazı bərpa etsəniz, zəkat ödəsəniz, mənim elçilərimə iman gətirsəniz, onlara yardım göstərsəniz, Allaha borc versəniz sizinləyəm, pis işlərinizdən keçərəm, sizi altından çaylar axan Behiştlərə daxil edərəm.»**

İslamda qazanc və sərvət müqabilində verilən zəkatın xüsusi əhəmiyyəti var. Zəkat ödəməkdən boyun qaçıranlar şiddətlə məzəmmət edilir. Cəmiyyətdə ictimai ədalətin bərpa olunmasında, yoxsulluqla mübarizədə, təbəqələr arası fərqlərin azaldılmasında zəkatın əhəmiyyətli rolu var. Zəkat insanın ruhunu və canını dünyapərəstlikdən təmizləyir, onu Allaha yaxınlaşdırır.

---

Həmin mənbə, səh. 407, hədis 2.[1]
Həmin mənbə, səh. 409 hədis 12.[2]

Zəkat cəmiyyətdəki yoxsullardan qabaq sərvət sahiblərinin özünə faydalıdır. Zəkat verilməyən cəmiyyətlərdə çox keçmir ki, sosial partlayışlar baş verir və varlıların bütün sərvəti təhlükə altına düşür. İmam Sadiq (əleyhissəlam) buyurur: "Yalnız zəkat ödənmədiyindən suda və quruda sərvətlər məhv olur. Sərvətinizi zəkat verməklə sığortalayın."[1]

Bəşəriyyəti narahat edən ictimai problemlərdən biri də təbəqələr arasındakı fərqdir. Dövrümüz texnoloji tərəqqi dövrü olsa da, bu ayrıseçkilik aradan qalxmamışdır, yoxsullar və varlılar təbəqəsi bir-birindən seçilməkdədir. Bə`ziləri o qədər sərvət toplamışlar ki, öz kapitallarının hesabını bilmirlər. Bə`ziləri isə bir qarın çörəyə möhtacdır və aclıqdan əziyyət çəkir. Onlar üçün sadə məskən, sadə libas və sadə qidalar əlçatmazdır. Şübhəsiz ki, belə bir cəmiyyət heç vaxt həqiqi səadətin ləzzətini dada bilməz. Bu böyük problemlə mübarizə yollarından biri yoxsullara və ehtiyaclılara yardım göstərilməsi, ehsan edilməsidir.

Zəkat barəsində bə`zi hədisləri nəzərdən keçirək:

1. İmam Sadiq (əleyhissəlam) buyurur: "Oğrular üç növ olur: Zəkata mane olanlar, qadınların mehriyyəsini halal sayanlar, qaytarmaq məqsədi olmadan borc alanlar."[2]

2. Həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) buyurur: "Üç dəstənin namazı qə`bul olmaz.

---

[1] Həmin mənbə, səh. 410, hədis 21.

"Mizanul-hikmət", c. 4, səh. 221.[2]

Onlardan bir dəstəsi zəkat ödəməkdən boyun qaçıranlardır.”[1]
3. İmam Sadiq (ələyhissəlam) buyurur: “Zəkat ödənməyən halda yoxsulluq və ehtiyac üzə çıxacaq.”[2]
5. Həzrət Əli (ələyhissəlam) buyurur: “Qur`anda **“Maun”** dedikdə, vacib zəkat nəzərdə tutulmuşdur. Zəkat ödəməkdən boyun qaçıran insan sələmçi kimidir. Malının zəkatını ödəməyən müsəlman deyil.”[3]
6. İmam Sadiq (ələyhissəlam) buyurur: “Vacib zəkatdan saxlayan kəs mö`min və müsəlman deyil. (Ölümündən sonra deyər) Pərvərdigara, məni həyata qaytar ki, saleh işlər görüm.”[4]
**Sual:** Xüms və zəkatla “dövlət vergi”ləri arasında nə əlaqə var?
**Cavab:** Vergi - vətəndaşların dövlətə xidmət müqabilində ödədikləri puldur. Dövlət küçə və prospektləri asfaltlayır, asayişi təmin edir, pulsuz tibbi xidmət göstərir, təhsil müəssisələri açır. Deməк, vergi gündəlik ehtiyaclarımıza xərclədiyimiz pullardan fərqlənmir. Xüms və zəkat isə yalnız məhrum təbəqənin problemlərinin həllinə sərf olunur. Əgər bu müqəddəs hökmlərə (xüms və zəkata) əməl olunarsa, onda İslam cəmiyyətində heç kəs yoxsulluqdan çətinlik çəkməz.

---

“Vəsail”, c. 6, səh. 16.[1]
“Usulu-Kafi”, c. 1, səh. 448.[2]
“Bihar”, c. 96, səh. 29.[3]
“Vəsail”, c. 6, səh. 18.[4]

**5-Həcc:** Imkan olan surətdə, müəyyən şərtlər əsasında ömründə bir dəfə "Kə`bə" evinin ziyarətinə getmək.

Allah-təala Qur`anda buyurur: **«Orada (Kə`bədə) aydın nişanələr - Ibrahimin məqamı vardır. Ora daxil olan şəxs əmin-amanlıqdadır. Imkanı olan hər bir kəsin həccə gedib o evi ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə, (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərdən ehtiyacsızdır!»**[1]

Həcc ziyarətinə getmək İslamın vacib şərtlərindən biridir. Ümumiyyətlə, müqəddəs Həcci ziyarət etməyə insan həm maddi, həm də fiziki cəhətdən hazır olmalıdır. Əgər onun fiziki sağlamlığı imkan vermirsə, Həccə gedə bilməz. Həcc ziyarətinə gedən insanın maddiyatı özünü, ailəsini idarə edə bilməyə imkan verməli, onun evi olmalı, ailəsini yemək-içməklə tə`min etməlidir. Əgər Həccə getmək istəyən insanın ölkəsində müharibə varsa, yol qorxuludursa, pulu haramdırsa, o Həccə gedə bilməz.

Həccə gedənlər gərək Həccin mahiyyətindən və hikmətindən xəbərdar olsunlar.

Rəvayətdə deyilir: Bir şəxs Həcc mərasimində İmam Sadiqə (ələyhissəlam) dedi: "İmam, necə də çox Hacı var!" Həzrət buyurdu: "Həqiqi Hacı azdır!"

---

"Ali-Imran" surəsi, ayə 97.[1]

Əlbətdə ki, “**titul**”a görə gedilən həcci Allah qə`bul etmir. Paklıq, müqəddəslik, bir sözlə Allaha itaət - Hacının əməlində özünü büruzə verməlidir.

Həccin bə`zi əməllərinin hikmətini qeyd etmək istərdik:

## Ehram[1] libası

Ağ parçadan hazırlanmış bu libası hamı bir nəfər kimi geyinərək Allahın əmr etdiyi əməlləri yerinə yetirirlər. Ehram – Hacılara kəfəni və Qiyamət gününü xatırladır. Sanki Allah xəbərdarlıq edir: “Ey insan ! Özünü başqalarından üstün tutma! Eqoist olma! Bu dünyada hər kim olsan da, son mənzilin qəbir evidir. Ölümü yadından çıxarma! Qiyamətdə hamı kimi sən də hüzurumda kəfənlə durub dünyada etdiyin əməllərə görə cavab verəcəksən.”

Ehram - yəni “haram etmək”! Hacılara ehram halında bir neçə şey haramdır və bunların da hikmət və fəlsəfəsi vardır. Misal olaraq:

1. **Güzgüyə baxma**! – yə`ni, bununla da özünü yaddan çıxar.
2. **Ətir vurma**! – yə`ni, burnuna dəyən xoş ətir həyatı yadına sala bilər. Burada fəza başqa bir ətirlə doludur. Allahın eşqini qoxula, məst ol!
3. **Kimsəyə göstəriş vermə**! – yə`ni, qardaşlığı, bərabərliyi dirilt!

[1] Əslində “ihram”dır.

4. **Heç bir heyvanı incitmə, hətta həşəratları öldürmə. Hətta zorla uzaqlaşdırma**! – yə`ni, bu bir neçə günü həzrət Məsih kimi yaşa!
5. **Yerdən ot qoparma, sındırma**! – yə`ni, təbiətlə sülhdə yaşamağı öyrən. Təcavüz ruhunu özündə boğ!
6. **Ov etmə**! – yə`ni, qəlbində bərkliyi öldür!
7. **Cinsi yaxınlıq qadağandır. Hətta həvəslə baxma**! – yə`ni, qoy İlahi eşq, könlünü və qəlbini başdan-başa bürüsün! Və s...

Həcc - ümumi cəhətdən götürülərsə, insan vücudunun Allaha doğru hərəkətidir. Həcc - insanın yaranışının, İslam məktəbinin simvolunun nümayişidir və bu yaradıcı Həcc -insanın öz qaranlıq və dar yuvasından Allahın nura qərq olmuş Kə`bə evinə səfəridir.

## Həcc - böyük İslam konfransıdır

Həcc dedikdə, Məkkədə Allah evinin ziyarəti, xüsusi bir proqramın icrası nəzərdə tutulur. Həcc ibadətinin də digər ibadətlər kimi böyük bərəkətləri var. Həcc həm fərd, həm də cəmiyyət üçün xeyirlidir. Müsəlmanlar bu proqramı düzgün yerinə yetirərlərsə, həmçinin Həccdən əyləncə və səyahət məqsədi ilə istifadə etməzlərsə, hər il bu böyük mərasimdən sonra İslam dünyasında böyük dəyişikliklər müşahidə olunar. Həcc mərasimi İslam mütəfəkkirlərinin böyük konfransı ola bilər.

## Həccin tə`sirləri və yönümləri

Həcc mərasiminin bir sıra dəyərli tə`sirləri və yönümləri var:

1. **Ruhi dəyişiklik və özünütərbiyə**

Həccin ən mühüm fəlsəfəsi onun əxlaqi yönümüdür. Həcc əməlini yerinə yetirmək qərarına gəlmiş insan, dünya bər-bəzəyini bir kənara qoyub ehram libası geyir, bir sıra halal ləzzətlərə göz yumub özünütərbiyə proqramını yerinə yetirməyə başlayır. Həcc proqramının hər bəndini yerinə yetirən insanın Allaha bağlılığı güclənir. Öz qaranlıq keçmişindən uzaqlaşmış Hacı işıqlı gələcəyə addım atır. Onun həyat kitabında nurlu bir səhifə açılır. Bu səbəbdən də rəvayətlərdə deyilir: "Təkəbbürə yol vermədən Həcc və ümrə üçün Kə`bəyə üz tutan insan günahlardan təmizlənib, anadan doğulduğu vaxtdakı kimi pak olur."[1]

Bəli, Həcc müsəlmanın dünyaya yenidən gəlişidir. Bu ibadət sağlam bir həyata atılan addımdır. Həcc ibadətini yerinə yetirən insanın qarşısında Həzrət Ibrahim, Ismail, Hacər (ələyhimussəlam), İslam Peyğəmbəri (salləllahu ələyhi və əlihi və səlləm) və onun yaxınlarının xatirələri və mücahidələri canlanır.

2. **İslam ümmətinin birliyi**

---

"Furuu-kafi", c. 4, səh. 252, hədis 2.[1]

Həccin mühüm yönümlərindən biri onun siyasi yönümüdür. Bu əzəmətli mərasim müsəlmanların birliyində tə`sirli səbəb sayılır. Bu birliklə İslam dünyası ilə bağlı mə`lumatlar dünyaya yayılır, əsarət zəncirləri qırılır və ibadət ruhu siyasi gerçəkliklə bir araya gəlir.

Bə`zi rəvayətlərdə Həcc zəif insanların cihadı kimi təqdim edilir. [1] Bu cihadda hətta qoca kişilər və qadınlar səhnəyə çıxır, İslam ümmətinin gücü və əzəməti tam mə`nasında özünü göstərir. Allah evi ətrafında sıx şəkildə cərgələnmiş ümmət, öz vəhdət şüarları ilə İslam düşmənlərini qorxuya salır. Bəli, müsəlmanlar Həcc mərasimlərində ixtilafdan, firqəçilikdən çəkinməli, qarşılıqlı anlaşmaya gəlib düşmən üzərində qələbə yolunu araşdırmalıdırlar.

3. **İslam maarifinin yayılması**

Həcc mərasiminin digər bir faydası onun mədəni və elmi yönümüdür. Həcc günlərində müxtəlif firqələrdən, zümrələrdən olan müsəlmanların rabitəyə qatılması İslam maarifinin dünyaya yayılmasında güclü amil (səbəb) ola bilər. Hələ Bəni-Üməyyə və Bəni-Abbas hökumətləri dövründə müsəlmanlar sıxıntıya salınmış İslam hökmlərinin yayılması üçün Həcc mərasimindən faydalanırdılar. Onlar mə`sum[2] İmamlar və böyük alimlərlə rabitəyə qatılaraq öz problemlərini həll edirdilər. Alimlər bu mərasimdə bir

---

“Vəsail”, c. 11, səh. 12, hədis 14. [1]

Yə`ni, “günahsız və pak”.[2]

araya gəlib İslam maarifinin təbliği üçün yol axtara bilərlər.

4. **Iqtisadi dayaqların möhkəmləndirilməsi**

Həccin digər bir yönümü iqtisadi yönümdür. Həcc mərasimindən faydalanmaqla İslam məmləkətləri öz iqtisadi dayaqlarını möhkəmləndirə bilər. Bu iş nəinki Həcc amallarına zidd deyil, hətta bu mərasimin fəlsəfələrindən biridir.

İmam Sadiq (əleyhissəlam) Hişam ibn Həkəmin Həccin fəlsəfəsi ilə bağlı sualına cavab verərkən bildirir ki, bu İlahi vəzifənin faydalarından biri sərmayələrin bir şəhərdən o birinə hərəkətidir.[1]

Çox yaxşı olardı ki, müsəlmanlar bu mərasimdə İslam iqtisadi birliyinin bünövrəsini qoyaydılar. Əgər bu iş görülərsə, müsəlman məmləkətlərinin qazancı İslam düşmənlərinin cibinə axmaz, müsəlmanlar iqtisadi asılılıqdan qurtularlar.

Deyilənləri nəzərə aldıqda görürük ki, müsəlmanlar bu müstəsna fürsətdən faydalanıb bir sıra problemlərini həll edə bilərlər. Bəli, Həcc ibadətinin siyasi ideoloji, mədəni, iqtisadi faydaları var. Olsun ki, elə bu səbəbdən İmam Sadiq (əleyhissəlam) buyurur: “Nə qədər ki, Kə`bə evi yerindədir, İslam da yerində möhkəm dayanmışdır.”[2]

Amma çox əfsus ki, bütün bu faydalara göz yumur, Həcc səfərini əyləncə və səyahətə çeviririk. Bə`ziləri bu səfərdən özününümayiş məqsədi ilə istifadə edir.

---

“Vəsail”, c. 11, səh. 14, hədis 18.[1]

Həmin mənbə, səh. 3, hədis 5.[2]

Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) buyurur: “Elə bir dövr gələr ki, həmin dövrdə padşahlar əyləncə, varlılar qazanc, yoxsullar dilənmək üçün Həccə gedər.”[1]

**Sual:** Həcc kimlərə vacibdir?

**Cavab:** Aşağıda sadalanacaq şərtlərə malik insanlara ömründə bir dəfə Həccə getmək vacibdir: Həddi-büluğ həddində olsun; aqil olsun; Həccə getmək qüdrəti olsun; Həccə getməsi onun haram işə yol verməsinə, vacib bir işdən çəkinməsinə səbəb olmasın (haramı tərk etmək, vacibi yerinə yetirmək Həccdən mühümdür).

**Sual:** Həcc qüdrəti (istitaət) dedikdə nə nəzərdə tutulur?

**Cavab:** Insanın istitaətli (qüdrətli) sayılması üçün altı şərtin olması zəruridir:

1. Sağlamlıq, Həcc əməllərini yerinə yetirmə gücü;
2. Səfər xərcini ödəyəcək imkan;
3. Həccə gedən şəxsin himayəsində olanların Həccdən qayıdanadək xərclərinin ödənməsi;
4. Yolun maneəsiz olması, yolda insanın canı, şəxsiyyəti və malı üçün təhlükələrin olmaması;
5. Həcc əməllərini yerinə yetirmək üçün kifayət qədər vaxt olması;
6. Həccə getmək istəyən şəxsin elə bir işi və qazancı olmalıdır ki, Həccdən qayıtdıqdan sonra öz

Həmin mənbə, səh. 60, hədis 9.[1]

ehtiyaclarını və himayəsində olanların ehtiyacını ödəyə bilsin.

**6-Cihad:** Hər hansı bir ölkə tərəfindən müsəlmanlara hücum olunduğu təqdirdə, müsəlmanın canı, malı, namusu, dini və Vətəni təhlükəyə düşərsə, onları müdafiə etmək vacibdir.

Qur`an buyurur: **«Ağırlı və yüngüllü halda hamınız cihada qalxıb malınız və canınızla Allah yolunda vuruşun! Əgər bilsəniz, bu sizin üçün daha çox xeyirlidir!»**[1]

Cihad - İslamı zor gücü ilə başqalarına aşılamaq deyil. Cihad - İslamla insanlar arasında yaradılan maneləri aradan qaldırmaqdır. Cihad vasitəsi ilə İslamın yayılmasının qarşısını alan hər bir maneə aradan götürülür və bu zaman insanlara İslamı seçmək və ya seçməmək azadlığı verilir.

Qur`ani-Kərimdə "**Kim Allahı qə`bul eləməsə, onu öldürün**" - deyə bir ayə yoxdur. Ümumilikdə cihad ayələrində deyilir: Sizinlə vuruşan və sizi öldürmək istəyən şəxslərə qarşı cihad edin!

Allah-təala hətta düşmənlərin hüquqlarını qorumaq əmrini belə verir. Əl-Bəqərə surəsinin 190-cı ayəsində buyurulur: **«Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun və həddi aşmayın (döyüş zamanı şəriət və ağılın müharibə barəsindəki çərçivə və qanunlarından kənara çıxmayın, qanuni dəlil olmadan hücum etməyin, sülh müqaviləsi bağladığınız kəslərlə müharibə etməyin, zərərsiz**

---

"Ət-Tövbə" surəsi, ayə 41.[1]

**zəifləri öldürməyin, ölülərin bədən üzvlərini kəsməyin və malları səbəbsiz tələf etməyin, ağacları qırmayın və s.). Allah həddi aşanları sevmir.»**

Bu ayədən belə mə`lum olur ki, əgər bir nəfər sualını bildirmək və təhqiq etmək məqsədi ilə müsəlmanların yanına gəlsə, lakin yenə də İslamı qə`bul etməyib, müsəlman olmasa belə, tüəhlükəsizliyi qorunmalı və sağ-salamat halda qaytarılmalı və heç kəs də ona e`tiraz etməməlidir.

İslam əmr edir: **"Ey Vətən, din, namus uğrunda vuruşan döyüşçülər! Düşmən torpaqlarına daxil olduğunuz zaman uşaqlara, qadınlara, qocalara, xəstələrə toxunmayın! Evləri dağıtmayın, ağacları qırmayın və s...!**

Rəvayətlərdə ciddi diqqət yetirilmiş mövzulardan biri İslam məmləkətinin sərhədlərini qorumaqdır. Sərhədçinin ən böyük işi odur ki, düşmənin ayağı İslam torpağına dəyməsin. İmam Səccad (əleyhissəlam) öz dualarında məmləkətin sərhədləri üçün dua edir.

Cihad behişt qapılarındandır. Allah-taala "Əl-Adiyat" surəsinin ilk ayələrində mücahidlərin atlarının nəfəsinə (tövşüməsinə), onların ayağından qalxan toza and içir. Öz haqları və namusu yolunda zalımlar və təcavüzkarlar qarşısında dayanmış millətlər bu yolda əzizlərini qurban verərək azadlıqlarını qoruyur və gələcək nəsillər tərəfindən sevilirlər. Amma xoş güzaran, ötəri ləzzətlər səbəbindən cihaddan boyun qaçıranlar və zillət libası geyənlər isə tədrici ölümə

düçar olur, gələcək nəsillər tərəfindən məzəmmət edilirlər.

Qur`ani-Kərimdə buyurulur: **«Şübhəsiz, Allah Onun yolunda poladdan divar kimi səf çəkib döyüşənləri sevər.»**[1]

Həzrət Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) "Cihad edin ki, övladlarınıza şərəf və əzəmət miras qoyasınız."[2]

Allah-təala Vətən, din yolunda canını fəda edənləri yüksək qiymətləndirir. Belə ki, Qur`an buyurur: **«Allah yolunda öldürülənləri əsla ölü zənn etmə, əksinə, diridirlər və onlara Rəbbi yanında ruzi verilir**.»[3]

Unutmamalıyıq ki, bu gün İslam düşmənləri ilə mübarizə təkcə hərb sahəsinə aid deyil. İslamı əzəmətləndirən istənilən bir iqtisadi, elmi, ideoloji, siyasi təlaş - **cihad** sayılır. Ən önəmlisi İslamın müqəddəs məqsədlərini həyata keçirməkdir. Əl-ələ verərək biganələrin məkrli planlarını puça çıxarmaq hər bir müsəlmana vacibdir. Düşmənlərin İslam məmləkətlərinə uzanmış çirkin əlləri hər yolla kəsilməlidir.

## 7-8 Əmr be mə`ruf və nəhy əz münkər:

İslamda "əmr be mə`ruf" (yaxşılığa də`vət) və "nəhy əz münkər" (pisliklərdən çəkindirmək) adı ilə

---

"Əs-Səff" surəsi, ayə 4.[1]
"Vəsail", c. 15, səh. 15, hədis 16.[2]
"Ali-Imran" surəsi, ayə 169.[3]

tanınan ümumxalq nəzarəti İlahi bir vəzifədir. Başqa sözlə desək, hər bir müsəlmanın öz ailəsini və dini bacı-qardaşlarını vacib əməllərə və xeyr işlərə də`vət etməsi və həmçinin hər bir müsəlmanın öz ailəsini və dini bacı-qardaşlarını qadağan və haram olan əməllərdən çəkindirməsi zəruridir.

Hər iki vəzifə dinin əməli hökmlərindəndir və vacib sayılır. İlahi vəzifəyə əməl etməyən insan günaha batır və onun üçün axirət cəzası nəzərdə tutulur.

Allah-təala Qur`anda "əmr be mə`ruf" və "nəhy əz munkər" edən insanları əməli saleh adı ilə vəsf edərək onlara mükafat verəcəyini və`də verir. Bu haqda Qur`anın bu iki ayəsini xatırladırıq: **«Onlar Allaha və axirət gününə inanır, (insanlara) yaxşı işlər görməyi əmr edir, (onları) pis əməllərdən çəkindirir və xeyirli işləri görməyə tələsirlər. Onlar əməli salehlərdəndirlər. Onların yaxşılıq naminə etdikləri işlərdən heç biri mükafatsız qalmaz. Şübhəsiz ki, Allah müttəqi (pərhizkar) olanlara agahdır.»**[1]

Böyük cəmiyyət kiçik hissələrdən təşkil tapır və bu hissələrə **"ailə"** deyilir. Əgər ailə islah olunarsa, onda cəmiyyət tez bir zamanda islah olunar. Xüsusilə ictimada baş verən fəsadın güclü dalğaları çox təhlükəlidir. Bu dalğaları zərərsizləşdirmək üçün valideyn öz övladının əxlaq və tərbiyəsinə ciddi yanaşmalı, öhdəsində olan vəzifələri bacardığı qədər dəqiq yerinə yetirməlidir.

"Ali-Imran" surəsi, ayə 114-115.[1]

Bə`zi valideynlər müqəddəs və vacib bir vəzifə sayılan övlad tərbiyəsinə e`tinasız yanaşaraq övladlarının yalnız maddi yönümünü düşünür və bunun həlli üçün çarə axtarırlar. Onlar elə fikirləşirlər ki, uşağı yedirib-içirtmək, geyindirmək, məktəbə yola salmaq və xəstələnəndə dadına çatmaq lazımdır. Daha övladının mə`nəvi yönümü onları maraqlandırmır və onun əxlaqını tərbiyə etmək barədə düşünmək belə ağıllarına gəlmir. Əgər ata və ana həm özünün, həm də övladlarının səadətini düşünməsə, qarşıdan gələn əzaba hazırlaşmalıdır.

Qur`ani-Kərim buyurur: **«Ey iman gətirənlər, özünüzü və ailənizi yanacağı insanlardan və daşlardan ibarət olan oddan qoruyun! Onun (o odun) başında Allahın onlara verdiyi əmrdən boyun qaçırmayan, əmr olunanı yerinə yetirən, (danışıqda, əxlaqda və əzab verməkdə) sərt (daş qəlbli) və (cüssədə və iradədə) qüvvətli mələklər durmuşlar.»**[1]

Rəvayətlərin birində belə deyilir: "Qiyamət günü övlad öz valideyninə şikayət edib deyəcək: Nə üçün məni haramla böyütdün? Nə üçün namazı mənə sevdirmədin? Nə üçün mənə doğru yolu nişan vermədin? Nə üçün dini mənə öyrətmədin?...Sonra övladlar Allah-təalaya belə deyəcəklər: İlahi! Ata-anamız doğru yolu göstərmək əvəzinə bizə zülm edib haqqımızı tapdaladı. Indi ki, bizi Cəhənnəmə

"Ət-Təhrim" surəsi, ayə 6.[1]

aparırsan, valideyinlərimizi də bizdən ayır və onlara da Öz əzabını şamil et!” [1]

Bu baxımdan da bütün insanlar istər ailədə, istərsə də cəmiyyətdə öz əməlləri və başqalarının əməllərinə görə mə`suliyyət hiss etməlidirlər. Çünki, insanların taleyi bir-birindən asılıdır. Istənilən bir çirkin əməl və günah hansısa dərəcədə ictimai bəlaya çevrilir.

Qur`an və hədis baxımından imanlı insanlar bir-birləri qarşısında mə`suliyyət daşıyırlar. Onlar bir-birlərini yaxşılığa çağırmağa və pislikdən çəkindirməyə borcludurlar.

Əziz Peyğəmbərimiz (salləllahu ələyhi və alihi və səlləm) belə buyurur: “Bilin ki, hamınız gözətçisiniz və gözətçi olduğunuz insanların qarşısında məs`uliyyət daşıyırsınız. Belə ki, İslam hökumətinin başçısı bütün camaatın gözətçisidir və buna görə də o, məs`uliyyət daşıyır. Kişi öz ailəsinin gözətçisidir və o, buna görə məs`uliyyət daşıyır. Qadın da həmçinin ailəsinin gözətçisi və məs`uliyyət daşıyanıdır. Agah olun! Hamınız mə`mursunuz və mə`mur olduğunuz insanların qarşısında məs`uliyyət daşıyırsınız.”[2]

Allah-taala Qur`ani-Kərimdə əmr be mə`ruf və nəhy əz munkəri müsəlmanların imtiyazı sayır. Bu imtiyaz səbəbindən müsəlmanlar ən üstün ümmət adlandırılırlar. [1]

---

“Tərbiyəte fərzənd”, səh. 18-19.[1]
“Təfsire numunə”, c. 24 , səh. 307.[2]

“Ali-Imran” surəsinin 110-cu ayəsində belə buyurulur: **«Siz (müsəlmanlar), (Allah tərəfindən dünyanın) insanlar(ın)a zahir olmuş ən yaxşı ümmətsiniz, bəyənilən işə əmr edir və çirkin işdən çəkindirirsiniz və Allaha (nazil etdiyi şeylərdə) iman gətirirsiniz.»**

Bu vəzifəyə münasibətdə səhlənkarlıq, iman ruhunu zəiflədir, onun sütunlarını laxladır. Nəticədə, cəmiyyətə rəhbərlik ləyaqətli insanların əlindən çıxır, şər insanların əlinə düşür. Bəli, əmr be mə`ruf və nəhy əz munkər yoxsa, müsəlmanlar izzət zirvəsindən zillət uçurumuna yuvarlanırlar.

Bu İlahi göstərişin əhəmiyyətini lazımınca dərk etmək üçün dini rəhbərlərin bir sıra buyuruqlarını nəzərdən keçirək.

**1.** Həzrət Peyğəmbər (salləllahu ələyhi və alihi və səlləm) buyurur: “Mənim ümmətimin ən uca şəhidi zalım hakim qarşısında dayanıb, onu yaxşılığa çağıran, pislikdən çəkindirən və bu yolda öldürülən şəxsdir. Belə bir şəhidin yeri behiştdə Həmzə ilə Cə`fər arasındadır.” *(“Məalimul-qurbə fi əhkamul həsbə”, səh. 68).*

**2**. Həzrət Əli (ələyhissəlam) buyurur: “Bütün yaxşı işlər, hətta Allah yolunda cihad belə əmr be mə`ruf və nəhy əz munkərlə müqayisədə dənizlə müqayisədə damla kimidir.” *(“Vəsail”, c.16, səh.134).*

**3.** İmam Baqir (ələyhissəlam) buyurur: “Əmr be mə`ruf və nəhy əz munkər Allahın vacib buyurduğu iki vəzifədir. Bu iki əmr vasitəsi ilə digər vacib əmrlər

bərpa olar, yollarda əmin-amanlıq yaranar, qazanclar halal olar, insanların haqları tə`min edilər, yer üzü abadlığa doğru gedər, Allah düşmənlərindən intiqam alınar, bütün işlər yoluna düşər.” *(“Vəsail”, c.119, səh.6).*

**4.** İmam Riza (əleyhissəlam) buyurur: “Əmr be mə`ruf edib pisliklərin qarşısını alın. Yoxsa pis adamlar sizə hakim olar, yaxşılarınızın da duası qə`bul olmaz.” *(“Vəsail”, c.118, səh.4).*

Insanlar cəmiyyətə nəzarət etməyə və başqalarının rəftarlarına biganə qalmamağa borcludur. Hər bir müsəlman imkan həddində və müəyyənləşdirilmiş şərtlər əsasında insanları doğru yola çağırmalı, pis işlərdən çəkindirməlidir. Çünki əmr be mə`ruf və nəhy əz münkərin tərki cəmiyyətin fəsada sürüklənməsinə, din və şəriət hökmlərinin yaddan çıxmasına səbəb olur. Nəticədə pak insanlar da fəsada uğrayır. Bu İlahi vəzifəyə əməl etməyənlər dünya və axirətdə cəzalanır.

Əziz İslam Peyğəmbəri (salləllahu əleyhi və əlihi və səlləm) bu barədə buyurur: “Bir dəstə insan gəmiyə minir. Onların hər biri gəmidə öz yerini tutur. Bu vaxt bir şəxs öz oturduğu yeri deşməyə başlayır. Ondan nə etdiyini soruşurlar?! Cavab verir ki, bu yer mənimdir və istədiyimi edirəm! Bu adamın qollarını bağlasalar, həm onun özünü, həm də başqalarını xilas etmiş olarlar. Əgər onun əllərini tutmasalar, həm özünü qərq edər, həm də başqalarını.”[1]

---

“Səfinətul-bihar”, c. 8, səh.388 və “Kənzul-ummal”, c. 3, səh. 69-70, [1] hədis 5533.

Rəvayətdən aydın görünür ki, ləyaqətsiz işlər qarşısında sükut etməyin əhatəli ağrıları var. Əgər həmin insanın qarşısı alınmasa, hamı suya qərq olar. Demək, cəmiyyətin hər bir üzvü vəzifəlidir ki, başqalarının əməlinə biganə qalmasın.

Qur`ani-Məcid buyurur: **«Sizlərdən əmr be mə`ruf və nəhy əz münkərlə tanış olan bir ümmət xalqı yaxşı işə çağırmalı, pis işlərdən çəkindirməlidir. Bu iki işi yerinə yetirənlər nicat tapmışlardır.»**[1]

Digər bir ayədə bir qrup günahkar lə`nətlənərkən buyurulur: **«Israil övladlarından kafir olanlar Davudun və Məryəm oğlu Isanın dili ilə lə`nətləndilər. Bu, onların itaətsizlik etmələri və həmişə (Allahın tə`yin etdiyi) həddi aşmalarına görə idi.»**[2]

Yaxşı olmazmı ki, özünü Peyğəmbərə (salləllahu ələyhi və əlihi və səlləm) ardıcıl sayanlar və O Həzrəti özünə nümunə hesab edənlər, “**mənə nə**?” deməyib, cəmiyyətdəki rəftarlara diqqətli olalar?!

Rəvayətdə İmam Hüseyn (ələyhissəlam) buyurur: “Ey insanlar! Allahın öz dostlarına verdiyi öyüddən ibrət götürün! Allah-təala buyurur ki, **«Mö`min kişilər və mö`minə qadınlar bir-birlərinin dost, yardımçı və başçılarıdırlar. (Bir-birlərinə ağıl və şəriət baxımından) yaxşı (hesab edilən) iş görməyi əmr edir və (ağıl və şəriət baxımından) pis (sayılan) işdən**

---

[1] “Ali-Imran” surəsi, ayə 104.
“Əl-Maidə” surəsi, ayə 78.[2]

**çəkindirirlər, namaz qılır, zəkat verir və Allah və Onun Peyğəmbərinə itaət edirlər.»**[1]

Allah-təala bilir ki, bu iki vəzifəyə əməl olunmasa, istər asan, istər çətin bütün başqa vəzifələrin də yolu bağlanacaq. Çünki əmr be mə`ruf və nəhy əz münkər İslama də`vətdir. Bu yolla məzlumun haqqı qaytarılır, sitəmkara qarşı çıxılır, beytül-mal [2] və qənimətlər ədalətlə bölünür...[3]

Əmirəl-mö`minin Əli (əleyhissəlam) əmr be mə`ruf və nəhy əz münkər vəzifəsinin əhəmiyyət və zərurəti haqqında buyurur: "Həqiqətən, Allah övliyalarına razılıq verməyib ki, yer üzündə günah baş verəndə onlar sakit dayansınlar, əmr be mə`ruf və nəhy əz münkərdən çəkinsinlər."[4]

Əmr be mə`ruf və nəhy əz münkərin əhəmiyyət və zərurəti ilə tanış olduqdan sonra onu tərk etməyin dünya və axirət tə`sirlərini araşdıraq:

1. İslam Peyğəmbəri (salləllahu əleyhi və əlihi və səlləm) buyurur: "Ya əmr be mə`ruf və nəhy əz münkər edin, ya da İlahi əzab hamınızı bürüyəcək!"[5]

2. Yenə də buyurur: "Mənim ümmətim dünyaya üz tutsa, İslamın şövkətindən məhrum qalar. Əgər əmr be mə`ruf və nəhy əz münkərdən əl çəksələr, vəhy bərəkətindən məhrum qalarlar."[6]

---

"Ət-Tövbə" surəsi, ayə 71.[1]
Yə`ni, "Islam büdcəsi."[2]
"Tuhəful-uqul", səh. 237.[3]
"Səfinə", c. 2, səh. 630.[4]
"Vəsail", c. 11, səh. 47.[5]
"Kənzul-ummal", səh. 607.[6]

3. Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) minbərə qalxdı, həmd-səna deyib buyurdu: “Ey camaat! Allah sizə buyurur ki, nə qədər ki, dualarınızı rədd etməmişəm, istədiyinizi alırsınız, məndən yardım görürsünüz, yaxşılığa çağırın, pisliyə qadağa qoyun.”[1]
4. Əmirəl-mö`minin (ələyhissəlam) buyurur: “Əmr be mə`ruf və nəhy əz münkəri tərk etməyin! Yoxsa Allah şər bir qövmü sizə hakim edər, nə qədər dua etsəniz də eşidilməz.”[2]

## Bir neçə tövsiyə

**1**. Əmr be mə`ruf və nəhy əz munkərdə məqsəd fərd və cəmiyyətin islahı olmalıdır. Insan canıyananlıq, xoş niyyətlə bu işi görməlidir. Əmr və qadağada intiqam hisslərinə, kin-küdurətə yol verilməməlidir.
**2**. Əmr və qadağada imkan həddində lütf və məhəbbət göstərilməlidir. Bu üsul ən tə`sirli üsuldur. Sərt rəftarların gözlənilməz nəticələri də olur. Peyğəmbərlərin və mə`sumların (ələyhimussəlam) rəftarlarından aydın olur ki, məhəbbət göstərməklə ən yola gəlməz adamları da islah etmək olur.
**3**. Bə`zilərinin əmr və qadağası tə`sirsiz qaldığı halda başqaları özlərini tə`sirli görərsə, bu yönümdə addım atmalıdır.

“Əl-təğrib vəl-tərhib”, c. 3, səh. 231.[1]
“Səfinətul-bihar”, c. 2, səh. 630.[2]

**4**. Bə`zən bu İlahi vəzifəni yerinə yetirmək bir nəfərin əlindən gəlmir və bu işdə ümumi şəkildə hərəkət edilməlidir.
**5**. Əmr və qadağa vəzifəsinin öz çətinlikləri var. Çünki bə`zi mənafepərəst insanlar həqiqəti asanlıqla qə`bul etmir. Onlar bə`zən insanları yaxşılığa çağırıb, pislikdən çəkindirənləri hədəfə alırlar. Demək, bu işdə səbirli və dözümlü olmaq, kiçik bir çətinlik gördükdə meydanı boş buraxmamaq lazımdır.

Həzrət Loğman öz oğluna nəsihətlərində deyir: **«Oğlum! Namaz qıl, insanları yaxşılığa çağır, pislikdən çəkindir. Bu işdə nə əziyyət çəksən səbirli ol, belə etməyin işlərdə sabitqədəmlik göstəricisidir.»**[1]
**6**. Hazırkı dövrdə mədəniyyət mərkəzlərinin yaradılması, kitab nəşri, radio və televiziya proqramları insanların əqidə, əxlaq və əməlinə əhəmiyyətli tə`sir göstərir. Bu istiqamətdə çalışmaq çox mühümdür. Hər kəs öz gücündə bu yönümdə addım atmalıdır. Kütləvi informasiya vasitələrində gözəl əxlaq, insani keyfiyyətlər, İslam mədəniyyəti təbliğ olunmalıdır. Bu istiqamətdə çeşidli proqramlar həyata keçirmək, qeyri-İslami, açıq-saçıq layihələrdən çəkinmək lazımdır.

“Loğman” surəsi, ayə 17.[1]

## Əmr be mə`ruf və nəhy əz munkərin şərtləri

**1**. Bu vəzifəni yerinə yetirmək istəyən insan “mə`ruf” və “munkəri” bir-birindən seçə bilməlidir. Nəyin yaxşı, nəyin pis olduğunu bilməyən şəxs uyğun vəzifəni yerinə yetirə bilməz.

**2**. Ehtimal olunmalıdır ki, əmr və qadağanın tə`siri olacaq. Əgər deyilən sözlərin tə`sirsiz qalacağı mə`lumdursa, bu vəzifə vacib deyil.

Şoranlıq torpaqda sünbül cücərməz,
Toxumu zay etmə, başqa bir yer gəz!

**3**. Bu vəzifənin yerinə yetirilməsi daha böyük fəsad yaratmamalıdır. Əgər insan bilərsə və ya ehtimal edərsə ki, bu vəzifəni yerinə yetirməsi onun və başqalarının canı, şəxsiyyəti və malı üçün ciddi zərərə səbəb olacaq, belə bir halda əmr və qadağa haramdır.

**4**. Əgər əmr be mə`ruf və nəhy əz munkər etmək istəyən insandan öncə kimsə bu işi görmüşsə və nəticə alınmışsa, əmr və qadağa vacib olmur. Başqaları onu yerinə yetirdiyi vaxt bu vəzifə insanın öhdəsindən götürülür.

Məndən qabaq demişlərsə bir sözü,
Qarışmağım yersiz olardı düzü.
Korun qarşısına çıxarsa quyu,
Mən görürkən kim çəkməli harayı?!

## Əmr be mə`ruf və nəhy əz munkərin mərhələləri

Bu mühüm vəzifəni yerinə yetirmək üçün dərəcə və mərtəbələr mövcuddur. Əgər aşağı mərtəbə ilə məqsədə çatmaq mümkün deyilsə, növbəti mərhələyə geçmək olar. Bu mərtəbələrlə tanış olaq:

1. **Rəftarla hərəkət:** Ilk addımda günahkarla elə rəftar edilməlidir ki, o günaha görə bu rəftara mə`ruz qaldığını hiss etsin. Məsələn, ondan üz çevirmək, xoş davranmamaq, get-gəli kəsmək nümunə göstərilə bilər.
2. **Dillə hərəkət:** Bu mərhələdə günahkara nəsihət verilir, o doğru yola çağırılır. Əgər moizə-nəsihət tə`sir etmirsə, sərt danışmaq lazımdır.
3. **Əməli hərəkət:** Əgər günahkarı zor göstərmədən pis işdən çəkindirmək və ya yaxşı işə sövq etmək mümkün deyilsə, ona güc göstərilməlidir. Amma bu addım qarşı tərəfin yaralanması və ya ölümü ilə nəticələnə bilərsə, özbaşına hərəkət etmək olmaz. Bu şəraitdə zəruri şərtlərə malik müctəhiddən icazə alınmalıdır.

Bəli, hörmətli oxucu! Ətrafdakıları yaxşı işə təşviq edib, pisdən çəkindirmək hər bir müsəlmanın vəzifəsidir. Əmr be mə`ruf və nəhy əz münkərin mə`nası budur ki, xeyir əməllər artsın, pis işlər azalsın. Amma unutmaq olmaz ki, bu olduqca incə bir vəzifədir və başqalarının reaksiyasına səbəb olur.

Onun öz şərtləri var və bu şərtlərə ciddi riayət etmək lazımdır:

**a)** Əmr və nəhy edən (əmr edib qadağa qoyan) insan yaxşı işi pis işdən seçə bilməlidir. Məbada, əmr be mə`ruf və nəhy əz münkər adı altında kiməsə pis iş əmr olunsun, yaxşı işdən çəkindirilsin.

**b)** Qarşı tərəf, yə`ni əmr və qadağa ünvanı olan kəs günahda israrlı olmalıdır. Bir şəxs pis iş görüb sonra tövbə edərsə, ona münasibətdə əmr be mə`ruf və nəhy əz münkər lazım deyil.

**v)** Əmr edən və ya qadağa qoyan kəs öz əmr və qadağasının tə`sirinə ümid etməlidir.

**q)** Diqqətli olmalıyıq ki, bizim əmr və qadağamız özümüzə və ya cəmiyyətə zərərli olmasın.

Istənilən bir halda qeyd olunan şərtləri nəzərə almaqla əmr be mə`ruf və nəhy əz münkər vəzifəsini icra etmək cəmiyyətin islahına və əmin-amanlığına xidmət edir, həmçinin ağıl və şəriət baxımından bəyənilir.

**9-10 Təvəlla və Təbərra:** Hər bir müsəlman "təvəlla" və "təbərra" göstərişinə əməl etməlidir və bu vəzifədən boyun qaçıran günaha batır.

Təvəllanın mə`nası sevmək, dost tutmaq deməkdir. Yə`ni hər bir müsəlmanın Allah-təalanı, Peyğəmbəri (salləllahu ələyhi və əlihi və sələm), mə`sum İmamları (ələyhimussəlam) və onların dostlarını sevməsi;

Təbərranın mə`nası isə bizar və nifrət etmək deməkdir. Yə`ni hər bir müsəlmanın Allah-təalanın,

Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm), mə`sum İmamların (ələyhimussəlam) və onların dostlarının düşmənləri ilə düşmən və habelə onlardan bizar olması;

Təvəlla və təbbərra haqqında Allah-təala Qur`ani-Kərimdə belə buyurur: **«(Ey Peyğəmbər)! De: Mən sizdən öz risalətimin (Peyğəmbərliyimin) əvəzində, Əhli-beytimə məhəbbət bəsləməkdən başqa heç bir əcr (mükafat) istəmirəm.»**[1]

Mübarək ayədə gələn "Əhli-beyt" (ev əhli) Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) ən yaxınları ən əzizləri sayılır. Və bu şəxslər Həzrət Əli (ələyhissəlam), Həzrət Fatimə (səlamullahi ələyha) və Onların övladları (on bir İmam)dır.

Dost olmaq dedikdə, sadəcə qəlb istəyi yox, 12 mə`sum İmama (ələyhimussəlam) və onların hər birinin üç məqamına e`tiqad nəzərdə tutulur:

**1)** Dini rəhbərlik (vilayət) məqamı.

**2)** Mühakimə məqamı.

**3)** Siyasi rəhbərlik məqamı.

Buna əsasən mə`sumları (ələyhimussəlam) əməl və rəftarlarımızda nümunə götürmək vəzifəmizdir. Onların dini, siyasi məhkəmə və hüquqi göstərişlərini yerinə yetirmək vacibdir. Mə`sumların söz və əməlləri dəlil sayılmalıdır. Əgər belə etmiş olsaq, təvəlla vəzifəsini yerinə yetirmişik.

[1] "Əş-Şura" surəsi, ayə 23.

Təvəlla vəzifəsini bildikdən sonra təbərra vəzifəsi də aydınlaşır. Yə`ni hər bir müsəlman Allah dostu olan Həzrət Əli (əleyhissəlam), Həzrət Fatimə (səlamullahi əleyha) və Onların övladları ilə düşmənçilik edənlərə düşmən olmalıdır. Vilayət (dini rəhbərlik) düşmənlərinin əməl və rəftarları heç bir sahədə dəlil ola bilməz və onlardan nümunə götürmək qadağandır. Təbərraya əməl etməsək, günaha batmış oluruq və buna görə cavab verəsiyik.

## Mə`sumların (əleyhissəlam) nəzərində təvəlla və təbərranın əhəmiyyəti

Əziz Peyğəmbərimiz (salləllahu əleyhi və əlihi və səlləm) buyurur: "Əlinin vilayəti (rəhbərliyi) Allahın vilayətidir, Ona məhəbbət ibadətdir. Əli vilayətinə tabeçilik İlahi vacib göstərişdir. Onun dostları Allahın dostları, Onun düşmənləri Allahın düşmənləridir. Onunla savaş Allahla savaşdır, Onunla sülh Allahla sülhdür."[1]

Zürarə[2] İmam Baqirin (əleyhissəlam) dilindən belə nəql edir: "İslam beş əsas üzərində qurulub: Namaz, zəkat, həcc, oruc və vilayət." Zürarə sual edir ki, bu beş şeydən ən üstünü nədir? Həzrət (əleyhissəlam) buyurur: "Vilayət daha üstündür. Çünki o biri dörd

[1] Şeyx Səduq, "Əmali", səh. 32.

[2] İmam Baqir və İmam Sadiqin (əleyhiməssəlam) ən yaxın şagirdlərindən biri.

şeyin açarı vilayətdir, vəliyy (İmam) insanları onlara yönəldir.”[1]

Əbuzər[2] Həzrət Peyğəmbərin (salləllahuələyhi və əlihi və səlləm) mübarək dilindən belə nəql edir: “Nuhun gəmisi onun qövmü üçün necə idisə, Mənim Əhli-beytim də sizin üçün elədir. Ona süvar olan nicat tapar, üz döndərən isə qərq olar.”[3]

## Saleh əməllərin qə`bulunda təvəlla və təbərranın rolu

Təvəlla və təbərra saleh əməllərin qə`bulunda əsas şərtlərdən sayılır. Bu iki vəzifəyə əməl etməyən insanın heç bir əməli qə`bul deyil. Bu mövzuda xeyli rəvayət nəql olunmuşdur.

1-İmam Səccad (ələyhissəlam) Həzrət Peyğəmbərdən (salləllahu ələyhi və əlihi və səlləm) belə nəql edir: “Ibrahim ailəsi yad edilərkən sevinib, lakin Məhəmməd ailəsi yad edilərkən qəlbi nifrətlə dolan qövmlərin halı necə olacaq?! And olsun Məhəmmədin canı əlində olan kəsə, Qiyamət günü yetmiş Peyğəmbərin əməlini gətirən kəs Mənim və Mənim Əhli-beytimin vilayətindən uzaq olsa, əməlləri qəbul olunmaz.”[4]

---

[1] “Bihar”, c. 76, səh. 187.

Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) ən yaxın [2] səhabələrindən biri.

“Bihar”, c. 27, səh. 112. [3]

“Mustədrakul-vəsail”, c. 1, səh. 150. [4]

2-Əbu Həmzə Somali[1] nəql edir ki, İmam Baqirə (əleyhissəlam) dedim: "Ey Peyğəmbər oğlu, Sənə fəda olum, bir şəxs gündüz oruc tutub gecəni ibadət etsə, sədəqə versə və sizin vilayəti qə`bul etməkdən savay bütün xeyir işləri görsə, necə olacaq? İmam (əleyhissəlam) gülümsünüb buyurdu: "Mən yer üzünün ən üstün yerlərində varam. Əgər bir bəndə ömrünün sonunadək daim rükn və məqam arasında səcdədə qalsa, amma bizim vilayəti tanımasa, ibadətdən bir fayda götürməz."[2]

3-İmam Sadiq (əleyhissəlam) buyurur: "Bəndə Allah-təalanın hüzurunda dayandığı vaxt ondan ilkin olaraq vacib namazlar, zəkat, oruc, həcc və biz Əhli-beytin vilayəti soruşular. Əgər bizim vilayəti qəbul edib bu e`tiqadla ölsə namazı, orucu, zəkatı, həcci qəbuldur. Əgər Allah hüzurunda bizim vilayəti təsdiqləməsə, Allah onun heç bir əməlini qəbul etməz."[3]

4-İslam Peyğəmbəri (salləllahu əleyhi və əlihi və səlləm) bu mövzuda buyurur: "Əgər bir şəxs ömrünün bütün gecələrini ibadətdə, bütün gündüzlərini oruc tutmaqla keçirsə, bütün sərvətini sədəqə versə, ömür boyu həccə getsə, amma Allah vəlisinin vilayətini tanımasa, Allahdan mükafat gözləməsin, o mö`minlərdən sayılmayacaq."[4]

---

İmam Baqirin (əleyhissəlam) ən yaxın şagirdlərindən biri.[1]

"Camiul-əhadis", c. 1, səh. 427.[2]

Həmin mənbə, səh. 429.[3]

"Səfinə", c. 2, səh. 691.[4]

Yerin fələklərin qoynunda olsa,
Varlığın Kövsərdən əgər can alsa,
Miskinsən, fəqirsən, boşdadır əlin,
Nəzərin Əlidən kənarda qalsa.

5-Digər bir rəvayətdə Allahın Rəsulu (salləllahu ələyhi və əlihi və səlləm) buyurur: "Hər kəs dövrünün İmamını tanımamış ölsə, yə`ni itaəti vacib olan İmamı tanımasa, cahiliyyət və bütpərəstlik dövrünün adamları kimi ölmüşdür."[1]
6-Zəməxşəri, Fəxr Razi kimi böyük alimlər belə bu hədisi mö`təbər saymağa məcbur olmuşlar: Həzrət Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) buyurur: "Məhəmməd ailəsini sevən halda ölən, şəhid ölmüşdür, Məhəmməd ailəsini sevən halda ölən, bağışlanıb ölmüşdür, Məhəmməd ailəsini sevən halda ölən, tövbəkar ölmüşdür, Məhəmməd ailəsini sevən halda ölən, kamil imanla ölmüşdür... Məhəmməd ailəsinə düşmən vəziyyətdə ölən kafir olaraq ölmüşdür. Məhəmməd ailəsinə düşmən halda ölən behişt ətri duymayacaq."[2]

Bu iki alim də digər alimlər kimi hədisi ört-basdır edə bilmədiklərindən onun mə`nasını təhrif etmiş, bildirmişlər ki, hədisdə qəlb məhəbbəti nəzərdə tutulur. Hansı ki, Həzrət Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm Əhli-beyt (ələyhissəlam) məhəbbəti

---

"Bihar", c. 65, səh. 269.[1]
"Təfsiru-kəbir", Fəxri Razi, c. 27, səh. 166 və "Əl-kəşşaf", Zəməxşəri, [2] c. 4, səh. 49.

dedikdə, sadəcə qəlb məhəbbəti yox, itaət nəzərdə tutmuşdur.

Əhli-beytə (əleyhissəlam) məhəbbəti təvəlla və təbərra kimi iki vəzifəni digər əməllərin qə`bulu üçün şərt saymalıyıq. Əhli-beyt (əleyhissəlam) dostları ilə dostluq, onların düşmənləri ilə düşmənçilik müsəlmana şəxsiyyət, hörmət gətirir.

Bülbülü tanıdan eşqidir inan,
Bir mücəssəmədir sevgisiz insan.

## Doqquzuncu fəsil

# TƏQLID

Təqlid lüğətdə “bir kəsin ardınca getmək” mə`nasındadır. Ağıl və fitrət tələb edir ki, insan bilmədiyi və mütəxəssis olmadığı sahələrdə həmin biliklərə sahib olan mütəxəssisə müraciət etsin. Mütəxəssisin sözlərini qə`bul etmək təbii bir ehtiyacdır. Istənilən bir millətdən, istənilən bir dindən olan düşüncəli insanlar cahilin alimə müraciətini qə`bul edir. Beləcə, bilmədiyimiz sahələrə ehtiyac duyduqda mütəxəssislərə üz tutur, onların biliklərindən faydalanırıq.

Xəstələnən insan həkimə, ev tikmək istəyən insan mühəndisə, məhkəmə iddiası qaldırmaq istəyən şəxs vəkilə müraciət edir. Istənilən bir sahədə cahilin, yə`ni bilməyən bir şəxsin alimə müraciəti fitrət və ağılın tələbidir. Xəstəni məcbur etmək lazım deyil ki, o həkimə üz tutsun. Çünki o özü yaxşı bilir ki, xəstəlikdən yaxa qurtarmaq üçün həkimə müraciət olunmalıdır.

Yuxarıda deyilənləri nəzərə alsaq, aydın olar ki, dini vəzifələrini, şər`i hökmləri bilməyən insanın uyğun sahədə mütəxəssislərə müraciət edib ehtiyac duyduğu mə`lumatı alması təbii bir addımdır. Din sahəsində mütəxəssis müctəhid adlanır. Deməli, müctehidə tabe olmaq, yə`ni öz əməllərini onun

fətvasına uyğun şəkildə yerinə yetirmək – “təqlid” adlanır.

Hətta ayə və rəvayətləri bir kənara qoysaq, müctəhidə təqlidi qə`bul etməliyik və bilməliyik ki, belə bir müraciət cahilin alimə müraciətinin bir növüdür. Hansı sahədə bilməyən insan bilənə müraciət etmirsə, səhvə yol verir və zərərə düşdükdə üzürlü sayılmır.

Düşüncə sahibləri ixtiyarında şər`i məsələlərin açıqlandığı risalə olduğu halda bu risaləyə müraciət etməyib özbaşına addım atan və nəticədə xətaya yol verən şəxsi məzəmmət edirlər. Din aliminə müraciət etmədiyindən dini vəzifələrində səhvə yol verən şəxsin Allah hüzurunda üzrü olmayacaq. Demək, ağıl və fitrətin tələbi olan alimə müraciət məsələsinə diqqətsizlik insan üçün problemlər yaradır. Alim həm şifahi, həm də yazılı şəkildə göstəriş verə bilər. Əsas məsələ uyğun göstərişlərdən istifadədir.

Əgər təqlid olmasaydı, insanın danışıq dili, yazı xətti olmazdı. Təqliddən imtina edən insan yazıb-oxumaq kimi misilsiz dəyərlərdən məhrum olar, öz əcdadlarının elmi və mədəni irsindən faydalana bilməzdi. Iş başına gələn istənilən bir nəsil, özündən əvvəlki nəslin təcrübələrindən faydalanmalı, öz ictimai həyatını nizamlamaq, ehtiyaclarını aradan qaldırmaq üçün onlara təqlid etməlidir. Demək, keçmiş irsin mənimsənilməsində aparıcı amil təqliddir. Əgər öz həyatımızda ata-babalarımızın təcrübələrindən faydalanmasaydıq, onların mə`lumatlarından istifadə

etməsəydik, hətta yemək və geyim kimi ehtiyaclarımızın tə`minində misilsiz problemlərlə üzləşərdik. Axı keçmiş təcrübələrdən faydalanmadan xörək bişirmək, libas tikmək, ev tikmək necə mümkün olar?! Bəşəriyyət təqliddən imtina etsəydi, hazırkı təkamüldən məhrum olardı. Bəli, keçmiş elmi, mədəni biliklərdən faydalanmanın ən əsas amili təqliddir.

Din bilicisi olan müctəhidlər özləri də xəstələndikləri vaxt həkimə müraciət edirlərsə, həkimin dini məsələdə müctəhidə təqlid etməsi nə üçün təəccüb doğurmalıdır?!

Diqqət etməliyik ki, söhbət adi alimdən yox, təqva sahibi olan zikr əhlindən gedir. Rəvayətlərə əsasən agah, ədalətli, nəfsinə qalib gələn alimlərə təqlid olunmalıdır. Sənədsiz ev, avtomobil qeyri-qanuni hesab olunduğu kimi, təqlidsiz əməl də batildir.

Qanunlar və ədalət bəşəriyyətin mütəxəssislərə, alimlərə təqlidi sayəsində tə`min olunur. Düzgün təqlid nəticəsində cəmiyyətdəki nizamsızlıqlar, hərc-mərcliklər aradan qaldırılır. Insan mə`lumatsız olduğu peşə və ixtisaslara müdaxilə etməməli, rəy bildirməməlidir. Buna əsasən də Qur`an buyurur: **«(Özümüzün insanlarla olan əlaqələrimizi möhkəmləndirmək üçün) səndən öncə də yalnız vəhy etdiyimiz kişilər göndərdik. Buna görə də əgər bilmirsinizsə, zikr əhlindən (öz əsrinizin din mütəxəssislərindən) soruşun!»**[1]

---

[1] "Ən-Nəhl" surəsi, ayə 43.

Insanın bir çox mə`lumat və bilikləri təqlid yolu ilə əldə etdiyini nəzərə alsaq, şübhə yeri qalmaz ki, hər hansı sahədə mə`lumatlanmaq üçün ən yaxşı yol layiqli ideal bir insana müraciət edilməsidir. Bütün bunlardan agah olan Allah-təala insana xeyirxahlıq göstərərək Həzrət Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) və onun mə`sum canişinlərini[1] (ələyhimussəlam) tə`yin etmişdir. Bu İlahi nümunələr insanın maddi və mə`nəvi təkamülü üçün geniş üfüqlər açır. Səadət və təkamül yolunda addım atanlar bu nümunələrdən parlaq günəş kimi faydalanır.

Mə`sumların olmadığı, eləcə də İmam Mehdinin (ələyhissəlam) qeyb dövründə İslam cəmiyyətinin mə`lumatlandırılması, hidayəti din alimlərinin və müctəhidlərin üzərinə düşmüşdür. Bu layiqli davamçılar öz həyatlarını dinin qorunmasına və təbliğinə sərf etmişlər. Onlar dinimizin dəyərlərini bədxahların və vəsvəsəçilərin hücumlarından qorumağa çalışmış, öz İlahi missiyalarını yerinə yetirmişlər. Bütün bunları nəzərə aldıqda şübhə yeri qalmır ki, İmam Mehdinin (ələyhissəlam) qeyb dövründə ehtiyac həddində bu insanlara təqlid zəruridir. Həqiqətin kəşfi və məqsədə çatmaq üçün mütəxəssislərə təqlidin zəruriliyi aydın olsa da, bə`ziləri din rəhbərinə təqlidə qarşı çıxır, saxta arqumentlərlə əsaslandırmağa çalışırlar ki, insanın seçim azadlığı var və o istədiyi kimi hərəkət edə bilər.

[1] “Yə`ni, 12 İmam.

Onlar bu təbliğatları ilə cəmiyyətin, xüsusi ilə gənc nəslin düşüncəsini zəhərləyirlər.

Bəli, təqlidə qarşı şeytani təbliğatlar planlı şəkildə həyata keçirilir. Ilk növbədə müqəddəsliklərə və dinə münasibətdə biganəlik yaradılır. Uyğun yönümdə fəaliyyətlər dünya imperializmi tərəfindən himayə olunur, hər yolla dini dəyərlərin insanların həyatından sıxışdırılıb çıxarılmasına cəhd göstərilir. Təqlidə münasibətdə şübhə yaradanlar təkcə təqlid mövzusunu yox, bütün dini dəyərləri sual altına alırlar.

## Kimə təqlid etməli?

Həyatımız əsasən iki əsas üzərində qərar tutmuşdur. Əsasların biri bilmək, digəri isə həmin bilikdən istifadə etməkdir. Ikinci əsas da birinci əsasa ehtiyaclıdır. Demək, həyatda ilk addım bilikdən başlayır.

Məhz bu məqamda daxilimizdəki bir meyl bizim köməyimizə çatır və səadət qapılarını bizim üzümüzə açır. Bu meyl "təqlid"dir. Bilirik ki, körpə həmin bu meyllər əsasında danışmağa başlayır, oturub-durmağı öyrənir, hər gün mərhələ-mərhələ həyat pillələri ilə yuxarı qalxır. O, yaşa dolduqca başqalarının biliklərinə daha diqqətli olur, varlıq aləmindəki mövcudlardan xəbər tutur və öz insanlıq vəzifələrini anlayır.

Amma burada əsas bir nöqtəyə diqqət yetirmək lazım gəlir. Bütün işlərdə başqalarına təqlid etmək düzgün deyil. Təqlidin bir neçə növü var:

1. **Cahilin cahilə təqlidi** (bilməyənin bilməyənə təqlidi):

Mə`lum məsələdir ki, bu növ təqlid insanı nəinki xoşbəxt etmir, hətta onu süquta uğradır. Təəssüf ki, bizim cəmiyyətimizdə bir çox insanlar kor-koranə şəkildə müxtəlif məsələlərdə başqalarına təqlid edirlər. Onlar müxtəlif həyat məsələlərində, eləcə də, geyim, yemək, ad qoyma və digər işlərdə başqalarını yamsılamağa çalışırlar. Bə`zən insanlar heç bir əsas olmadan iman və əxlaq baxımından da başqalarına təqlid edirlər. Məhz həmin bu cür təqlid haqqında məşhur bir şe`rdə deyilir:

Təqlid düçar etdi bəşəri dərdə,
Min bir lə`nət olsun belə təqlidə.

Qur`ani-Kərimdə də bu növ təqlidi məzəmmət edən ayələr nazil olmuşdur. Məsələn, bütpərəstlər Həzrət Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) e`tirazları müqabilində deyirdilər: **«Onlara deyildikdə ki: "Allahın nazil etdiyinə (kitabına və dini qayda-qanunlarına) tabe olun", deyərlər: "(Xeyr,) biz atalarımızdan gördüyümüzə (bütlərə ibadətə və cahiliyyət adətlərinə) tabe oluruq!" Bəs Şeytan onları**

**(Cəhənnəmin) yanar əzabına tərəf də`vət edirsə necə?! (Yenədəmi onlara tabe olarlar?!)»**[1]

Yaxud: **«Onlar pis bir iş gördükləri zaman “atalarımızı belə gördük” və “bizə bunu Allah əmr etmişdir” deyərlər. De: “Allah əsla ris işə əmr etməz. Bilmədiyiniz bir şeyi Allaha nisbət verirsiniz?!”»**[2]

Qur`an belə bir məntiqi şiddətlə məzəmmət etmişdir.

2. **Alimin cahilə təqlidi:** Şübhəsiz ki, belə bir təqlid əvvəlki təqliddən də pisdir. Çünki alim öz elm və biliyi əsasında hərəkət etməlidir. Elm və biliyə sahib bir insanın öz elmindən faydalanmayıb, kor-koranə nadan bir şəxsə təqlid etməsi ən çirkin təqliddir.

3. **Alimin alimə təqlidi:** Alim olan şəxs mütəxəssis və nəzər sahibi olduğu sahədə öz həmkarına təqlid etməməlidir. Və öz elmi biliklərinə əsaslanaraq vəzifəsini müəyyənləşdirməlidir. Fəqihlər buyururlar ki, ictihad mərhələsinə çatmış şəxs öz ictihadına əməl etməlidir. Bu cəhətdən də ictihad icazəsində adətən yazılır: “Bu şəxsin təqlid etməsi haramdır.” Ictihada çatmış şəxs öz nəzərinə əsasən əməl etməlidir. Əlbəttə ki, elmi məsələlərdə başqa alimlərlə məsləhətləşməyin eybi yoxdur. Nəzərdə tutulan budur ki, alim qərar çıxararkən araşdırma aparmamış başqalarının nəzərinə təslim olmamalıdır.

4. **Cahilin alimə təqlidi:** Belə bir təqlid ağıl və fitrətin tələbidir. Həmin bu məntiqə əsasən, biz bina tikmək

---

“Loğman” surəsi, ayə 21.[1]

“Əl-Ə`raf” surəsi, ayə 28.[2]

üçün me`mara, bənnaya müraciət edirik. Libas tikdirərkən dərziyə, xəstələnərkən həkimə müraciət edilməsi təbii bir işdir. Biz sözlə, ağıl və fitrət bizi mütəxəssis ardınca göndərir.

Elə bu məntiqlə də dini tə`limlərdə, İlahi qanunlarda hökmləri ayırd etməkdə mütəxəssis olan fəqihlərə müraciət olunması tapşırılır. Fəqihlər öz iste`dadları ilə illər uzunu elm və bilik sorağınca gəzmiş və uca ictihad məqamına çatmışlar. Müctəhid ilkin qanunu İlahi mənbədən çıxarıb, sübuta yetirən və xalqa təqdim edən alimdir. Bu uca mənsəb fəqihlərə İmamlar (əleyhimussəlam) tərəfindən əta olunmuşdur. Məqsəd insanların səadət yoluna istiqamətləndirilməsidir.

Belə bir nöqtəni nəzərdən qaçırmaq olmaz ki, dünyəvi elmlərin müxtəlif sahələri var. Bir şəxs müəyyən elm sahəsində fövqəladə iste`dada malik olduğu halda, digər bir sahədən tamamilə xəbərsiz qala bilər. Ona görə də o bilmədiyi sahədə mütəxəssisə müraciət etməli, onun dediklərinə tabe olmalıdır.

Məsələn, astronomiya sahəsində böyük kəşfləri olan alim xəstələndiyi vaxt onun həkimə müraciət etməsi zəruridir. Bu şəxs astronomiyanı gözəl bilsə də, xəstəliklər və xəstəliklərin müalicəsi ilə tanış deyil. Həkim öz elminə əsaslanaraq astronomun xəstəliyini müəyyənləşdirir və onun üçün nüsxə yazır. Astronom həkimi heç bir sorğu-suala tutmadan onun dediklərinə əməl edir.

Deməli, aydın olur ki, dini məsələlərdə xalqın müctəhidə müraciət etməsi zəruridir. Həkim tibbdə mütəxəssisdirsə, müctəhid də ilahiyyatda mütəxəssisdir. Müctəhid bir ömür sərf edərək, sərf, nəhv, lüğət, kəlam, məntiq, təfsir, rical, dirayə, hədis, fiqh üsulu elmlərini oxumuşdur.

Bizim tez-tez müraciət etdiyimiz risalə fəqihin bir ömür zəhmətinin məhsuludur. Həmin risalələr alimlərin üzücü zəhmətləri hesabına başa gəlmişdir. Ictihad asan iş deyil. Ictihad dedikdə fərdi və ictimai həyatımızı əhatə edən İlahi qanunlar külliyatının öyrənilməsi nəzərdə tutulur.

Bunu da qeyd etməliyik ki, müctəhidin göstərişlərinə e`tiqadi yox, təkcə "əməli məsələlər"də təqlid olunmalıdır. Yə`ni, təqlid "furuuddin"ə aiddir, "usuluddin"ə yox! Allahı tanımaq, dirilməyə inam kimi üsul məsələləri İslam məktəbinin əsasını təşkil edir. Bu məsələləri möhkəm dəlillər əsasında qə`bul etmək zəruridir. E`tiqad məsələləri ilə elm və agahlıq yolu ilə tanış olan insan "əməli hökmlər"də bu sahədə mütəxəssis olan müctəhidlərə müraciət etməlidir. Allah-təala hətta hamıya cihadı vacib etmir və bir qisminin din elmini öyrənməsinin zəruriliyini vurğulayır. Belə ki, "Ət-Tövbə" surəsində oxuyuruq: **«Mö`minlərə hamılıqla döyüş cəbhəsinə köç etmələri yaraşmaz. Buna görə də, nə üçün onların hər bir cəmiyyətindən (kiçik) bir dəstə dərin elmi təhsil almaq üçün köç etmirlər ki, öz qövmlərini onlara**

**tərəf döndükdə qorxutsunlar, bəlkə onlar (batində və əməldə) çəkindilər?!»**[1]

Namazın, həccin, əmr be mə`rufun və nəhy əz munkərin və bir sıra digər "əməli hökmlər"in vacibliyini insan özü dərk etməlidir. Yə`ni müctəhiddən öyrənilən namazın **vacibliyi** yox, namazın **necəliyidir.** Insan əvvəlcə öz ağıl və düşüncəsi ilə namazın vacibliyini dərk etməli, sonra isə namazı necə yerinə yetirmək barədə müctəhiddən mə`lumat almalıdır. Bir sözlə, təqlid yalnız "əməli hökmlər"ə aiddir.

## Rəvayətlərdə təqlidin vacibliyi

Hicri-qəməri təqviminin 329-cu ilindən başlayaraq on ikinci İmam Məhdinin (ələyhissəlam) "böyük qeyb" *(Hal-hazırda 12-ci İmam uzun müddətli qeybdədir. Yə`ni, camaatın gözündən gizlidir. Inşaallah, Allahın izni ilə O, Həzrət Isa (ələyhiməssəlam) ilə zühur edəcək və yer üzündə ədaləti bərpa edəcəklər)* dövrü başlayır. Bu dövrdə müctəhidlik səlahiyyətinə malik olan alimlər İmamın ümumi nümayəndələri hesab olunur. Ümumi nümayəndə odur ki, İmam nümayəndə üçün lazım olan ümumi şəraiti deyir və bütün dövrlər boyu həmin şəraitə malik olan şəxslər (alimlər) də, İmamın

---

Ayə 122.[1]

nümayəndəsi olaraq müsəlmanların dini və dünyəvi işlərdə müraciət obyektinə çevrilir.

Mə`sum İmamlar xüsusən də, İmam Məhdinin (əleyhissəlam) özü bir çox rəvayətlərdə bu şəraiti müəyyənləşdirmiş və müsəlmanları böyük qeyb dövründə həmin şəraitə malik olan alimlərə müraciət edərək onlara tabe olmağı əmr etmişdir. Indi həmin rəvayətlərdən ikisini oxucuların nəzərinə çatdırırıq:

1)Ibn Hənzələ deyir: "İmam Sadiqdən (əleyhissəlam) soruşdum ki, əgər iki nəfər müsəlmanın borc, yaxud irs məsələsində mübahisələri olsa, bu məsələni aydınlaşdırmaq üçün dövlət qazısına müraciət edə bilərlərmi? İmam (əleyhissəlam) buyurdu: "Haqla batili ayırd etmək üçün onlara (dövlət qazılarına) müraciət edən şəxs həqiqətdə zalıma müraciət etmiş olur. Onun hökmü ilə əlinə gələn bütün şeylər hətta onun öz haqqı da olsa belə, haramdır. Çünki onu zalımın hökmü ilə ələ gətirmişdir. Halbuki, Allah-təala zalıma müraciət etməyi qadağan edərək buyurmuşdur: **«Onlar zalım məhkəməsinə müraciət etmək istəyirlər. Halbuki, onlara zalıma müraciət etməmələri əmr olunmuşdur. Şeytan onları uzun-uzadı bir zəlalətlə azdırmaq istəyir.»**[1]

Soruşdum ki, bəs onda nə etsinlər? İmam (əleyhissəlam) buyurdu: "Bizim rəvayətlərimizi söyləyəni, halal-haramımıza nəzər salıb hökmləri tanıyanı hakim tə`yin etməlidirlər. Çünki, Mən onu sizin üçün hakim tə`yin etmişəm. Əgər o, bizim

[1] "Ən-Nisa" surəsi, ayə 60.

buyurduğumuza əsasən hökm versə, lakin kimsə onun hökmünü qə`bul etməsə, Allahın hökmünü yüngül tutmuş və bizi inkar etmişdir. Bizi inkar edən isə Allahı inkar etmişdir. Bu isə eynilə Allaha şərik qoşmağa bənzər...”[1]

İmam Sadiqin (ələyhissəlam) bu əmri ümumi bir əmr olub bütün müctəhidlik səlahiyyətinə malik olan alimlərə aid olur. Əgər İmam Sadiq (ələyhissəlam) kiçik bir məsələdə mübahisə yaranarkən onun həllində zalım hakimə müraciət etməyə razı deyilsə, şübhəsiz ki, müsəlmanların digər işlərinə də zalımların nəzarət etməsinə razı olmaz. Buna görə də, O Həzrət (ələyhissəlam) bu kimi işləri ədalətli müctəhidlərinin öhdəsinə buraxmışdır.

2) Ishaq ibn Yə`qub deyir: “Məhəmməd ibn Osmandan məktubumu İmam Məhdiyə (ələyhissəlam) çatdırmasını istədim. Məktubda qarşılaşdığım çətin məsələləri yazmışdım. İmam (ələyhissəlam) məktuba Öz mübarək xətti ilə cavab yazmışdı. Yazdıqlarımdan biri də bu idi ki, (böyük) qeyb dövründə mübahisəli məsələlərdə kimə müraciət edək? İmam (ələyhissəlam) sualımın cavabında belə yazmışdı: Qarşılaşdığınız məsələlərdə bizim hədisləri söyləyənlərə müraciət edin! Onlar Mənim sizə olan hüccətim, Mən isə Allahın (sizə olan) hüccətiyəm.”[2]

## Onuncu fəsil

[1] “Usulu-Kafi”, c. 1, səh. 67.
[2] “Əl-ğaybət”, səh. 177.

## XURAFAT

“Xurafat” - ərəb lüğətində “xurafə” kəlməsinin cəmi olub, əslində, “yığılmış meyvə” mə`nasını daşıyır. Deyilənlərə görə, “Xurafə” Uzra qəbiləsinə mənsub bir kişinin adıdır. O, cinlərin əhvalından və sirlərindən xəbardar olub, onlardan gördüyü hər bir şeyi danışar, lakin heç kəs onun sözlərinə inanmazmış. Camaat onun sözlərini yalan sayaraq belə deyirdi: **“Bu söz Xurafənin uydurduğu sözdür, maraqlıdır, lakin yalandır!”**

Ibn Əsir yuxarıdakı dastanı dedikdən sonra eyni zamanda Rəsuli-Əkrəmin (salləllahu ələyhi və əlihi və səlləm) belə buyurduğunu nəql edir: “Xurafə macarasının həqiqəti var...”[1]

Dini kitablarda isə xurafat haqqında belə yazılır: “Xurafə və ya xurafat - əql, məntiq və həqiqət ilə uyğunlaşmayan əsassız e`tiqadlardan ibarətdir. Məsələn, 13 rəqəminin uğursuzluğuna, qara rəngin bədniyabətliyinə, çalağan quşunun naləsinin fəlakət gətirəcəyinə və s. inam bəsləmək.”[2]

---

[1] “Dairatul-məarife-təşəyyo”, c. 7, səh. 107, bölmə: Xurafat”.

[2]“Loğətnameye-Dehxoda”, bölmə: Xurafat.

## Xurafatın əsirlik zəncirləri

Bundan məqsəd, əsirləri bağlayan dəmir-polad zəncirlər deyil, ərəblərin bağlandıqları xurafi əqidə və batil e`tiqadlarıdır. Bu batil əqidələr, dərəcə e`tibarı ilə, dəmirdən hazırlanmış əsarət zəncirlərindən daha ziyanlı və yolxucu idi. Çünki dəmir zəncirlər bir gün, nəhayət açılıb qopacaq. Amma xurafi fikir və əqidələri aradan götürmək, batil etmək asan iş deyil. Hər kəs bu çətin işin öhdəsindən gələ bilməz. Buna görə də, Allah-təala camaatı bu əsarət zəncirlərindən azad etmək üçün xüsusi bəndələrini Peyğəmbər olaraq seçib. Onlar da mükəmməl şəkildə öz vəzifələrini yerinə yetirib, həqiqi azadlığı bəşəriyyət üçün sovqat gətiriblər. Həkim Calinus Həzrət Isa ibn Məryəmin (əleyhissəlam) hüzuruna göndərdiyi məktubda yazır: "Bədənlərin həkimindən ruhların həkiminə!"[1]

Bəli! İlahi Peyğəmbərlər (əleyhimussəlam) ruhların dini rəhbərləri, həkimləridirlər. Həkim olan Allah bütün Peyğəmbərləri (əleyhimussəlam) insanların ruhunun ağrı və xəstəliyinin müalicəsi üçün göndərmiş, bu təhlükəli və ağır məs`uliyyəti Onların öhdəsinə qoymuşdur.

Qur`an buyurur: «**Peyğəmbər, onların belində olan ağır yükü götürmək və əl-ayaqlarına bağlanmış zəncirləri açmaq üçün məb`us**[2] **olundu.**» [3]

---

[1] "Meracus-səadət", səh. 43.

Yə`ni, Allah tərəfindən göndərildi.[2]

[3] "Əl-Ə`raf" surəsi, ayə 157.

İslam əql və məntiq dinidir! Qur`anda ağıla zidd bir mətləb yoxdur. O, bir Kitabdır ki, onda ağıl ilə uyğunlaşmayan və zidd heç bir yazı yoxdur. Qur`anda olanlar, ya ağıla uyğundur, ya da ağılın fövqündədir[1].

Mövhumat və xurafi fikirlər, eləcə də qondarma adət-ən`ənələr özünə dini don geyib bütün imanlı şəxslərin fikir və əməllərinə kölgə salır, onun zərərli tə`sirləri isə fərdin ictimai-sosial həyatında özünü göstərir. Bu xurafi əməllər zaman keçdikcə camaat arasında bir adət kimi formalaşır, dinin həqiqi mahiyyətini dəyişir. Xurafat və qondarma adətlər çoxaldıqca, dində şəkk yaranır, insanların dinə olan saf imanı zəifləyir.

Dinin adına deyilən xurafi və qondarma adət-ən`ənələrin yayılmasının mənfi tə`sirləri İslam ümmətini azdıra biləcək qədər böyükdür.

Əziz Peyğəmbərimiz (salləllahu ələyhi və əlihi və səlləm) İslamın zəifləməsi, müsəlmanların dağılması və yox olması səbəbləri haqqında buyurur: "Müsəlmanların həlak olmasının biri "**tayfa və qəbilə təəssübkeşliyi**", o biri isə "**yalan rəvayətlər**"dir." [2]

Xurafi və səhv adət-ən`ənələrin yaranıb qə`bul olunmasında müxtəlif amillər (səbəblər) rol oynayır. Bə`zi nümunələrə işarə edirik:

1-**Cahillik və nadanlıq**

Nadanlıq və cəhalət, xurafatın yayılıb genişlənməsində ən əsas və mühüm səbəblərdəndir.

Yə`ni, ağıldan üstündür.[1]

[2] "Tərcumətul-Mizanul-hikmə", c. 14, səh. 6667, hədis 21246.

Onun keçmişdə və hal-hazırkı əsl kökünü bunda axtarmaq lazımdır. Əsl problem də budur ki, nadanlıq və cəhalətin dərmanı asan olmamış və hətta bə`zən Peyğəmbərləri aciz və çarəsiz etmişdir. Ondan böyük müşkül və xəstəlik varmı?!

Rəvayətdə deyilib ki, Həzrət Isanı (əleyhissəlam) qaçan halda görürlər və soruşurlar:

-"Nədən qaçırsınız?"

-Buyurur:

-"Cahildən!"

-"Siz ki, öz İlahi nəfəsinizlə ölünü dirildib ona yenidən həyat bağışlayırsınız, amma cəhl və nadanlığına çarə edə bilmirsiniz?!"

-"Düzdür, ona çarə edə bilmirəm. Ondan xilas olmaq üçün qaçıram. Axmaq və nadana çarə tapmaq üçün çalışdım, amma onun dərdinə dərman tapa bilmədim." [1]

## 2-**Kor-koranə və əsassız təqlidlər**

Bə`zən xurafat elə şəkildə yayılır ki, guya şəxs ona əməl etməsə günah etmiş olur. Sanki buna görə onu təhlükə və zərər gözləyir. Məsələn, bə`zi yerlərdə qurbanlıq qanının təzə avtomobilə tökməyi təhlükəsizlik tədbiri sayırlar. Ona əməl etməyənləri isə hər an təhlükə tə`qib edəcək və onların mütləq avtomobil qəzası keçirəcəyini sanırlar!

İslam dini və bizim səmavi kitabımız olan Qur`an, düşüncəsiz və nadan təqlidlə mübarizə aparır.

[1] "Əl-Ixtisas", Şeyx Müfid, səh. 221.

Dəfələrlə bildirir ki, cəmiyyətin əksəriyyəti tərəfindən qə`bul olunan bir əməl, onun doğruluğunu göstərən səbəb deyil. Bə`zən cəmiyyətin əksəriyyəti səhv yol tutur. Bizim də qoşulub onların arxasınca getməyimiz böyük səhvdir![1] Elə götürək, ibadət məsələsini! Müasir dövrümüzdə bir çoxları Allaha ibadət etməyi xurafat sayır və bunu özlərinə sığışdırmaq istəmirlər. Onlar, necə deyərlər, min bir bəhanə gətirərək ibadəti geridə qalan bir əməl hesab etməklə yanaşı, cəmiyyət arasında bu fikri cəsarətlə yayırlar.

Onlardan soruşuruq: "Əgər doğrudan da Allaha ibadət etmək xurafat, yaxud alçaqlıq sayılırsa, onda nə üçün dünyanın ən şərəfli insanları (Peyğəmbərlər, İmamlar) ömürlərinin axırına kimi Allaha ibadət etmişlər?!"

Yaxud, bə`ziləri kor-koranə ata-babalarının qoyduğu adət-ən`ənələrdən əl çəkə bilmir və hətta bunları düzgün hesab edirlər. Misal olaraq, toyda qadınların naməhrəm kişilərin qarşısında rəqs etməsi, novruz bayramında yumurta döyüşdürmək və qızların qapı arxasından yad bir evə qulaq asması və s. Əlbətdə ki, din belə əməlləri qadağan edir. Bu barədə Qur`andan bə`zi ayələri qeyd edirik:

**«Əksinə, onlar dedilər: "Həqiqətən biz atalarımızı bir dində görmüşük və biz də onlara tabe olmaq nəticəsində mütləq doğru yoldayıq." Və beləcə Biz səndən əvvəl hansı cəmiyyətə bir qorxudan**

---

[1] Nümunə üçün baxın: "Zuxruf" surəsi, ayə 21-21, «Əraf» surəsi, ayə: 70, 173 və «Hud» surəsi, ayə: 62, 84.

**(Peyğəmbər) göndərdiksə, onların naz-ne`mət içində olanları dedilər: “Biz atalarımızı bir dində görmüşük və biz onların arxasınca gedirik.”»**[1]

**«Dedilər: “Sən bizim yanımıza gəlmisən ki, biz yalnız Allaha ibadət edək və atalarımızın ibadət etdiklərini boşlayaq? Onda əgər doğruçulardansansa, və`d etdiyini (İlahi əzabı) gətir!” Dedi: “Şübhəsiz, artıq Rəbbiniz tərəfindən sizin üçün bir əzab və qəzəb qərara alınmışdır. Özünüz və atalarınızın qoyduqlarınız və Allahın, (haqq olması) barəsində heç bir dəlil-sübut nazil etmədiyi adlar barəsində mənimlə mübahisə edir və höcətləşirsiniz? Belə isə, (əzabı) gözləyin ki, mən də mütləq sizinlə gözləyənlərdənəm”»**[2]

**«Onlar pis bir iş gördükləri zaman “atalarımızı belə gördük və bizə bunu Allah əmr etmişdir” deyərlər. De: “Allah əsla pis işə əmr etməz. Bilmədiyiniz bir şeyi Allaha nisbət verirsiniz?!”»**[3]

**«Onlara deyildikdə ki: “Allahın nazil etdiyinə (Kitabına və dini qayda-qanunlarına) tabe olun”, deyərlər: “(Xeyr,) biz atalarımızdan gördüyümüzə tabe oluruq!” Bəs Şeytan onları (Cəhənnəmin) yanar əzabına tərəf də`vət edirsə, necə?! (Yenədəmi onlara tabe olarlar?!»**[4]

---

“Əz-Zuxruf” surəsi, ayə 22-23.[1]
“Əl-Ə`raf” surəsi, ayə 70-71.[2]
“Əl-Ə`raf” surəsi, ayə 28.[3]
“Loğman” surəsi, ayə 21.[4]

## Ərəb cahiliyyəti dövründə xurafat

Bəşəriyyətin inkişafında, onun cahillik və xurafatdan xilas olmasında İslamın oynadığı rolun daha da aydın olması üçün İslamdan öncə olan xurafi və cahil əqidələrdən qısa nümunələrə işarə edirik:

-Ərəb cahilliyyəti dövründə səfərə çıxan şəxsin arxaya baxmağa haqqı yox idi. Əks təqdirdə, onun üçün problemlər yaranacaqdı.

-Uşağa qalmayan qadın əgər ölmüş kişinin cəsədinə yeddi dəfə ayaq qoysaydı, artıq onun uşağının ölməyəcəyinə e`tiqadlı idilər.

-Ərəbin böyükləri özləri ölməmişdən öncə bir dəvəni öz qəbirlərinin kənarında dəhşətli şəkildə öldürüb basdırardılar ki, Qiyamət günü piyada qalmasınlar.

-Əgər səfərdə olanın qayıtmağını istəməsəydilər, onun üçün ocaq yandırardılar.

-Arzulamadıqları qonağı yola salmağı sevmədikləri üçün xəlvətcə onun arxasına kasa qoyardılar ki, bir daha qayıtmasın.

-Cahiliyyət dövründə yaşayan ərəblər getdikləri yerdə qorxu ilə üzləşsəydilər, yüz dəfə eşşək kimi səs çıxarar və ya tülkü sümüyünü bədənlərindən asardılar.

-Əgər bir şəxs çöllükdə (yolu azıb) itsəydi, divləri qorxutmaq üçün öz köynəyini çevirib tərsinə geyərdi.

-Dəvələrinin sayı yüzə çatsaydı, həsəd aparanın bədnəzərinin qarşısını almaq üçün erkək dəvənin bir gözünü çıxarıb kor edərdilər.

-Dişi inəklər su içməyəndə, buynuzlarının arasında olan cinlər uzaqlaşsın deyə, erkək inəklərin üz-gözünə vurardılar.
-Əgər uşaqlarının dişi düşsəydi, onu iki barmaqla səmaya atıb deyərdilər: "Günəş! Ondan yaxşı diş ver!"
-Yağış yağmasaydı, cahil ərəblər tez alışan çubuqları götürüb inəyin quyruğuna bağlayıb, yandırardılar. Yazıq inək də böyürər, aşağı-yuxarı atılardı. Onlar da bunu göyün gurlaması əlaməti sayıb, yağışın yağacağını güman edərdilər.
-Quş uçan zaman onun hərəkləri ilə fala baxardılar. Əgər quş sağ tərəfə uçsaydı, uğur rəmzi sayardılar, lakin sola uçsaydı, uğursuzluq sayıb, uduzmaq əlaməti hesab edərdilər.
-Qız uşaqlarının diri-diri qəbrə basdırılması, arvadların dəyişdirilməsi, məntiqsiz və ifrat həddində olan şəhvətdən doğan evliliklər və s. adətləri də yuxarıdakı nümunələrə əlavə etmək olar.[1]

## Elm və inkişaf əsrində xurafat

Nadanlıq və cəhalət gecə-güdüzmü, xüsusi zaman-məkanmı tanıyır?! Bu gün də – elm, bilik və inkişaf

[1]Islamdan öncə cahiliyyət dövründə olan xurafatlarla tanışlıq üçün bu mənbələrə müraciət edə bilərsiniz: "Şərhi-Nəhcul-bəlağə", Ibni Hədid, c. 19; "Tarixe-təhqiqiye-Islam, c. 1; "Fərazhaye əz tarixi-Islam və furuğe-əbədiyyət", c. 1; "Xorşide-Islam çequne derəxşid" c. 1; "Kitabe-cahiliyyət və Islam"; "Təfsirül-mizan", c. 2.

dövründə xurafat və nadanlıq müsibəti bəşəriyyətdən əl çəkmir.

Informasiyanın bə`zən bizə çatdırdığı müxtəlif ölkə və millətlərin bir sıra xurafi əqidələrini görəndə, insan təəccüblənməyə bilmir. Öz-özünə: “Bunlar, heç də cahiliyyət dövründə olan əqidələrdən geri qalmır!”-deyir.[1]

Yə`qin ki, televizorda dəfələrlə inək oyunu, öküz minmək, portağal oyunu, atəşin üstündən hoppanmaq və s. bayramlarda xalq adətlərinin verilməsini görmüsünüz. Bunların hamısı kor-koranə təqlid və ən`ənəvi bağlılıqlardan qaynaqlanır. Hər il belə bayramlarda yüzlərlə insan xəsarət alır.

Görəsən, dünyanı xurafatdan nə uzaqlaşdıra bilər?! Elm-bilik, mal-dövlət, yoxsa sənət?! Bəs niyə uzaqlaşdırmır?! Niyə qərbin bilik adamlarının elm və texnikanın, bəşəriyyətin səadətini tə`min etməsinə sadəlövhcəsinə olan inamı, hal-hazırda tükənməkdədir. Buna görə də, sırf maddi inkişafın insanın problemlərini həll etməməsi həqiqətini dərk etməkdən başqa çarə qalmır...

Təqribən bütün dünyada indiyidək qə`bul olunan ən şirin yalan da elə budur: “**elm həqiqətə tərəf gedən yeganə yoldur.**”

Bə`zi xurufatlara toxunmaq istərdik:

Hindistanda bə`zi şəxslər supərəstdirlər. Sübh tezdən sahilə və ya su arxının yanına gedir, Günəş

[1] “Cumhuriye-Islami” qəzeti, çərşənbə axşamı, 28 fərvərdin, 1385-ci il;

doğan zaman bir az su götürüb dörd tərəflərinə səpirlər. Bu iş onlar üçün bir növ ibadətdir. Suyun azalmasını, suyun (yə`ni allahın), onlardan küsməsi kimi qə`bul edirlər. Onun diqqətini çəkmək üçün gözəl bir qızı gəlin kimi bəzəyib cah-cəlalla dərya kənarına aparırlar. Sonra su incikliyi kənara qoyub onlarla barışsın deyə, onu suya atırlar.

Yaxud, Hindistanda insanın "tənasül üzvləri"nə pərəstiş edən bir tayfa var. Onlar öz ibadətgahlarında qadın və kişinin tənasül üzvülərinin təsvir olunduğu heykəllərə pərəstiş edirlər.

Və ya bə`zilərinin 33 milyard allahı var. Onlardan "Bunu necə sayırsınız?"-deyə soruşduqda, cavabında deyirlər: "Onları saya bildiyiniz gün, dünyanın axırıdır!"

Inəkpərəstlər isə bütün heyvanların inəkdən törədiyini iddia edirlər. Onlar təbərrük məqsədilə inəyin sidiyini üz-gözlərinə, fəzləsini isə evlərinin divarlarına sürtürlər.

Əgər iki-üç inək maşın yolunda oturub yatsa və yolu bağlasa, sürücülərin maşından düşüb onları kənarlaşdırması qeyri-mümkündür. Heç bir maşının siqnal vurmağa haqqı yoxdur. Nəticədə isə tıxac yaranır.

Bə`zən yeyinti çatışmazlığı ucbatından minlərlə şəxs acından ölür. Halbuki, minlərlə kilo inək əti mə`nasızcasına zay olur. Heç kəsin inək kəsməyə cəsarəti çatmır!

Inəyin dəfni, bir siyasi şəxsin dəfn mərasimi kimi yerinə yetirilir. Bol-bol dua oxuyub, göz yaşı tökürlər. Inəklə birlikdə bir miqdar nargil də basdırırlar ki, onun azuqəsi olsun, ac qalmasın! Hinduslar öz ölülərini odda yandırsalar da, ölü inəklərin cəsədini çox böyük ehtiramla, xüsusi bir dini mərasimlə torpağa tapşırırlar.

Bəli, hörmətli oxucu! Hələ də bu mərasimlər öz qüvvəsində qalmaqdadır.

Elə düşünməyin ki, bu xurafat və mövhumat, təkcə şərqlilərə aiddir. Əksinə Avropa ölkələrində xurafata daha çox yer verilir. London və Parisin cah-cəlallı küçə və yollarında rəmmallar, falçılar, xüsusən noxud falında "ixtsasçı" qadınlar pul qazanmaqla məşğuldurlar. Onların yaxşı müştəriləri də var.[1]

Son hesablamalara görə, amerikalıların yarısı xurafata uyan şəxslərdir. E`tiqadlarına görə, əgər dostları ilə körpüdə xudafizləşərlərsə, artıq onları heç vaxt görə bilməzlər. Astroidi gördükləri zaman yubanmadan bir şey arzulayırlar ki, bütün arzuları həyata keçsin.

Fransalılar şiddətli şəkildə "taleyə baxma"ğa e`tiqad bəsləyirlər. Internet vasitəsi ilə o gün haqqında verilmiş proqnozuna baxmasalar, yerlərindən heç bir yana tərpənməzlər. Səhər yeməyi zamanı qəzetin

---

[1] Təkcə Italiyada cadugərlər, rəmmallar və falçıların hər il 5 milyard yevroya yaxın gəlirləri olduğu bildirilmişdir. "Miqyaslar pərdəni açır", səh. 226; "Ufuqe-hovze", № 26, səh. 6.

birinci səhifəsində oxuduqları, gündəlik tale proqnozlarıdır.[1]

13 ədədinin nəhsliyi həm bizim millət arasında, həm də qərblilərdə mövcud olan məşhur xurafatlardan sayılır.

Sülh Nobel mükafatçısı doktor Luter Kinq (1962-ci il) özünün “Qara nida” adlı tanınmış kitabında belə yazır: “Mən Nyu Yorkun böyük bir otelinin liftində 13-cü mərtəbənin olmadığını başa düşdüm; 12-ci mərtəbədən sonra 14-cü mərtəbə yerləşirdi. Bu barədə liftin işçisindən soruşdum. O, cavab verdi: “Bu adət və ən`ənəyə, şəhərimizin əksər otellərində riayət olunur. Çünki insanlar on üçüncü mərtəbədə qalmaqdan qorxurlar. Hətta bə`zi müsafirlər, 14-cü mərtəbənin 13-cü ilə dəyişdirildiyi üçün, 14-cü mərtəbədə yerləşməkdən də çəkinirlər.”

Aydındır ki, belə əsassız qorxular deyilən yolçular kimi zəif ruhlu şəxsləri gündüz vaxtı vəhşətə salırsa, təbiidir ki, gecə onların ruhunu bütünlüklə sarıb, vahiməyə və azara salacaq.”

Belə məsələlər Avropa ölkələrində bu gün də davam etməkdədir. Hətta bütün xəbərlərdə Birləşmiş Millətlər Təşkilatının binasında 13-cü mərtəbənin olmadığı bildirilir.

Ustad şəhid Mütəhhəri deyir: “Bazarda satılan Peyğəmbərin və 12 İmamların (əleyhimussəlam) təsvir

[1] “Məcəlleye-mobəlleğan”, № 75, səh. 154.

olduğu şəkilllərin heç bir əsası yoxdur və bu xurafatdan başqa bir şey deyil!”[1]

Böyük alimlərdən sayılan Məkarim Şirazi qurbanlıq barəsində belə deyir: “Qurbanlıq qanını nəqliyyat vasitələrinə və ya yarımçıq tikilmiş evlərə səpmək xurafatdır!”[2]

Həmçinin bir sıra mətləbləri də cavablandırmışdır. Sual belədir: “Aşağıda deyilənlərin ağıl və şəriət əsasında, yoxsa xurafat və şəriətin əksinə olduğunu deməyinizi xahiş edirik!”

1-Bə`zi evlərin girəcəyində, mağazalarda, avtomobillərin qabaq şüşələrində adətən rənbərəng saplardan, üzərrik dənələrindən və ya başqa əşyalardan düzəldilmiş asılılar.

2-Qolbağlardan və taxmalılardan istifadə olunması.

3-Uydurma yuxuyozmalara inam.

4-Qəhvə və s. fal növləri və onun müqabilində pul almaq.

5-Taleyə baxmaq haqqında çap olunmuş kitablar həqiqət olması.

6-Müxtəlif aylarda və günlərdə dünyaya gəlməyin insanın taleyində tə`sirli olması.

7-Gəlini evə aparanda ayağı altında yumurta və ya nar qoyurlar ki, ayaqlayıb əzsin, salamatlıqla evə daxil olub xoşbəxt olsun.

8-Müqəddəs məkan, hərəm və İmamzadələrin qapılarına sap bağlamaq.

---

[1] “Panzdəh qoftar”, səh. 207-209.

[2] Onun “Istefta” kitabından, səh. 45.

9-Ziyarətgahlarda, seyyidlərin, alimlərin və başqalarının qəbri üstündə şam yandırmaq.
10-Həzrət Xızrın (əleyhissəlam) gəlməsi üçün su səpib, evin qapısını süpürmək.
11-Qəndi bəy və gəlinin başına tökmək.
12-Qayçını biri-birinə vurmaq, ailə üzvlərinin bir-birilə dava-dalaşına səbəb olur.
13-Ölülərin paltarlarını atmaq və onlardan istifadə etməmək, bə`zən də yandırmaq.
14-Şənbə günü yas məclisi təşkil etməyin pis tə`sirli olması.

Məkarim Şirazi belə cavab buyurur: “Bunlardan heç biri düz deyil və hamısı xurafatdır.”[1]

Bə`zi adamlar qarğanın uçmağını, bayquş görməyi, bə`zilərinin ayağını düşərsiz sayır və nəhs əlamət kimi qə`bul edirlər. Bunların heç bir dini əsası yoxdur və hamısı xurafatdır.

Bə`ziləri də asqırmağı uğursuz əlamət sayıblar: “Bu, səbir əlamətidir. Əgər bir yerə getmək, ya bir işi yerinə yetirmək istəyəndə asqırsan, ya dayan, ya da bir neçə an yerindən tərpənmə!”

Bu əqidə də xurafat və əsassız adətlərdəndir. Onun heç bir əqli və şər`i bünövrəsi yoxdur. Təəccüblüdür ki, bu xurafatın başlanğıcı İslamdan öncəyə, yə`ni cahiliyyət dövrünə aiddir. Cahiliyyət əsrini əhatə edən tarixi mənbələrdə yazılıb: “Ərəblər asqırığı nəhs əlamət olaraq qə`bul edib, onu mütləq baş verəcək

[1] Onun “Istiftat”a cavabı.

təhlükənin başlanğıcı sayırdılar. Buna görə də, asqırıq səsi eşidən zaman: “Onun bəlası itlərimin canına düşsün”- deyərdilər.[1]

Ümidvarıq, aşağıdakı nəticələri əldə edə bilək:

-İslam ən məntiqli dindir. Heç bir dində onun kimi əql, elm və təfəkkürə qiymət verilməyib və ona sövq edilməyib.

-İlahi Peyğəmbərlərin (ələyhimussəlam) mühüm hədəflərindən biri də xurafatla, cəhalət və nadanlıqdan qaynaqlanan adət-ən`ənələrlə mübarizədir.

-Xurafatın qə`bul edilib yayılmasının əsl səbəbləri: cəhl, nadanlıq və yersiz təqlidlər.

-Elm və biliyin inkişaf etməsinə baxmayaraq, xurafatın qə`bul olunub yayılması heç də azalmayıb.

-Bə`zi insanlar özlərini şəffaf düşüncəli sayıb, savad və kamala malik olmaq bəhanəsi ilə bir çox həqiqəti rədd edirlər.

-Heç bir müsəlman (əqli və şər`i) dəlil olmadan bir şeyi qə`bul və ya rədd etməməlidir.

-Xurafatla tanışlıq, ondan çəkinmək və başqalarını də ondan çəkindirmək hər bir müsəlmanın vəzifəsidir.

-Xurafatın həqiqətlə fərqləndirilib ayırd edilməsinin me`yar və ölçüsü, Qur`an, hədislər və ağıl ilə uyğunlaşdırmaq.

-Lakin təkcə ağıl vasitəsi ilə bütün bilik və elmləri anlamaq olmaz. Ən böyük xurafatdan biri də,

---

[1] “Xorşide-Islam çequne derəxşid?” səh. 80.

“***Insanın ağlı bütün şeyləri qavrayır və dərk edir***” fikrini qə`bul etməkdir.

Xatırlatmaq lazımdır ki, xurafat və xurafat sayılan həqiqətləri sadalamaq bir-iki kitaba sığmaz. Onlar bütün dövrlərin cəmiyyətlərində fərqli olmuş, üstəlik də çoxalmışdır.

## On birinci fəsil

# BID`ƏT

Təəssüflər olsun ki, İslam dininin yayılmasından 14 əsr keçməsinə baxmayaraq indi də müsəlmanlar arasında bid`ət gətirənlərə rast gəlmək olur. Dində bid`ət qoymaq haramdır. Yə`ni dindən sayılmayan və ya dini bir əməl olması isbat olunmayan hər hansı bir işi din adı ilə yerinə yetirmək, başqasına öyrətmək və təbliğ etmək haram sayılır.

Bid`ətə misal olaraq, bir şəxsin adına aş bişirmək, "vüsal" orucu tutmaq kimi əməlləri qeyd etmək olar.

Cəmiyyətimiz arasında ən çox yayılmış bid`ətlərdən birini xatırlatmaq istərdik:

"Bə`zi müsəlmanlar Məhəmməd Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) adından istifadə edərək O Həzrətə böhtan atır və spirtli içkinin halal olması barəsində belə bir rəvayət uydurub deyirlər: "Bir gün Məhəmməd Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) şərab içənlərin yanından ötərkən onların mehribancasına sakit əyləşdiklərini görüb "nuş və halal olsun" deyir və yoluna davam edir. Lakin O, bir müddətdən sonra geri qayıdarkən onların bir-birilə dalaşdığını müşahidə etdikdə isə "haram olsun" deyib, oradan uzaqlaşır."

Bu yalançı rəvayəti eşidənlər belə bir məntiqsiz nəticəyə gələrək deyirlər: "***Peyğəmbərin (salləllahu ələyhi və əlihi və səlləm) məqsədi budur ki, əgər***

***özünü apara biləcəksənsə, onda az miqdarda içmək olar***..."

Onlara cavab olaraq deyirik: "Insanlara qanun tə`yin edən Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) yox, Allah-təaladır.

Qur`an buyurur: **«Ey iman gətirənlər, həqiqətən xamr,**[1] **qumar, asılmış bütlər(ə ibadət etmək, onlar üçün qurban kəsmək və həmin qurbanın ətindən yemək) və qumardakı püşk oxları nəcis və murdardır və Şeytanın ixtiralarındandır. Buna görə də nicat tapasınız deyə, onlardan çəkinin! Həqiqətən, Şeytan şərab və qumarla (sizi onlara aludə edib onların düşkünü etməklə) aranızda düşmənçilik və kin salmaq və sizi Allahın zikrindən və namazdan saxlamaq istəyir. Belə isə əl çəkəcəksinizmi?!»** [2]

Insan bir fikri söyləyərkən diqqətli olmalı, ürəyi istədiyini din adından yaymamalıdır. Əks halda dərdli bir əzabla üzləşəsidir.

Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm) buyurur: "Kim qəsdən mənim adıma yalan danışsa və ya mənim əmr etdiyimi inkar etsə, onun üçün Cəhənnəmdə ev hazırlanar."[3]

---

[1] Mübarək ayədə gələn " xamr" kəlməsi – "ağlı məst edən və onu aradan aparan hər bir şey"ə deyilir. Deməli, ümumilikdə istər spirtli içkilər, istərsə də narkotik maddələrin hamısı " xamr" adlanır.

[2] "Əl-Maidə" surəsi, ayə 90-91.

[3] "Biharul-ənvar», c. 2, səh. 212, hədis 111.

## On ikinci fəsil

# ƏQL (AĞIL)

Insan ağlı yaxşı işi pis işdən seçmə qüvvəsinə, yaxşı və pisi dərketmə səlahiyyətinə malikdir. Və bu qüvvə Qur`ani-Kərimin insana bəxş etdiyi "yaxşını və pisi ayırd etmə bacarığ"ından qaynaqlanır. Deməli, İlahi dinlər göndərilməzdən əvvəl də bir çox ictimai və fərdi məsələlər bəşər övladına öz ağlının vasitəsilə mə`lum idi. Yaxşılığın və ədalətin gözəlliyi, zülmün və e`tinasızlığın çirkinliyi, bə`zi əxlaqi xüsusiyyətlər, məsələn, "doğru danışmaq", "əmanətdarlıq", "şücaət", "səxavətli olmaq" və s. ağlın dərk etdiyi məsələlərdəndir. Həmçinin, "yalan", "xəyanət", "paxıllıq" və "simiclik" və s. də, insan ağlının dərk etdiyi məsələlərdəndir. Amma insan ağlı bütün işlərin yaxşı və pis olmasını kamil şəkildə dərk edə bilmədiyinə görə, yaxud məhdud şəkildə qavradığına əsasən, İlahi dinlər, səmavi kitablar və Peyğəmbərlər (ələyhimussəlam) ona bu yolda kömək olaraq göndərilmiş, həmçinin Onlar insana anlamadığı digər həqiqətləri açıqlamış və həm də, ağlın dərk etdiyi gerçəklikləri tə`kid etmişlər.

Xülasə, ağlın yaxşı və pis işləri dərk etməsi, insan təfəkkürünün müstəqil şəkildə bir çox həqiqətləri anlaması mə`lumdur. Lakin bu heç də həmişə belə deyil. Yadda saxlamaq lazımdır ki, bə`zən insanın dərk etmə qabiliyyəti və anlayışı məhduddur. Yə`ni,

ağıl vasitəsil kamilliyə və səadətə yetişmək yolunda lazım olan bütün həqiqətləri ələ gətirmək mümkün deyildir. Ona görə də bu çətin yolda İlahi dinlərə və Peyğəmbərlərə (əleyhimussəlam) ehtiyac duyulur.

## On üçüncü fəsil

# GÜNAH

Günah[1] – ərəb kəlməsi olub, “haqqdan dönmə”, “itaətsizlik”, “qanunu pozmaq”, “dünyanın təbii nizamına qarşı qiyam” mə`naları nəzərdə tutulur. Bu baxışa əsasən, yaranış aləminin tam qanuni zərurətlərini görməməzliyə vuran şəxs günahkar sayılır. Çünki yaranış nizama əsaslanır, hər bir nizam qanundan qaynaqlanır. Qanunsuzluq özü günahdır və günah Xaliqə qarşı üsyan kimi başa düşülür.

Heç şübhəsiz, günahın insan həyatına ciddi tə`sirləri var. Günah öz dağıdıcı tə`siri ilə cism və ruhu, aşkar və gizlini, dünya və axirəti məhv edir. Günah qəlbi sıxıntıya düçar edir, ruhu kədərləndirir, insanlıq dəyərlərini qiymətdən salır. Günah ruhun daimi qərarsızlığına, asayişin aradan götürülməsinə, psixoloji narahatlığa səbəb olur. Günah ixtilaf, kin-küdurət, savaş, höcətləşmə səbəbidir və bir çox ictimai problemlər ondan qaynaqlanır.

Günahın zərərləri o qədər böyükdür ki, onları asanlıqla sadalayıb qurtarmaq olmur. Bunu demək olar ki:

-Günah millətləri məhv edir, mədəniyyətləri viran qoyur;

[1] Əslində “cunah”dır. Bu kəlmə Qur`anda 25 dəfə təkrar olunmuşdur.

-Günah yaxşılıqları aradan qaldırır, pisliklərə meydan verir;
-Günah insan ömrünü qısaldır, gənc yaşda ölüm qapını döyür;
-Günah asayişi aradan qaldırır, cəmiyyətdə qarşıdurma hakim olur;
-Günah abadlıqları xaraba qoyur, viranlıq ətrafı bürüyür;
-Günah şadlığın yerinə qəm-qüssə gətirir;
-Günah çöhrələrin gözəlliyini alıb, onlara çirkinlik verir;
-Günah insanın rahatlığını əlindən alıb, onu iztiraba salır;
-Günah insanı ne`mətdən məhrum edib, onu yoxsulluğa düçar edir;
-Günah insanı sağlamlıqdan məhrum edib, onu əlacsız xəstəliklərə yoluxdurur və s...

Bu gün bəşəriyyət mə`nəviyyat qaynağından uzaqlaşaraq itaətsizliyə üz tutmaqla yerdə və göydə bir çox bəlalar əmələ gətirmişdir. Insan isə faciəyə düçar olmasının səbəbini anlamır. Doğrudan da, bəşəriyyət nə üçün bir bu qədər bəlaya düçar olmuşdur? Hansı bəladan danışaq?

Bə`zən dəhşətli bir sel şəhərləri və əkin sahələrini xaraba qoyur, sunami şəklində cənub-şərqi Asiya sahillərini bürüyür, milyonlarla insan ev-eşiksiz qalır.

Bə`zən göy yerə açılmış bacalarını bağlayır, yaşıl aləm dodağını islatmaq arzusunda qalır. Quraqlıq, qəhətlik, aclıq, məcburi mühacirətlərlə sonuclanır.

Bə`zən od, bə`zən külək, bə`zən torpaq sürüşməsi, bə`zən su elə fəlakətlər yaradır ki, buna savaşlar, qətl-qarətlər də əlavə olunsa, bəşər nəslinə son qoyular.

Əgər bu hadisələrin, təbii və qeyri-təbii bəlaların səbəbini araşdırsaq, belə bir qənaətə gələrik ki, biz öncədən yolumuzu seçmişik: **Mə`nəviyyatdan uzaqlaşmaq**!

Bu iddia üçün sözsüz ki, dəlillərimiz var. Birinci dəlil məntiqi dəlildir və asan anlaşılandır: "Hər kəs əkdiyini biçər." Yə`ni müsibət əkən, torpağa günah toxumu səpən rahatlıq və xoşbəxtlik görməz.

Ikinci dəlil vəhydir. Yə`ni, Qur`an ayələridir. Qur`ani-Kərimdə iyirmi beş Peyğəmbərin (ələyhimussəlam) həyatından və günahkar qövmlərin başına gələn müsibətlərdən söhbət gedir. Əlbətdə ki, bütün bunlar təfəkkür və ağıl sahibləri üçün dərs və örnək olmalıdır.

Misal olaraq Lut Peyğəmbərin (ələyhissəlam) qövmü barəsində oxuyuruq: **«Və qövmü tələsik onun yanına gəldilər (ki, həmin qonaqlara təcavüz etsinlər) və onlar bundan qabaq da bu çirkin işləri [1] görürdülər. Dedi: "Ey mənim qövmüm, bunlar mənim qızlarımdır. Onlar sizin üçün daha pakdırlar (ki, kəbinlərini kəsib aparasınız). Buna görə də Allahdan qorxun və məni qonaqlarım barəsində xəcalətli və rüsvay etməyin! Məgər sizin aranızda xəbərdar və doğru yolu tapmış bir kişi yoxdur?!" Dedilər: "Sən yaxşı bilirsən ki, bizim sənin qızların**

---

[1] Kişilər bir-birilə cinsi əlaqədə olurdular.

**barəsində bir haqqımız (onlara rəğbətimiz və ehtiyacımız) yoxdur. Və əlbəttə, sən bizim nə istədiyimizi yaxşı bilirsən." Dedi: "Kaş ki, sizinlə mübarizə etməyə bir gücüm olaydı, ya möhkəm və sabit bir arxaya sığınaydım." (Mələklər) dedilər: "Ey Lut, biz sənin Rəbbinin elçiləriyik. Onlar səni əsla ələ keçirə bilməzlər. Buna görə də, gecədən bir qədər keçmiş ailənlə birgə (məntəqədən çölə) yola düş, sizdən heç kəs yerdə qalmasın və heç kim arxasına dönüb baxmasın - zövcəndən [1] başqa ki, şübhəsiz sənin qövmünə yetişəcək şey ona da yetişəcəkdir. Əlbəttə onların (əzablarının) və`də vaxtı səhərdir. Məgər səhər yaxın deyilmi?!" Beləliklə, elə ki, Bizim əmrimiz (mələklərə) yetişdi və istəyimiz qətiləşdi, həmin şəhərləri alt-üst etdik və onların üzərinə bişmiş və möhkəm gildən ibarət daş parçalarından dolu yağdırdıq.»**[2]

Başqa ayədə belə buyurulur: **«Sizə yetişən müsibətlər özünüzün qazandığınız günahlara görədir və O, (Allah) hələ onların çoxundan keçir.»**[3]

Üçüncü dəlil isə mə`sumların (ələyhimussəlam) buyuruqlarında (hədislərdə) əks olunur. Misal olaraq İmam Baqir (ələyhissəlam) buyurur: "Həqiqətən, bir bəndə Allahdan nəsə diləyir və Allah onun diləyini yaxın bir zamanda yerinə yetirmək istəyir. Bu arada bəndə günaha batır. Allah-təala Öz mələyinə buyurur: Onun istəyini yerinə yetirmə, onu məhrum et! Çünki o

---

[1] Yə`ni, həyat yoldaşı.

[2] "Hud" surəsi, ayə 78-82.

[3] "Əş-Şura" surəsi, ayə 30.

(öz günahı ilə) Mənim qəzəbimə gəldi və rəhmətimdən məhrum qaldı.”[1]

İmam Cəfər Sadiq (əleyhissəlam) buyurur: “Çirkin işlərdən çəkinin ki, ömrünüz uzun olsun.”[2]

Digər bir məqamda İmam (əleyhissəlam) buyurur: “Günah səbəbindən ölənlərin sayı təbii əcəllə ölənlərin sayından çoxdur. Ehsan səbəbi ilə yaşayanların sayı təbii ömrünü sürənlərin sayından daha çoxdur.”[3]

İmam Əli (əleyhissəlam) Allah-təalanın belə bir buyuruğunu nəql edir: “Məni tanıyan şəxs günaha yol versə, Məni tanımayan birini ona hakim edərəm.”[4]

Günah haqqında hədislər o qədər çoxdur ki, onların hamısını qeyd etmək üçün cildlərlə kitaba ehtiyac vardır. Burada kifayətlənirik.

## Qur`anda zikr olunan bə`zi günahlar

Qur`andakı günahların bir neçəsini qeyd edirik:

1)- Allaha şərik qoşmaq;

2)-Allahın rəhmətindən naümid olmaq;

3)- Zina (kəbinsiz, yə`ni qanunsuz cinsi əlaqə);

4)-Qəzf: (iffətli qadına və kişiyə zina və ya ləvat töhmətini vurmaq;

5)-Ləvat (kişinin kişi ilə cinsi əlaqəsi) və müsahəqə (qadının qadınla cinsi əlaqəsi);

---

[1] “Bihar”, c. 73, səh. 329.

[2] Həmin mənbə, səh. 354.

[3] Həmin mənbə, səh. 356.

[4] “Usuli-Kafi, c. 2, səh. 276.

6)-Istimna (cinsi əlaqə olmadan, spermanın gəlməsinə səbəb olan hər hansı bir iş görmək);
7)- Qumar oynamaq; (məsələn: kart, nərd və s.)
8)- Əskik satmaq (tərəzidə aldatmaq);
9)- Nahaq yerə şəhadət vermək;
10)-Yalan danışmaq, eləcə də Allah, Peyğəmbər (salləllahu ələyhi və əlihi və səlləm), xanım Fatimeyi-Zəhra (səlamullahi ələyha) və 12 İmamın (ələyhimussəlam) adından yalan danışmaq. Yə`ni Onların buyurmadığı sözləri Onlara aid etmək;
11)- Yalandan and içmək;
12)- Israf etmək;
13)-Paxıllıq;
14)- Xəyanət etmək;
15)- Qeybət etmək;
16)-Allah-təalanın vacib buyurduğu əməllərdən hər hansı birini bilərəkdən tərk etmək;
17)-Ata və ananın üzünə qayıtmaq (və ya onlara qarşı hörmətsizlik etmək);
18)-Yetim malını mənimsəmək;
19)-Sələm (riba). (Faizlə pul və sair şeyləri almaq və vermək)
20)-Rüşvət almaq və vermək;
21)- Murdar, qan və donuz əti yemək;
22)- Şərab içmək;
23)- Adam öldürmək və yaxud cana qəsd etmək;
24)-Qəti rəhm (qohum əqraba ilə ünsiyyəti kəsmək);
25)- Əhdi sındırmaq;
26)- Haram şey yemək;

27)- Zalımlara kömək etmək;
28)- Məzlumlara kömək etməmək;
29)- Sehr-cadu ilə məşğul olmaq;
30)- Bilərəkdən vacib olan namazı tərk etmək;
31)- Imkan olan halda həccə getməmək və ya onu tə`xirə salmaq;
32)- Günaha israr (təkrar) etmək;
33)-Qur`ana, məscidlərə, müqəddəs ziyarətgahlara, xüsusilə Kə`bəyə hörmətsizlik etmək;
34)-Bid`ət (yəni İslam dinində buyurulmamış hər hansı bir əməli İslam dini adı ilə qələmə vermək);
35)- Nahaqdan hökm vermək;
36)- Allahın ne`mətlərinə şükr etməmək;
37)- Fitnə-fəsad törətmək;
38)- Böhtan;
39)-Oğurluq;
40)-Təkəbbürlük etmək;

Təkəbbür Iblisi aldı qoynuna,
Düşündü nə üçün əyilsin ona?

Əskik deyiləmsə birindən əgər,
Nə üçün dayanım önündə nökər?

Mən oddan yarandım, Adəm torpaqdan,
Od torpaqdan üstün olub hər zaman.

Onu da yada salaq ki, günahların çoxu məhz təkəbbürdən (özünü hamıdan üstün tutmaq) irəli gəlir.

Aləmlərdə baş verən birinci günah məhz "təkəbbür"[1] olmuşdur.

## Pozğun mühit

Qeyd etmək lazımdır ki, bə`ziləri özünün günah etməyini yaşadığı mühitlə əlaqələndirir və hətta özünə bəraət qazandırır. Əlbətdə ki, bu bəhanədir. Çünki insan öz əməllərində azaddır və ixtiyar sahibidir. Allahına ibadət edən şəxsə nə mühit, nə dostlar və nə də başqa səbəblər tə`sir etməz.

Əgər doğrudan da insanın dini xətərdə olsa və pozğun mühit ona tə`sir etsə, onda o, günahdan qaçmaq üçün həmin mühitdən uzaqlaşmalı və münasib bir yerə köç etməlidir. Nəinki, bəhanə gətirib özünə bəraət qazandırmalıdır. Deməli, hər hansı bir insan pozğun mühitdə bilərəkdən qalıb günah işlər törətməkdə davam etsə, öz günahını mühitin üstünə atması insafsızlıq olar.

"Nisa" surəsinin 97-ci ayəsi bu şəxslər barəsində belə buyurur: **«Həqiqətən mələklər özlərinə zülm etməkdə olan kəslərin canlarını alarkən (onlara) deyəcəklər: "(Din baxımından) nə (vəziyyət)də idiniz?" Deyəcəklər: "Biz yer üzündə (iman və əməl cəhətdən) zəif (vəziyyətdə saxlanılmış halda) idik." Mələklər deyəcəklər: "Məgər Allahın yeri geniş deyildi ki, orada (küfr mühitindən İslam mühitinə)**

[1] Iblis "mən Adəmdən üstünəm, çünki o, torpaqdan, mən isə oddan yaranmışam" – deyə Allahın əmrindən çıxdı və əbədi Cəhənnəmi seçdi.

**hicrət edəydiniz?!” Odur ki, onların yerləri Cəhənnəmdir və ora çox pis bir dönüş yeridir.»**

Qur`an ayələrində olduğu kimi, hədislərdə də dini qorumaqdan ötrü köç etməyin əhəmiyyəti haqqında çoxlu ibrətamiz ifadələr işlənmişdir.

İslam Peyğəmbəri (səlləllahu ələyhi və alihi və səlləm) buyurur: “Öz dinini qorumaqdan ötrü bir yerdən başqa bir yerə, bir qarış da olsa belə, köç edən şəxs Behiştə layiqdir. Və belə bir şəxs (Cənnətdə) Məhəmməd və Ibrahimlə bir yerdə olacaqdır.”[1]

Bu iki Peyğəmbərin (ələyhiməssəlam) tarixin ən böyük köç edənləri olduqları üçün hicrət edən şəxs də bu Peyğəmbərlər cərgəsinə daxil olur.

Başqa bir hədisdə oxuyuruq: İmam Sadiqin (ələyhissəlam) hüzurunda fəsad və günahla dolu bir şəhərin adı çəkildi. İmam orada olan Müfəzzəl adlı bir şagirdinə buyurdu: “Dinini qoruyub saxlamaq istəyirsənsə, orada yaşama! Çünki ora pozğunluq və çaxnaşma yeridir.”[2]

Aydın olur ki, qarışıq və pis mühitin insanın günaha düşüb pozulmasında müəyyən rolu vardır. Lakin bu o demək deyil ki, insan bununla razılaşmalıdır. Xeyr, belə olan surətdə o, öz dininə ehtiram əlaməti olaraq belə mühitlərdən uzaqlaşmalıdır.

[1] “Nurus-səqələyn”, c. 1, səh. 541.
[2] “Muntəxəbul-təvarix”, səh. 875.

## Hamını razı salmaq istəyirsən?

Çox təəccüblüdür, aramızda elə insanlar da var ki, Allahın razılığını yox, camaatın razılığını qazanmaq üçün necə deyərlər, "dəridən-qabıqdan çıxır", dinin hökmlərini və qanunlarını ayaq altına atıb tapdalayırlar.

İslam dini insanlara öz işlərini Allahın razılığı əsasında görmələrini tə`lim edir. Bu dində ən mühüm məsələlərdən biri də "**ixlas**"dır. Yə`ni bütün işləri ancaq və ancaq Allahın razılığına çatmaq üçün görmək lazımdır. Deməli, insanlar iş görən zaman yaşadıqları mühiti və yaxud avam camaatı yox, Allahın fərmanını nəzərə almalıdırlar. Amma əgər bu cür olmazsa, yaşadığımız mühit İlahi və mə`nəvi ab-havadan çıxıb, camaatın istəkləri ilə qatışacaqdır.

İmam Musa Kazim (ələyhissəlam) özünün çox dərrakəli bir şagirdi olan Hişam ibni Həkəmə buyurur: "Ey Hişam! Əgər sənin əlində bir qoz olsa, camaat isə onu qiymətli daş olduğunu desə, onların bu sözü sənin fikrində heç bir dəyişiklik yaratmaz. Çünki, sən onun qoz olduğunu bilirsən. Əksinə, sənin əlində qiymətli bir daş olsa, camaat isə onun qoz olduğunu desə, bu vaxt da sənə heç bir ziyan dəyməz. Çünki sən onun qiymətli daş olduğunu bilirsən."[1]

Loğman Həkimin öz oğluna etdiyi hikmətli vəsiyyətini yada salaq:

---

[1] "Səfinətul-bihar", c. 2, səh. 528.

“Ey oğlum! Özünü camaatın razılığına bağlama! Çünki hamının səndən razı qalması mümkün deyil.”

Sonra Loğman bu sözü əməldə də oğluna başa salmaq istədi. Onlar evdən çölə gəlib tövlədən ulağı çıxartdılar. Loğman ulağa minib hərəkət etdi. Oğlu isə piyada atasının ardınca yola düşdü. Onlar yarı yolda bir dəstə adama rast gəldilər. Camaat onları görəndə dedilər: “Bu kişi çox daş ürəkli və rəhmsiz kişidir.”

Bu sözü eşidəndə Loğman oğlunu ulağa mindirib, özü piyada hərəkət etməyə başladı. Bu dəfə onlar ayrı dəstə camaatla üzləşdilər. Camaat Loğmanla oğlunu görəndə dedilər: “Bu ata və oğul çox pis adamdırlar. Atanın pisliyi ona görədir ki, oğluna yaxşı tərbiyə verməyib. Oğulun pisliyi isə ona görədir ki, atasına hörmətsizlik edir.”

Bu sözü eşidəndə onlar hər ikisi birlikdə ulağa minib yola düşdülər. Onlar yenə də bir dəstə camaatla rastlaşdılar. Camaat bunları görəndə dedilər: “Yaman rəhimsiz adamdırlar, çünki bunlar dilsiz heyvana birlikdə minib onu incidirlər.”

Bu sözdən sonra onlar hər ikisi ulaqdan düşüb piyada getməyi qərara aldılar. Lakin bundan sonra onlar daha bir səhnə ilə üzləşdilər. Bu dəfə onların rastına çıxan camaat onları piyada görəndə dedilər: “Bu iki nəfərin işi çox qəribədir. Belə bir gözəl miniyi qoyub piyada yol gedirlər.”

Bu vaxt Loğman üzünü oğluna tutub dedi: “Oğlum! Gördün ki, müxtəlif fikirli camaatın razılığını toplamaq mümkün deyil?” Sonra buyurdu: “Deməli,

onların razılığını yox, ancaq böyük Allahın razılığını fikirləş!”[1]

İmam Baqir (əleyhissəlam) buyurur: “Allahın razı olmadığı bir işi görüb camaatın razılığını qazanmaq istəyən kəs, nə vaxtsa, camaatın qəzəbinə düçar olacaqdır. Əksinə, Allahın razı olduğu bir işi görüb camaatın qəzəbinə düçar olan şəxs hər bir düşmənçilik, həsəd və zülmdən amanda olacaqdır və Allahın dininə kömək edəcəkdir.”[2]

**Qeyd:** Cəmiyyət arasında səhv fikirlərdən biri də bə`zi günahları kiçik saymaqdır. Əgər Kimin qarşısında olduğumuzu, Kimə qarşı günah etdiyimizi anlasaq, heç bir günahı kiçik saymaz, bütün günahlardan çəkinərik. İslama görə günah – Allaha qarşı müxalifət, e`tinasızlıq, diqqətsizlikdir. Günah – Allah qarşısında özbaşınalıqdır. Heç bir ağıllı insan dövlət başçısı qarşısında pis iş görməyə cür`ət etməz. Bəs necə olur ki, “Qadir” (Qüdrətli) Allah qarşısında günaha yol veririk? Nəinki günahdan qorxmur, yol verdiyimiz günahları kiçik sayırıq. Anlamırıq ki, həmin günah səbəbindən həqiqi bir himayədən məhrum olur, dəhşətli bir uçuruma yaxınlaşırıq.

Həzrət Əli (əleyhissəlam) öz günahını kiçik sayanlar haqqında buyurur: “Ən ağır günah odur ki, günahkar onu kiçik saysın.”[3]

---

[1] Həmin mənbə, c. 2, səh. 511.
[2] “Fruu-Kafi”, c. 5, səh. 63.
[3] “Bihar”, c. 73, səh. 364.

## On dördüncü fəsil

# TÖVBƏ[1]

Tövbə – ərəb kəlməsi olub “günahları tərk edib Allaha doğru qayıtmaq” mə`nasını verir. Başqa sözlə, insan ruhundakı dərin dəyişikliyə həqiqi tövbə deyilir. Belə ki, insan etdiyi xətanı anlayıb onu islah etdikdə vücudunun dərinliklərində dəyişiklik yaranmağa başlayır və o, etdiyi günahlardan peşiman olub Allaha tərəf qayıdır. Bu kəlmə Qur`anda 87 dəfə zikr olunmuşdur.

Cəmiyyət arasında tövbəyə aid üç yanlış fikri yada salmaq istərdik:

***1) Tövbəni tə`xirə salmaq***

Bə`ziləri “**hələ cavanam, qocalanda tövbə edərəm**”-deyə özlərini aldadır və gələcəkdən xəbər verirlər. Görəsən, onların neçə il, hətta neçə saniyə belə ömür sürəcəklərindən xəbəri varmı? Beləleri bilməlidir ki, son nəfəsdə edilən tövbə qə`bul deyil.

Qur`an buyurur: **«Və Israil övladlarını dənizdən (Nil çayından) keçirtdik. Fir`on və ordusu onları zülm və düşmənçilik üzündən tə`qib etdilər. Nəhayət o, boğulmaq halına gəlib çatanda dedi: “Israil övladlarının iman gətirdiyindən başqa bir tanrının olmamasına iman gətirdim və mən təslim olanlardanam.” (Ona deyildi): “Indimi (ki, tövbənin**

[1] Əslində bu kəlmə “təvbəh”dir.

**vaxtı keçmişdir)?! Halbuki, bundan qabaq itaətsizlik etdin və fəsad törədənlərdən idin.” Beləliklə, bu gün səni cansız bədəninlə birgə qurtarıb dəniz sahilinin uca bir yerinə atacağıq ki, səndən sonra gələnlərə (Allahın qüdrəti və batil qüdrətlərin zilləti barədə) bir nişanə olasan. Doğrudan da insanların çoxu bizim nişanələrimizdən qafildirlər.»**[1]

*2) Allahın rəhmətindən ümidini üzmək*

Başqa bir qrup Allahdan naümid olur və deyirlər: “**Mənim o qədər günahım var ki, bağışlanmağıma inanmağım gəlmir.**” Onlardan soruşuruq: “Allahın rəhməti çoxdur, yoxsa, sənin günahların?”

Beləlləri çox təhlükəli bir vəziyyətdədir və nə qədər gec deyil, necə deyərlər, “tövbə qapısı açıqdır.”

Bu barədə Qur`an buyurur: **«...Allahın qurtuluş və mərhəmətindən naümid olmayın ki, Allahın mərhəmətindən kafirlərdən başqa heç kim naümid olmaz.»**[2]

Bir sözlə insan Allahın rəhmətindən naümid olmamalı, Allahın rəhmətinə ümid bəsləməli və etdiyi günahlardan peşman olub tövbə etməlidir.

Qur`ani-Kərim bu barədə belə buyurur: **«Allahdan bağışlanmağınızı diləyin! Həqiqətən, Allah bağışlayan və rəhm edəndir.»**[3]

*3) Allahın qəzəbindən arxayın olmaq*

---

[1] “Yunus” surəsi, ayə 90-92.
[2] “Yusuf” surəsi, ayə 87.
[3] “Əl-Muzzəmmil” surəsi, ayə 20.

Bə`ziləri isə ömür boyu günah edərək **"Allah öz bəndəsinə zülm etməz, O, Mehribandır və günahlarımızı bağışlayacaqdır"-** deyə, özlərinə ürək-dirək verməklə hətta Allaha belə töhmət vurub Onun adından danışırlar. Görəsən, beləlбəri Allah-təala ilə nə vaxt şərt (Allaha pənah aparırıq) kəsiblər?!

Allah günahkarı məhz peşman olduğu, xəcalət çəkdiyi üçün bağışlayır. Amma bə`ziləri Allahın bu rəhmət və mehribanlığı müqabilində günahını elə bir həddə çatdırır ki, tövbə və istiğfar ləyaqətini itirir. Beləbəri bir yolluq unudur ki, tövbə edib bağışlanma diləməlidir. Belə şəxslər haqqında Qur`an buyurur: **«Belə isə, məgər Allahın qəfil əzabından xatircəmdirlər? Halbuki, ziyana uğramış dəstədən başqa heç kəs özünü Allahın məkrindən amanda bilmir.»**[1]

Yaxud: **«Küfr edən kəslər onlara verdiyimiz möhlətin öz xeyirlərinə olmasını güman etməsinlər. Əslində Biz onlara (başa düşmələri üçün) möhlət veririk ki, onlar (öz) günah(ların)ı artırsınlar. Onlar üçün alçaldıcı bir əzab vardır.»**[2]

Bir çoxları tövbəni öz istədiyi kimi anlatmaq istəyir. Məsələn, şəraba yaxud qumara qurşanmış bir nəfər bunlardan əl çəkərsə, elə güman edir ki, tövbə edib. Lakin əslində o, tövbə yox, bunları tərgitmişdir. Həqiqi tövbənin nə və necə olduğunu bizə Qur`an və hədislər başa salır. "Təhrim" surəsində buyurulur:

[1] "Əl-Ə`raf" surəsi", ayə 99.
[2] "Ali-Imran" surəsi", ayə 178.

**«Ey iman gətirənlər, Allaha tərəf qayıdıb xalis və həqiqi tövbə edin.»**[1]

İmam Əli (ələyhissəlam) buyurur: Xalis və həqiqi tövbənin altı şərti vardır. Əgər bu şərtlər yerinə yetirilməsə, deməli, həqiqi tövbə etməmisən.

1. Keçmişdə etdiyin günahlara görə doğrudan da peşiman olasan.
2. Bir daha günah etməmək qərarına gələsən.
3. Allahın haqqını ödəyəsən. Yə`ni keçmişdə tərk etdiyin vacib əməllərin (namaz, oruc, xüms və s.) qəzasını yerinə yetirəsən.
4. Xalqın (camaatın) haqqını ödəyəsən. Yə`ni oğurluq, böhtan və s. günahlara yol vermisənsə, gərək sahiblərini tapıb halallıq alasan, razılıqlarını əldə edəsən.
5. Günahın ləzzət və şirinliyini dadmısansa, ibadət və itaətin də çətinliyinə dözməlisən.
6. Etdiyin günahların dərdindən qəm-qüssəyə batıb, haramla əmələ gələn əti ibadət vasitəsilə bədənində əritməlisən, belə ki, dəri sümüyə yapışıb halaldan təzə ət əmələ gəlsin."[2]

---

[1] Ayə 8.

[2] "Nəhcül-bəlağə", hikmət 417. Əlbətdə ki, burada məcazi mə`na nəzərdə tutulub. Bir sözlə, haram və batil yoldan qayıdan bəndə öz tövbəsində sabitqədəm olmalıdır. Mehriban olan Allah öz bəndəsinin halına yanaraq ona xəbərdarlıq edir, həqiqi tövbə etməsini və günahlarının bağışlanmasını istəyir.

## On beşinci fəsil

## ƏHKAMUL-XAMSƏ

Müsəlmanın yerinə yetirəcəyi hər bir əməlin müqəddəs İslam dinində özünəməxsus hökmü vardır. Insanlara onların əməli vəzifələrini öyrədən sahə “əhkam” (hökmlər) adlanır. Bu hökmlərə “əhkamul-xamsə” (yə`ni, “beş hökmlər”) deyilir və bu da aşağıdakılardan ibarətdir:

1-**Vacib əməl:** Görülməsi lazım olan, tərk olunması isə, Qiyamətdə İlahi əzaba səbəb olan əməldir. Məsələn: Namaz qılmaq, oruc tutmaq, salamın cavabını qaytarmaq və s... Yə`ni, bu əməlləri yerinə yetirmək vacib, tərk etmək isə günahdır.

2-**Haram əməl**: Tərk edilməsi vacib, görülməsi isə Qiyamət əzabına səbəb olan əməldir. Məsələn: Yalan danışmaq, qumar oynamaq, zülm etmək və s... Yə`ni, bu əməlləri yerinə yetirmək günah, tərk etmək isə vacibdir.

3-**Müstəhəb** (bəyənilmiş) **əməl:** Görülməsi yaxşı və savablı olan, tərk edilməsi isə Qiyamət əzabına səbəb olmayan əməldir. Məsələn: Salam vermək, sədəqə vermək, xörək yeyəndə “bismillah” demək və s... Yə`ni, bu əməlləri yerinə yetirən şəxs savab qazanır. Lakin belə əməlləri tərk etməyin nə savabı və nə də günahı vardır.

4-**Məkruh** (bəyənilməmiş) **əməl:** Tərk edilməsi yaxşı və savablı, görülməsi isə Qiyamət əzabına səbəb

olmayan əməldir. Məsələn: Məsciddə yatmaq, ölüm anında olan insanı otaqda tək buraxmaq, cənabətli[1] halda yemək-içmək və s... Yə`ni, bu işləri görməmək daha yaxşıdır. Amma görülsə də Axirətdə heç bir əzabı yoxdur.

5-**Mübah** (adi) **əməl:** Görülməsi və tərk edilməsi eyni səviyyədə olan əməldir. Yə`ni, bu işlərin görülüb-görülməməyinin dini baxımdan fərqi yoxdur. Bu kimi işlərin özü-özlüyündə nə savabı var, nə də günahı. Məsələn: Su içmək, yol getmək, yatmaq və s... Amma mübah işi də Allahın razılığı üçün olsun deyə, niyyət edib savab qazanmaq olar. Məsələn, - bu suyu içirəm ki, ibadət etməyə qüdrətli olum - deyə su içərsə, onda bu əməl savab sayılacaq.

## Birlikdə düşünək

Necə olur ki, hər gün dəfələrlə güzgüyə baxır və necə gözəl göründüyümüzdən bəhs edirik?! Amma bunun üçün bizi gözəl yaradan Gözəl Allaha təşəkkür edirikmi?!

Necə olur ki, məktəbdə, universitetdə iti zehnimizin gücünə əldə etdiyimiz nəaliyyətlər üçün alqışlanırıq?! Amma bu qabiliyyəti bizə bəxş edən Alim olan Allaha təşəkkür edirikmi?!

Necə olur ki, bizə yaxın olan birisinin, bir gün qabaqdan saatın 12-ni göstərdiyi an ad gününü təbrik

Yə`ni, boynunda qüsl olan şəxs.[1]

etmək üçün can atırıq və onlardan təşəkkür aldığımıza görə sevinirik?! Amma bizi bu dünyada var edən Allahın rizasını, təşəkkürünü qazana bilirikmi?!

Necə olur ki, qarşımıza fiziki və ya zehni cəhətdən qüsuru olan biri çıxdığında, daxilən: **"nə yaxşı ki, mən belə deyiləm"** – deyə düşünürük?! Amma ona şəfa [1] verməsi üçün və bu cür qüsurların bizdə olmadığına görə, bizi sağlam yaradan Şafi olan Allaha təşəkkür edirikmi?!

Necə olur ki, dostumuzun bizə verdiyi hər hansı bir hədiyyəyə görə ona öz minnətdarlığımızı və təşəkkürümüzü bildiririk?! Amma gün ərzində zəhmət çəkib yorulduğumuzda dincəlmək üçün isti bir yuvamızın olmasına görə, bizi qapıda qarşılayacaq min zəhmətə qatlaşıb, ömrünü bizə sərf edən, uğrumuzda saç ağardan ata-anamızın, gülərüzlü öladımızın, həyat yoldaşımızın, bacımızın və s. varlığı üçün, həmçinin aldığımız hər nəfəs üçün, yaşadığımız və yaşayacağımız hər gün üçün, sağ-salamat olduğumuz üçün Mehriban və Qüdrətli olan Allaha təşəkkür edirikmi?!

Necə olur ki, 10 manatı məsciddə sədəqə verdikdə bu məbləğ bizə çox görünür?! Amma alış-verişə 100 manat xərclədikdə isə az görünür?!

Necə olur ki, Allaha, Qur`ana inanır, müsəlman olmağımızı, habelə xümsün vacibliyini qə`bul edir, lakin ildə bir dəfə öhdəmizdə olan xümsü ödəmək

Əslində bu söz "şifa"dır.[1]

istəmirik?!.. Amma pulumuzun çox hissəsini haramlarda, o cümlədən barlarda, qumarda, ağlı məst edici içkilərdə və s. batil yollarda rahatlıq və sevinc hissi ilə xərcləyirik?!

Necə olur ki, namaza və ibadətə sərf etdiyimiz yarım saatlıq müddət bizə uzun görünür?! Amma televizor qarşısında isə qısa görünür?!

Necə olur ki, Qur`andan bir hissəni candərdi oxuyuruq və ya heç oxumaq istəmirik?! Amma xoşladığımız roman və ya poema əlimizdən düşmür?!

Necə olur ki, Qur`andan bir hissəni əzbərləməkdə nə qədər çətinlik çəkirik?! Amma edilən dedi-qoduları, qeybəti və boş söhbətləri isə tez yadda saxlayırıq?!

Necə olur ki, qəzetlərdə yazılanlara tez inanırıq?! Amma Allahın Kitabı Qur`anda yazılanlara isə şəkk və tərəddüdlə yanaşırıq?!

Necə olur ki, hamımız Cənnəti arzulayırıq?! Amma bunun üçün zəhmətə qatlaşmaq istəmirik?!

Necə olur ki, hər birimiz başqalarının günahlarını gördükdə "hakim" oluruq?! Amma öz günahlarımızı gördükdə isə "vəkil"ə çevrilirik?!

Necə olur ki, tez-tez - "Allaha qurban olum, Onun yolunda canımdan da keçərəm" – deyirik?! Amma gündəlik ibadətləri yerinə yetirməyə belə tənbəllik edirik?!

Necə olur ki, ömrümüz boyu başqalarının hörmətini, razılığını qazanmaq üçün əlimizdən gələni edirik?! Amma Allahın razılığını qazanmağa gəldikdə isə "vaxtım yoxdur" bəhanəsilə aradan çıxırıq?!

## Qur`an bizə xəbərdarlıq edir

**«Bilin ki, bu dünya həyatı yalnız oyun, əyləncə, bəzənmək, bir-birinizə öyünmək, mal-dövlət və övladda bir-birinizi üstələmək(dən ibarət)dir. Lakin siz (ey insanlar!) dünyanı üstün tutursunuz! Halbuki, axirət daha xeyirli və əbədidir.»**[1]

**«O gün (Qiyamət günü) (həmin qızıl-gümüş) Cəhənnəm odunda qızdırılıb həmin şəxslərin alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq (onlara): "Bu, özünüz üçün yığdığınız həmin xəzinələrdir, odur ki, dadın yığdıqlarınızın cəzasını!" (deyiləcəkdir).»**[2]

**«Sura (ikinci dəfə) üfürülər, onda onların hamısı dərhal qəbirlərindən öz Rəbbinə doğru tələsərlər. Deyərlər: Vay halımıza! Bizi yatdığımız yerdən kim qaldırdı? (Bəli,) bu Rəhman (olan Allahın dünyada) bizə vəd verdiyi həmin (ölümdən sonrakı həyat)dır. Onun peyğəmbərləri doğru deyirlərmiş.»**[3]

**«O gün haqq olan gündür, odur ki, kim istəyirsə (elə indidən) öz Rəbbinə tərəf bir dönüş yolu tutsun.**

---

[1] "Hədid" surəsi, ayə 20 və "Əl-Ə`la" surəsi, ayə 16-17.
"Ət-Tövbə" surəsi, ayə 35.[2]
[3] "Yasin" surəsi, ayə 51-52.

**Həqiqətən, Biz sizi yaxın olan əzabla qorxutduq. Elə bir gün(lə) ki, (o gün) hər kəs öz əlləri ilə öncədən göndərdiklərinə baxar, kafir deyər: Kaş ki, torpaq olaydım (və heç bir məs`uliyyətim olmayaydı).»**[1]

İlahi! Bizi bu dünya və axirətdə Qur`an və Əhli-beytdən ayırma! Bizi bir an da olsun öz başımıza buraxma və aqibətimizi xeyirlilərdən et!

[1] "Ən-Nəbə" surəsi, ayə 39-40.

Kitabın içindəkilər

Ön söz ........................................................................ 3

Birinci fəsil

Allah ........................................................................ 5
Allahın varlığı aydın bir həqiqətdir ................................14
Sultan və bilikli vəzir .................................................... 16
Allahı tanımağın insana olan tə`sirləri .......................... 18

Ikinci fəsil

Din ........................................................................ 24
Dinin zərurəti ............................................................. 25

Üçüncü fəsil

İslam ........................................................................ 27
İslam mö`tədil dindir .................................................... 28
İslam ictimai dindir ...................................................... 31

Dördüncü fəsil

Qur`an ........................................................................ 38
Ən böyük mö`cüzə ......................................................... 45
Bir neçə hədis ............................................................... 46

Beşinci fəsil

Əhli-beyt (ələyhimussəlam) ........................................... 49
Əhli-beyt (ələyhimussəlam) Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) sünnəsində............................. 51
Səqələyn hədisi ............................................................ 52
Səfinə hədisi ................................................................ 53

Altıncı fəsil

Din ilə elmin qarşılıqlı münasibəti ................................ 58
Elm Qur`anda ...................................................................... 60
Elm hədislərdə .................................................................. 63

Yeddinci fəsil

Usuluddin ........................................................................ 72
İslam cəmiyyətində rəhbərin rolu ................................ 77
Nə üçün ölümdən qorxuruq?............................................. 82

Səkkizinci fəsil

Furuuddin ........................................................................ 84
Namazın sözləri və tərcüməsi ...................................... 88
Yeddi bəhanə ...................................................................... 91
Bəhanə, yoxsa araşdırma? ............................................... 94
Bir söhbət ........................................................................... 95
Orucu batil edən şeylər ................................................ 97
Orucu vacib olmayan şəxslər ....................................... 98
Pak niyyət və vicdanın tərbiyəsi ............................... 99
Orucun faydaları və tə`sirləri......................................100
Mən nə üçün oruc tutmalıyam?.....................................104
Oruc tutmaq barədə yanlış fikirlər ................................105
Xümsün xərclənməsi ..................................................... 109
Nələrə xüms düşür? ........................................................109
Xümsü tərk etməyin tə`sirləri .................................. 111
Xüms ödəməyin tə`sirləri ............................................ 114
Xümsün fəlsəfəsi .......................................................... 118
Bir şübhəyə cavab ......................................................... 121
Seyyidlik nə vaxtdan başlamışdır? ................................. 122
Xüms və vergi ................................................................ 125
Iki bəhanə ......................................................................... 126
Zəkatın sərf olunması...................................................128
Zəkatın tərki ................................................................. 129

Ehram libası ..................................................................134
Həcc – böyük İslam konfransıdır .................................. 135
Həccin tə`sirləri və yönümləri ........................................ 136
Bir neçə tövsiyə ..............................................................152
Əmr be mə`ruf və nəhy əz munkərin şərtləri ..............153
Əmr be mə`ruf və nəhy əz munkərin mərhələləri ............... 15
Mə`sumların (ələyhissəlam) nəzərində təvəlla və təbərranın əhəmiyyəti.......158
Saleh əməllərin qə`bulunda təvəlla və təbərranın rolu ........................................................................ 159

Doqquzuncu fəsil
Təqlid ........................................................................... 163
Kimə təqlid etməli? …................................................. 167
Rəvayətlərdə təqlidin vacibliyi...........................................173

Onuncu fəsil
Xurafat.......................................................................... 176
Xurafatın əsirlik zəncirləri ........................................... 177
Ərəb cahiliyyəti dövründə xurafat ............................. 182
Elm və inkişaf əsrində xurafat .......................................185

On birinci fəsil
Bid`ət............................................................................. 193

On ikinci fəsil
Əql (ağıl) ..................................................................... 196

On üçüncü fəsil
Günah ........................................................................... 198
Qur`anda zikr olunan bə`zi günahlar ............................ 203
Pozğun mühit .............................................................. 206
Hamını razı salmaq istəyirsən? .......................................... 208

On dördüncü fəsil
Tövbə ........................................................................... 212

On beşinci fəsil
Əhkamul-xamsə .................................................................. 217
Birlikdə düşünək ................................................................ 218
Qur`an bizə xəbərdarlıq edir ........................................... 221
Kitabın içindəkilər .............................................................. 223

İrad və təklifləriniz üçün:

kitabullah-14@mail.ru